AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI

A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU

**AZƏRBAYCAN TARİXİNƏ DAİR MƏNBƏLƏR**

# GƏNCƏ-QARABAĞ ƏYALƏTİNİN İCMAL, TİMAR RUZNAMÇƏ VƏ TƏHVİL DƏFTƏRLƏRİ

**BAKI – 2023**

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutunun
Elmi Şurasının qərarı ilə çap olunur

OSMANLI TÜRKCƏSİNDƏN TƏRCÜMƏ və TRANSLİTERASİYA,
ÖN SÖZ, ARAŞDIRMA MƏTNLƏRİ, QEYD VƏ ŞƏRHLƏR
TARİX ÜZRƏ FƏLSƏFƏ DOKTORU, DOSENT

**HÜSAMƏDDİN QARAMANLININDIR**

Elmi redaktor: **Tofiq Nəcəfli**
tarix elmləri doktoru, dosent

Rəyçilər: **Fərəh Hüseyn**
tarix üzrə fəlsəfə doktoru, dosent,

**Güntəkin Nəcəfli**
tarix üzrə fəlsəfə doktoru, dosent

Gəncə-Qarabağ əyalətinin İcmal, Timar ruznamçə və Təhvil dəftərləri. Osmanlı türkcəsindən tərcümə, Bakı, "Nəşriyyat" şöbəsi, 2023, - 594 s.

Azərbaycan dilinə ilk dəfə tərcümə olunub birlikdə çap edilən üç tarixi qaynaq qiymətli faktlarla zəngindir. "Dəftərlər"də Gəncə-Qarabağ əyalətinin inzibati-ərazi vahidləri, torpaq mülkiyyəti formaları, paylanılan zeamət və timarlar, came və məscidlərin vəkfləri, vergilərə cəlb edilən mənbələr və onların xarakteri barədə mühüm məlumatlar var.

Kitabdan mütəxəssislər və Azərbaycan tarixi ilə maraqlanan oxucular faydalana bilərlər.

© AMEA A. A. Bakıxanov adına Tarix İnstitutu, 2023.

# MÜNDƏRİCAT


**ÖN SÖZ** ........................................................................ 5

**MƏNBƏLƏRİN XÜLASƏSİ**

a. Gəncə-Qarabağ əyalətinin Müfəssəl dəftəri ....................... 15
b. Gəncə-Qarabağ əyalətinin İcmal dəftəri və onun mənbələrindən olan "*Dəftər-i müfrədat-i Əcəm*" .............. 16
c. Gəncə-Qarabağ əyalətinin Timar ruznamçə və Təhvil dəftərləri ................................................................ 18
d. Bolqarıstan Milli kitabxanasının osmanlıca sənədləri ....... 20

**OSMANLI HAKİMİYYƏTİ DÖVRÜNDƏ GƏNCƏ-QARABAĞ ƏYALƏTİNİN ƏRAZİ-İNZİBATİ BÖLGÜSÜ** ........................................................................21

a. Liva, qəza və nahiyələr ...................................................... 22
b. Sultanlıq ........................................................................... 24
c. Yurdluq və ocaqlıq............................................................. 25

**Torpaq sahibliyi formaları**: ***xas, zeamət, timar*** ..................... 27

Zeamət və timarların verilmə qaydaları. .................................. 31

Gəncə-Qarabağ əyalətində olan zeamət və timar rəayalarının maddi imkanları ............................................................................ 37

**OSMANLI DÖVRÜ GƏNCƏ-QARABAĞ ƏYALƏTİNİN QƏSƏBƏ VƏ ŞƏHƏRLƏRİ** ....................... 45

**GƏNCƏ-QARABAĞ ƏYALƏTİNDƏ İLTİZAMIN TƏTBİQİ** ........................................................... 49

İltizamdan əldə edilən gəlirin xərclər maddəsi ......................... 52

**VƏQFLƏR** ...................................................................................... 55

**SON SÖZ ƏVƏZİ**: Gəncə-Qarabağ əyalətində xristian torpaq sahibləri olmuşdurmu?...................................... 59

**MƏNBƏ VƏ ƏDƏBİYYAT** .................................................. 66
Mənbələrin nəşri ilə bağlı qeydlər ........................................... 70

## [DƏFTƏRLƏRİN TƏRCÜMƏSİ]

**GƏNCƏ-QARABAĞ ƏYALƏTİNİN İCMAL DƏFTƏRİ** ..................................................................... 73

**GƏNCƏ-QARABAĞ ƏYALƏTİNİN 914 №:li TİMAR RUZNAMÇƏ DƏFTƏRİ**........................................ 191

**GƏNCƏ-QARABAĞ ƏYALƏTİNİN 913 №:li TƏHVİL DƏFTƏRİ** ............................................................. 335

**SUMMARY** ......................................................................... 592

**USTADIM,**
**AKADEMİK ZİYA BÜNYADOVUN**
**ƏZİZ XATİRƏSİNƏ**

# ÖN SÖZ

Şəhidlərimiz və qazilərimizin igidliyi, Azərbaycanın hərbi-siyasi rəhbərliyinin ölkəmizin mövcud resurslarından səmərəli istifadəsi sayəsində Qarabağdakı Azərbaycan torpaqları işğaldan azad edildi. Torpaqlarımızın 30 il ərzində barbarların əsarətində qalması şəhər və kəndlərimizin, tarixi abidələrimizin, məscidlərimizin, məzarlıqların və s. dağıdılması ilə nəticələnmişdir.

Torpaqlarımızın işğaldan azad edilməsi və sürətlə aparılan quruculuq işləri fonunda TARİXİMİZİN hələ də Ermənistan tarixçilərinin işğalı altında qalmasını da etiraf etməliyik. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda çalışan tarixçilərin tariximizi işğaldan azad etmək uğrunda yorulmadan mübarizə apardıqlarını və böyük uğurlar qazandıqlarını da fəxrlə qeyd etmək lazımdır.

Ermənistanın öz müttəfiqi ilə birləşib, Qarabağı işğal etməsi Ermənistan tarixçilərində bu vəziyyətin heç vaxt dəyişməyəcəyi ilə bağlı arxayınçılıq və Qarabağın tarixini *sərbəst* və *məsuliyyətsiz* bir şəkildə nəzərdən keçirmələrinə şərait yaratmışdır. ***Yalnız*** *orta əsr erməni müəlliflərinin yazdıqları əsərlərə və eyni zamanda, bəzi istisnalarla,* ***yalnız*** *müasir dövr erməni tarixçilərinə isnad edən Ermənistan tarixçiləri* Qarabağın əzəli erməni torpağı olması məsələsində bir-biriylə həmrəylik nümayiş etdirməklə kifayətlənməyərək, yazdıqları kitab və məqalələrdə "*elmi yenilik"* gətirdiklərini qabarıq nümayiş etdirmək üçün məlum uydurmalarını mahiyyətinə və hansı tarixi dövrdən bəhs etmələrinin fərqinə varmadan yeni terminlərlə zənginləşdirməyi böyük elmi nailiyyət hesab edirlər - orta əsrlər dövrü üçün "*milli* (?)-*azadlıq hərəkatı*", "*dövlət dili*", "*respublika*", "*soyqırım*",

"*pantürkizm /panturanizm*"[1] və s. terminlərin istifadəsi adi hala çevirilmişdir.

Ümumi şəkildə dəyərləndirəsi olsaq, müasir Ermənistan tarixçilərinin tarix konsepsiyasının dörd əsas istiqamət üzərində qurulduğunu qeyd etməliyik. Bunlar,

***a.*** Ermənilərin qədim xalq və öz dövlətlərini qura bilmək üçün yüksək siyasi mədəniyyətə sahib olması;

***b.*** Ermənilərin Yaxın Şərqdə xristian sivilizasiyasının yaradıcısı olması;

***c.*** "Barbarlar"la əhatələnmiş regionda ermənilərin Qərb sivilizasiyanın yeganə təmsilçisi və onun varlığını qoruyan xalg olması;

***d.*** Özlərinin Qərb (xristian) sivilizasiyasının son hüdudunda məskunlaşmış əzabkeş bir xalq olması və ideoloji klişelərdən istifadə etməklə türklərdən düşmən obrazının yaradılması.

Bu konsepsiyada ənənəvi olaraq xüsusi vurğulanan "*qədimlik*" anlayışıdır. Bu anlayış qədim dövrlərdən başlayaraq, XIX əsrə qədər, "qədim erməni dövləti"nin kəşf edilməsini, harada olurlarsa-olsun, həmin yerlərə "yeni mədəniyyətin" gətirilməsini, bugün məskunlaşdıqları torpaqlara qədim zamanlardan gəlib yerləşmələrinin sübut edilməsini Ermənistan tarixçiləri öz

---

[1] Bu terminlər yalnız elmi-kütləvi nəşrlərdə deyil, akademik nəşrlərdə də çox geniş yayılmışdır. Misal üçün, Ermənistan Elmlər Akademiyasının "Fundamental Armenology" elektron jurnalında Eduard Danielyan XVI və XVII əsrlərdə Osmanlı və Səfəvi dövlətləri arasında baş vermiş müharibələrdən sonra "Qərbi Ermənistan" torpaqları bu iki dövlət arasında parçalanmış, ardınca isə, "vəhşi *pantürkist* ideologiyası üzərində qurulmuş işğalçılıq siyasətinin nətisəci olaraq Qərbi Ermənistanın və Kilikiyanın toponimlərinin təhrif edilməsinə girişilmişdir" qənaətini qeyd edir. XVIII əsrin 20-ci illərində osmanlılarla döyüşdə ermənilərin qələbə çaldıqlarını iddia edən E.Danielyan, "türklərin Artsaxda (Qarabağda- H.Q.) məğlub edilməsi türklərin aqqresiv *panturanist* (?) ambisiyalarına ermənilərin qəti cavabı idi" nəticəsinə varır. Bax: Eduard Danielyan, "Turkish-Azerbaijani falsifications of the armenian toponyms as an indication of the genocidal polisy" //*"Fundamental Armenology",* 2015, №: 1, p. 160, footnote 5.

milli məqsəd və vəzifələrinə çevirərək, XXI əsrin gerçəkliyini "qədimlik tezisi" ilə şərh etməyi dəyişməz bir düstur halına salmışlar.

Qeyd etdiyimiz tezisləri gerçəkləşdirmək üçün Ermənistan tarixçilərinin üsullar bazası olduqça zəngindir: diqqəti cəlb edən odur ki, yalnız erməni dilində (qrabar və aşxarabar) yazılmış xronikalara, bəzi istisnalarla, yalnız müasir erməni tarixçilərinə isnad edərək, istifadə etdikləri xronikaların dövründən başlayaraq söylənənlərin yeni variasiyalarda təkrar edilməsi müasir Ermənistan tarixçiləri arasında ən geniş yayılmış araşdırma "üsul"udur. Mənbəşünaslıq bazası bu tərzdə formalaşdırılmış tədqiqatların müəlliflərinin çıxaracağı "elmi nəticə"nin necə səslənəcəyini müəyyən etmək çətin iş olmasa da, bu tədqiqat üsulu müasir Ermənistan tarixşünaslığında yekdilliklə qəbul olan üsuldur.

Ermənilərin etnopsixologiyasında sabit yeri olan aşağılıq kompleksini bir daha zədələməmək naminə, onların arasında olmuş Avropalı səyyah, tacir və missionerlərin yol qeydlərində ermənilər haqqında bəhs edərkən, nitq hissəsi *sifətin* bütün quruluş növlərindən və yalnız pozitiv çalarları olan leksik vahidlərdən, eyni zamanda avropalı oxucusunun alışdığı və lokalizasiyası asan qədim yer adlarından geniş istifadə edildiyi üçün, müasir Ermənistan tarixçiləri də "tezisləri"nin əsaslı olduğunu nümayiş etdirmək üçün məhz bu müəlliflərə isnad etməyə üstünlük verərək, özlərini "haqlı" çıxarır.[2] Halbuki, onları tənqid edən, saxtakar olduqlarını üzlərinə deyən Jan Şarden Ermənistan tarixçilərinin çox nadir hallarda isnad etdiyi müəlliflərdəndir.[3]

---

[2] Müasir siyasətçilər də Ermənistanı və erməniləri öz siyasi maraqlarının icraçısına çevirmək məqsədi ilə ermənilíyə ünvanlanmış müraciət və çıxışlarında tərifləmək üsulundan geniş istifadə edirlər.

[3] Jan Şarden ermənilərin saxtakarlığı ilə bağlı bir neçə maraqlı məlumat verir. Bu məlumatları ona verən ermənilərin "cahil" və "yekəxana" olduqlarına və söylədiklərinin də "inandırıcı" olmadığına diqqəti çəkən Jan Şarden yazır ki, ermənilər ona İrəvan şəhərinin adının erməni dilində ***"görmək"*** felindən yarandığını və bunun da Nuhun Ağrı dağından aşağı enərkən ilk gördüyü yer olduğu üçün bu adın verildiyini söyləmişlər. Bu yozma ilə razılaşmayan Jan

***

Nəzərdən keçirdiyimiz dövr üçün Qarabağın xristian əhalisinin icma başçısı olan məliklərin səlahiyyət arealına daxil torpaqlar üzərində "siyasi müstəqilliklərini və erməni feodal dövlətinə xas olan sosial-iqtisadi sistemi qoruyub saxlaya bilmələri"[4] tezisi yuxarıda toxunduğumuz üsullardan bəhrələnməkdədir. Məhz bu kontekstdə Azərbaycanın *"qədim erməni torpaqlarını işğal etməsi"*, Azərbaycan tarixçilərini isə, *"saxtakarlıqda" ittiham etmələri* xüsusi vurğulanan məsələlərdəndir.

Bunlar azmış kimi, müasir Ermənistan tarixçiləri – 20-ci əsrin Sovet dövrü tarixinin siyasi (həm də ideoloji!) gerçəkliyi kontekstində Azərbaycanlı adlandırılmağımıza bilərəkdən göz yumarak və ən başlıcası bunu fürsət bilərək, TÜRKLÜYÜMÜZÜ və bu torpaqlarda qurulan dövlətlərin türk-müsəlmanların qurduqları dövlətlər olduğunu inkar etməkdədirlər. Azərbaycanlı anlayışını XIX əsrdə və daha əvvəlki yüzilliklərdə "*axtarışını aparıb tapa bilmədikləri üçün*", Qarabağ daxil olmaqla, Şimali Azərbaycanın torpaqlarını "qədim erməni dövlətlərinin torpaqları" olduğunu çox asanlıqla iddia edirlər. "Azərbaycanlı" anlayışını əsas götürərək və bizim türk kimliyimizi büsbütün rədd edərək, torpaqlarımız üzərində qurulmuş dövlətləri, misal üçün, nəzərdən keçirdiyimiz dövrdə güdrətli dövlətlərimizdən olmuş Səfəvi dövlətini "*fars*" (*персидский*) kimliyi ilə təqdim

---

Şarden qeyd edir ki, "erməni dilinin yeni dil olduğunu və 700 il əvvəl heç kimə məlum olmadığını bilməyən varmı?" Bunun ardınca Jan Şarden "nə İrəvan şəhərinin özündə, nə də ki, onun ətraf yerlərində qədimliyin izi-tozu yoxdur", deyə eşitdiklərinə şərh verir. Vəftizçi İoannın iki barmağının sümüklərinin Eçmiədzində saxlanıldığını söyləyən və "özlərini böyük alim hesab edən Eçmiədzin rahibləri o dərəcədə cahildirlər ki, hətta ilk dəfə məndən eşitdikləri belə bir faktı bilmirlər ki, tarixi məlumatlara görə, mürtəd Yulianın əmri ilə Vəftizçi İoannın bədəni yandırılıb kül edilmişdir;" bax: *Путешествие кавалера Шардена по Закавказью в 1672-1673 гг,* пер. Е.В.Бахутовой и Д.П.Носовича, Тифлис, 1902, с. 244-246.

[4] Артак Магалян, *Арцахские меликства и меликские дома в XVII- XIX вв,* Ереван, "ВМВ-Принт", 2012, с. 30.

etmələri, dövlətin adını "*İran*", parallel olaraq "*Persiya*" adlandıraraq, bu dövlətin bizə aidiyyəti yox imiş kimi təqdim edirlər. Halbuki, Səfəvi və Əfşar dövlətləri dövründə erməni dilində yazılmış narrativ mənbələrin müəllifləri (Arakel Davrijetsi, Abram Kretatsi, Simeon Yerevantsi və b.) Səfəvi şahları ilə, həmçinin Nadir şahın özü ilə yalnız türkcə danışmış və əsərlərində türkcə aparılmış dialoqun türkcə mətnini əks etdirmişdilər. Bundan əlavə, katolikoslar şaha "*qəbul olunmuş qaydalara görə*" yalnız türkcə müraciət edə bilərdilər.[5] Hətta xristian məlik və ruhanilərin Rusiya çarlarına yazdıqları məktublar da türkcə sözlərin bolluğu ilə seçilirdi.[6] Ermənistan tarixçilərinin "milli qəhrəman" saydıqları İsrael Ori Rusiya çarı I Pyotra veriləsi məktubun rus dilinə tərcümə olunması üçün, məktubu rus dilinə çevirəcək tərcüməçiyə məktubun məzmununu *türk dilində* çatdırır.[7] Nəhayət, onu da əlavə edək ki, məhz türklərin qurduğu dövlətlərdə yaradılmış sosial-mədəni mühit, *375-dən çox erməni aşıq və şairini farsca deyil*, məhz *türkcə* yazmağa ruhlandırmışdır.[8] (*Müqayisə üçün qeyd edək ki, müasir Ermənistan Yazıçılar Birliyinin 386 nəfər üzvü vardır!*)

Ermənistan tarixçilərinin kolleksiyasında bir çox saxtakarlıq nümunələrinin olmasına baxmayaraq, son dövrlərdə yeni, konspirasiya nəzəriyyəsi üzərində qurulan tədqiqatların da ortaya çıxdığının şahidi oluruq: həmin nəzəriyyəyə əsaslanan "tədqiqatlardan" biri də D.Babayanın Qarabağ xanlığının siyasi tarı-

---

[5] Bax: Симеон Ереванци, *Джамбр*, пер. С.С.Малхасянца, Москва, 1958, с. 130.

[6] «…армянские документы... переполненном татарскими (азербайджанскими) словами...» //bax: Г.А.Эзов, *Сношения Петра Великого с армянским народом*, документы, Санкт-Петербург, 1898, с. CXLIV-CXLV (bundan sonra - Г.А.Эзов). Qeyd etmək yerinə düşər ki, İsrael Orinin Rusiya çarı I Pyotra hədiyyə kimi təqdim etdiyi 12 adda əşyanın heç biri erməni malı olmamışdır. Adbaad verilən siyahıdan aydın olur ki, gözəl sənət nümunələri olan hədiyyələrin doqquzunu məhz *türk sənətkarları* hazırlamışdılar // bax: Г.А.Эзов, с. 99 (документ №: 51).

[7] Bax: Г.А.Эзов, с. 85 (документ №: 50).

[8] Mirəli Seyidov, *Sayat Nova*, Bakı, 1954, s. 84.

xinə həsr etdiyi kitabını qeyd edə bilərik; bu kitabı erməni xülyalarının və saxtakarlığının hüdudsuz olduğunun bariz nümunəsi kimi qəbul etmək lazımdır. Azərbaycanın Qarabağla bağlı "iddialarının" kökündə güya bizim yeganə əsasımızın burada yaradılmış Qarabağ xanlığı faktoru olduğunu qabardan D.Babayanın "nəzəriyyəsinə" görə, XVIII əsrdə girişilmiş azadlıq hərəkatından (əslində isə, Rusiyanın himayəsinə keçmə təşəbbüsündən) müsbət nəticə əldə edə bilməyən məliklər Qarabağda erməni dövləti qurma layihəsini gerçəkləşdirməyə başlayırlar. Lakin bunun üçün elə bir strategiya işlənib-hazırlanmalıymış ki, o potensial düşmənləri nə şübhələndirməli, nə də vahiməyə salmalıydı. Bunun üçün, hələ Nadir şahın hakimiyyətdə olduğu dövrdə onun sarayında xidmət edən Qarabağın gələcək xanı Pənah xanı məliklər *ələ almış*, sonra da Qarabağa gətirərək, xanlığın başına keçirmişlər.

Pənah xanın etnik kimliyinə gəlincə: D.Babayan əvvəlcə Pənah xanın azərbaycanlı olmadığını iddia edir, sonra bunu əsaslandırmaq üçün belə bir "elmi" tərif irəli sürür ki, güya azərbaycanlılar üçün qrup kimliyinin əsasını tayfa anlayışı təşkil etmiş, Pənah xanın da "monoetnik olmayan" Cavanşirlərdən olmasını əsas kimi götürərək, onun "milli mənsubiyyətinin olmadığı" kimi bəsit və sxematik bir tezis ortaya qoyur. D.Babayanın fikrincə, məhz "milli mənsubiyyəti olmadığına" görə, məliklər Pənah xanı da xan vəzifəsinə namizəd kimi seçməkdə yanılmayıbmışlar: XIX əsrdən başlayaraq bu günədək Pənah xanı "quldur", "quldur dəstələrinin başçısı", "soyğunçu", "avara" kimi təsvir edən erməni tarixçilərindən fərqli olaraq, D.Babayan Pənah xanın "həqiqətən də qeyri-adi bir şəxs" olduğunu vurğulayır.

D.Babayana görə, məliklərin bu "*layihəsi*" özünün "ağlasığmaz mahiyyəti", "təhlükəlilik dərəcəsi", "fövqəladə gizliliyi" və "dahiyanəliyi" baxımından, bu günün özündə belə "inanılmaz" hesab edilə bilər. Məlum mənbələrə isnad edən və məlum olan faktları "nəzəriyyəsi"nə pərçimləyərək "yeni" şəkildə şərh edən D.Babayanın vardığı və "elmi" hesab etdiyi absurd nəticə

bundan ibarətdir ki, məliklər öz siyasi planlarını böyük uğurla gerçəkləşdirə bilmiş və yaratdıqları "erməni dövləti" olan *Qarabağ xanlığını Rusiyaya birləşdirməyə nail olmuşdular* (!?).[9]

Nəhayət, Ermənistanın "baş tarixçisi", Tarix İnstitutunun direktoru Aşot Melkonyan Azərbaycan ərazisində az qala bütün şəhər və bölgələri, o cümlədən Bakı, Şəki, Şirvan, Utik, Artsax və s. yer adlarını erməni mənşəli, bu yerlərin ermənilərlə məskun və erməni torpaqları olduğunu qeyd edir. Bu yerlərdə türklərin XI əsrə qədər varlığından bəhs etmənin isə, "gülməli" olduğunu vurğulayan A.Melkonyan müasir Ermənistan ərazisində ermənicə olan yer adlarının "türkcələşdirilməsinin" XIV-XV əsrlərə aidliyini, coğrafi obyektlərə ad verərkən isə, türklərin bu işi "primitiv" şəkildə gördüklərini yazır: güya türklər yer adlarını gördükləri obyektlərin sayına uyğun olaraq adlandırarmışlar. Ardınca da misallar verir - türklər üç kilsə görərkən, o yeri "üçkilsə", dörd kilsə görərkən isə, "dördkilsə" adlandırarmışlar.[10]

Qarabağda türklərin varlığını büsbütün inkar edən Stepan Dadayan isə türk etnosunun "izlərinin" yalnız Qarabağ xanlığının yaradılmasından sonra müşahidə olunduğunu yazır.[11]

Tarixlərini miflər, gələcəyini isə xülyalar üzərində qurmuş ermənilərin bir gün türklərin öz yurdlarına – Göyçə və Zəngəzura qayıdacağı qorxusuna məlhəm ola biləcəyini düşünən və elmi işlərindən daha çox 3-4 cümləlik, qısa replika-intervyuları ilə tanınan Ermənistanın "baş tarixçi"sinə, o cümlədən S.

---

[9] Д.Бабаян, *Политическая история Карабахского ханства в контексте арцахской дипломатии XVIII века*, Ереван, Антарес, 2007.

[10] [Ашот Мелконян] "Все территории современного Азербайджана были армянскими: академик ответил Алиеву", https://armenia.im/news-ru/vse-territorii-sovremennogo-azerbajdzhana-byli-armyanskimi-akademik-otvetil-alievu/

[11] Степан Дадаян, *Политическая история Арцаха-Карабаха от Хамсы до автономии, факты и вымыслы*, Степанакерт, 2017, с.45, 50; kitabının başlığında istifadə etdiyi "факты и вымыслы / faktlar və uydurmalar" sözləri Dadayanın bu "tədqiqatının" məzmununu və xüsusiyyətlərini dəqiq və yığcam əks etdirir!

Dadayan və onunla həmfikir olan digərlərinə türklərin Qarabağ daxil olmaqla Cənubi Qafqazda erkən orta əsrlər dövründən başlayaraq kütləvi şəkildə var olduqlarını, regionun etno-demoqrafik proseslərində və siyasi həyatında *ciddi faktora* çevrildiklərini yəgin edə bilmələri üçün məsləhətimiz odur ki, əvvəlcə Favstos Buzandı, Moisey Xorenatsini, Yegişeni, Lazar Parpetsini, Sebeosu, Kalankaytuklu Moiseyi və b. bir daha nəzərdən keçirsinlər, sonra isə özlərini bilmədiyi işin ustadı kimi qələmə verməyin mənasızlığını dərk etsinlər.[12]

Qarabağ tarixi ilə bağlı müasir Ermənistan tarixşünaslığında nəzərə çarpan tendensiyaların mahiyyətini açan Azərbaycan tarixçilərinin kitab və məqalələrinə Ermənistan tarixçiləri ya tutarlı cavab verə bilmir, ya da ki, söz güləşdirməklə işlərini bitmiş hesab edirlər. Əksər hallarda isə, diskussiyalardan yan keçməyə üstünlük verərək, onların "nəzəriyyələrini" çürüdən elmi tədqiqatların olduğunu görməzlikdən gəlirlər.

---

[12] Şifahi deyil, yalnız yazılı mənbələrə əsaslanaraq fikir irəli sürən Azərbaycan tarixçilərinin nəşr etdikləri mənbələrdə Qarabağ ərazisində yüzlərlə türk-müsəlman mənşəli yer adlarının olduğu üzə çıxarılmışdır. Hətta xristianların yaşadığı, lakin türk-müsəlman adları daşıyan kəndlərin də sayının çox olması faktı da diqqətəlayiqdir. Əlavə edək ki, məliklərin Qarabağa gəlib yerləşdikləri kəndlərin adları da türk adlarıdır; misal üçün, Çanaxçı, Talış, Tuğ və s.

Yer adlarına toxunarkən, Azərbaycan albanşünaslarına da irad tutulması yersiz olmazdır. Qafqaz Albaniyası ərazisində, xüsusilə də Qarabağda ermənilərin deyil, Qafqazdilli albanların var olmasının sübut edilməsinə aludəçilik əvəzinə, albanşünaslarımızın bu torpaqlarda erkən orta əsrlər dövründən başlayaraq, türklərin kütləvi məskunlaşmasına, bu məskunlaşmanın coğrafiyasına (əslində isə, arealına!), ölkənin siyasi (bəlkə də, mədəni) həyatında nə kimi rollarının olmasına, o cümlədən kütləvi türk axınları ilə yer adlarının formalaşmasındakı intensivliyin qarşılıqlı əlaqəsinə aydınlıq gətirmələri faydalı olardı. Qafqaz Albaniyasının yer adları ilə bağlı Azərbaycan türkoloqları ilə əməkdaşlıq edilməməsinin və onların akademik nəşrlərdə irəli sürdükləri fikirlərə biganəliyin də albanşünaslarımız arasında ənənə şəklini alması təəssüflə qeyd edilməlidir.

***

Təqdim etdiyimiz mənbələrlə bağlı araşdırmanın oçerklər şəklində yazılmasına üstünlük verməyi qərara aldıq. Bu yanaşmanın mənbələrin həm məzmununu açıqlamağa, həm də bu dövr üçün araşdırılmış və araşdırılmamış qalan elmi məsələləri yeni kontekstdə nəzərdən keçirməyə imkan verdiyini xüsusi vurğulamaq istərdik.

***

Mənbələr üzərində işləyərkən, həmkarlarımın mənə lazım olan köməyi əsirgəmədiklərini nəzərə çatdırmağı lazım bilirəm.

İlk öncə, İcmal dəftərlərinin yadellilərin Azərbaycana qarşı olan torpaq iddialarına dövlətçilik məsələləri ilə yanaşı, mülkiyyət məsələsini də önə çəkməklə tutarlı cavab vermək üçün ən mühüm mənbə olduğuna nəzərimi cəlb edən, 1989-cu və 1990-cu illərdə mənə İcmal dəftərlərilə bağlı *ustad dərsləri* verən və dünyasını dəyişməzdən əvvəl zəhmətini halal edən mərhum professor Xəlil İnalcıkı (1916-2016) rəhmətlə anmaq istərdim.

Ruznamçə dəftərləri ilə bağlı hər cür köməyi göstərmiş Türkiyənin tanınmış tarixçisi, professor Əminə Ərdoğan_Özünlüyə və ruznamçə dəftərlərinin üzərində yenidən işləyə bilməyim üçün əlimdə olmayan nüsxələrin surətini İstanbuldan Başbakanlık Arxivindən çıxarıb gətirmiş dostum Nazir Əhmədliyə, Qarabağın yaylaq yerlərinə dərindən bələd olan və onların lokalizasiyasında köməyini əsirgəməyən əziz dostum, Azərbaycanın görkəmli rəssamı Məzahir Avşara təşəkkür və ehtiramımı bildirmək istərdim.

Azərbaycan tarixi ilə bağlı mənbələrin üzə çıxarılması, tərcümə və nəşri sahəsinə yeni impuls vermiş, başda professor Kərim Şükürlü olmaqla Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnsitututun rəhbərliyinə bu kitabın nəşrini üzərlərinə götürdükləri üçün təşəkkür etməyi özümə borc bilirəm.

***

XVIII əsrin əvvəllərində süquta doğru gedən Səfəvi dövlətinin şimal-qərbində olan ərazisi Osmanlı dövləti tərəfindən 1723-cü ildə başladılan müharibə nəticəsində ələ keçirilmiş və 1735-ci ilə qədər bu yerlərdə osmanlı idarəçiliyi tətbiq edilmişdir.[13]

Döyüşlərdə qələbə çalaraq, Səfəvi bəylərbəyliklərini ələ keçirən osmanlılar, bəylərbəyi (mirmiran) vəzifəsinə osmanlı təbəələrini təyin edər, lakin hər hansı bir əyaləti dinc yolla ələ keçirmək istədikləri halda, həmin əyalətin valilərini vəzifələrində saxlamaqla, öz tərəfinə çəkmiş və beləliklə də, valisi Osmanlı hakimiyyətini qəbul etmiş vilayət də dinc yolla ələ keçirilmişdir.[14]

Osmanlı hakimiyyəti altında olmuş Səfəvi bəylərbəyliklərindən biri olan Gəncə-Qarabağ bəylərbəyliyinin ələ keçirilməsi osmanlılar üçün asan olmamış[15] və osmanlı idarə üsulunun tətbiqinə yalnız 1725-ci ildə Gəncə qalasının fəthindən sonra başlanmışdır. Təqribən on il osmanlı hakimiyyəti altında olmuş Gəncə-Qarabağ əyalətinin həmin illərdəki vəziyyətini məhz osmanlı sənədlərində əks olunması bu sənədlərə müraciət etməyimizi şərtləndirmişdir.

---

[13] Bu haqda ətraflı bax: Tofiq Mustafazadə, *XVIII yüzillik - XIX yüzilliyin əvvəllərində Osmanlı - Azərbaycan münasibətləri,* Bakı, "Elm", 2002, s. 65-111 (bundan sonra: Tofiq Mustafazadə74; Yaxşıxanım Nəsirova, *Osmanlı hakimiyyəti dövründə Urmiya və Xalxal bölgələri (XVIII əsrin 20-ci illəri).* Bakı, "Elm", 2021.

[14] "Tarih-i Küçükçelebizade", *Tarih-i Raşid,* Matba'-i Amire, İstanbul, 1282, s. 118, 137, 248, 293, 326, 332 və s.

[15] Yenə orada, s.294-296.

# MƏNBƏLƏRİN XÜLASƏSİ

Təqdim olunan dəftərlər əsasən osmanlılar dövründə Gəncə-Qarabağ əyalətində mövcud olmuş torpaq mülkiyyəti formaları və onlardan zeamət və timarların verilmə qaydalarına aiddirlər. Bununla yanaşı İcmal dəftərdə əyalətdə olan sultan və Gəncə şəhərindəki came və məscidlərin vəqfləri haqqında da dolğun məlumat vardır.

Dəftərlərin kitabdakı ardıcıllığı onların tərtib olunması ardıcıllığı ilə bağlılığı yoxdur. Tərtib və təsdiq olunma tarixləri təqribən üst-üstə düşsə də, İcmal dəftərin birinci sırada yerləşdirməyimizin səbəbi, bu dəftərin məlumatları, birincisi, Gəncə-Qarabağ əyalətinin sancaq və nahiyələrinin çoxusunu əhatə etməsi, ikincisi, bu dəftərdə sultan və mirmiran xasları, sultan və həmçinin Gəncə şəhərinin came və məscidlərinin vəqfləri və nəhayət üçüncüsü də ki, bəzi sancaq və nahiyələrin xüsusi inzibati statusunun – yurdluq-ocaqlıq, sultanlıq, donluq – olması haqqında geniş məlumat verməsidir.

## a. GƏNCƏ-QARABAĞ ƏYALƏTİNİN MÜFƏSSƏL DƏFTƏRİ

2000-ci ildə tərəfimizdən nəşr olunmuş bu mənbəyə müraciət etməyimizin başlıca səbəbi odur ki, oxuculara təqdim etdiyimiz İcmal və iki timar ruznamçə dəftərlərinin məlumatlarının araşdırılması müfəssəl dəftərin məlumatları ilə əlaqələndirilməmiş qalsa, qeyd etdiyimiz üç mənbənin analizi yarımçıq təsiri bağışlamış olacaqdı. Bu digər yandan da, tərtibi xronoloji baxımından da ayrı-ayrı illərə təsadüf etdiklərinə görə, ilk tərtib olunmuş dəftərdən keçən illər ərzində nə kimi dəyişikliyin baş verdiyini və səbəbləri üzərində durmağa imkan verəcəkdir.

Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərinin yeganə nüsxəsi İstanbulda Başbakanlık Osmanlı Arşivində saxlanılır (N: 903). Ölşüsü: 34x12 sm., xətti: nəsx, siyəqət və qırma siyəqətdir. 632 səhifəlik bu dəftərin bir neçə səhifəsi (214, 296, 355, 520, 540) boşdur.

Quruluşu baxımından "Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri" klassik dövrdə hazırlanmış bənzər osmanlı sənədlərindən ciddi fərqi yoxdur. Qanunnamə ilə başlayan müfəssəl dəftərdə ətazi-inzibati vahidlərə (*liva, qəza, nahiyə*) və onlara tabe olan yaşayış məskənlərinə və *məzrəələrə* (sakinləri olmayan boş qalmış kəndlərin əkin sahələri) görə vergi mükəlləfiyyəti daşıyanların adı, atasının adı, ailə vəziyyəti, bəzi hallarda isə, xüsusilə şəhərlər üçün, peşəsi haqqında məlumat verildikdən sonra, əvvəlcə onların əkib-becərdikləri dənli bitkilərdən alınan natural verginin həcmi və ağça ilə dəyəri, sonra isə, bağ-bostan, arı pətəkləri, işlədilən və ya xarab vəziyyətdə olan dəyirmanlar, heyvanlar üçün ödənən vergi və rüsumların miqdarı yazılırdı. Bu qayda ilə bütün yaşayış məskənləri üzrə qeydlər aparılırdı. Şəhərlərdə isə, əkinçiliklə bağlı vergi və rüsumlardan əlavə, ticarət, istehsalat və həmçinin sosial-mədəni (karvansara, hamam) və dini (came və məscid) obyektlər haqqında qeydlər edilirdi. Gəncə şəhərində olan üzümlüklərin və çəkilliklərin, meyvə ağaclarının, çinarların və sərv ağaclarının sayı da qeydə alınmışdır.[16]

### b. GƏNCƏ-QARABAĞ ƏYALƏTİNİN İCMAL DƏFTƏRİ VƏ ONUN MƏNBƏLƏRİNDƏN OLAN *"DƏFTƏR-İ MÜFRƏDAT-İ ƏCƏM"*

10 aprel 1732-ci (14 şəvval 1144-cü il) ildə qüvvəyə minmiş "Gəncə-Qarabağ əyalətinin İcmal dəftəri" Ankarada, Tapu ve Kadastro Kuyud-i Kadime Arşivində saxlanılır (TTd.373). Həcmi nömrələnmiş 102 səhifədir (1-ci və 102-ci səhifələr boşdur). Yazı xətti *siyəqət, qırma siyəqət, divani və incə divanidir.*

İcmal dəftərdə yuxarıda qeyd etdiklərimizlə yanaşı, gəliri iltizama verilmiş kəndlər və Gəncə şəhəri üzrə gömrük, boyaxana, sabunxana, at bazarı və s. gəlir mənbələrinin də iltizama verilməsi haqqında da məlumatlar vardır.

---

[16] *Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri,* ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı, "Şuşa", 2000.

İcmal dəftərin digər nəşr olunmuş İcmal dəftərlərindən fərqi ondadır ki, bu dəftər əyalət üzrə əldə edilən gəlirin bölüşdürülməsi prosesinin hansı mərhələlərdən keçdiyinə aydınlıq gətirir. Misal üçün, İcmal dəftərdə birinci mərhələdə sultanın, ardınca da mirmiran xaslarına aid edilən yüksək gəlir təmin edən kəndlərin müəyyənləşdirilməsindən sonra, ikinci mərhələdə gəlirindən asılı olaraq nahiyələr üzrə zeamət və timar kimi verilməsi qərarlaşdırılan kəndlərin ümumi siyahısı hazırlanırdı.

Növbəti mərhələdə daha bir siyahı hazırlanaraq, gəliri yazılmaqla hansı kəndin zeamət, hansı kəndin timar kimi verilməsi nəzərdə tutulduğu qeyd edilirdi.

Sonuncu mərhələdə isə, bizə məlum olan klassik dövrə xas olan İcmal dəftər iki nüsxədə hazırlanıb, müzakirə və təsdiq üçün İstanbula göndərilirdi.[17]

XVIII əsrin 20-30-cu illərinə aid Gəncə-Qarabağ əyaləti üçün strukturu baxımından klassik dövrə xas olan İcmal dəftərin hazırlanması məlum deyil və ya hazırlanmışdırsa da, aşkar olunmamışdır. Funksiyası baxımından bu dövr üçün Gəncə-Qarabağ əyalətinin İcmal dəftərini timar ruznamçə və təhvil dəftərləri əvəz etmiş olmalıydı. Məhz nəzərdən keçirdiyimiz timar ruznamçə və təhvil dəftərlərində kimlərin zeamət və timar sahibləri olduğunun müəyyənləşdirildiyi aydın olur.

İcmal dəftərdə dəfələrlə qeyd olunduğu kimi, Səfəvilər dövründə ayrı-ayrı ərazi-inzibati vahidlərindən xəzinənin əldə etdiyi və ya əldə edilməsi nəzərdə tutulan gəlirlərlə bağlı hazırlanmış "*dəftər-i müfrədat*"dan istifadə edildiyi qeyd olunmuşdur. Hazırda mövzuya aydınlıq gətirəcək əlavə mənbələrin əlimizdə olmaması, Gəncə-Qarabağ əyaləti üçün hazırlanmış və 1727-ci ildə təsdiq edilmiş müfəssəl dəftərin gəlirlərlə bağlı əsas mənbənin Səfəvilər dövründə hazırlanmış "*dəftər-i müfrədat*"-

---

[17] Bu tip icmal dəftərlərin nümunələri üçün bax: *İrəvan əyalətinin icmal dəftəri*, araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri: Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı, "Elm", 1996; *Lori vilayətinin icmal dəftəri*, ön söz, mətnin tərtibi, tərcümə və qeydlərin müəllifi Şahin Mustafayev, Bakı, "Nurlan", 2004.

larmı olmuş, yoxsa "*dəftər-i müfrədat*" əlavə məlumat mənbəyi kimi istifadə edilmişdir sualına birmənalı cavab verməl mümkün deyil.

### c. GƏNCƏ-QARABAĞ ƏYALƏTİNİN TİMAR RUZNAMÇƏ VƏ TƏHVİL DƏFTƏRLƏRİ

Gəncə-Qarabağ əyaləti haqqında əlimizdə bir timar ruznamçə[18] və bir təhvil dəftəri[19] var. Hər ikisi də İstanbul Başbakanlık Arşivində saxlanılır (TD 914 və TD 913). 914 №:li dəftərin qeyd etdiyimiz arxivin Kamil Kepeci təsnifində (KK.d.N: 532) ikinci nüsxəsi də var ki, mətnləri tutuşdurarkən onların eyni olduğu aydınlaşır.

913 №:li təhvil dəftəri nəşr edilməmiş və tədqiqat obyekti olmamışdır.

Kamil Kepeci təsnifində olan timar ruznamçə dəftəri (KK.d.N: 532) Y.Sarınayın redaktorluğu ilə nəşr olunmuş "Osmanlı belgelerinde Karabağ" adlı sənədlər toplusuna daxil edilmişdir [bax: Osmanlı belgelerinde Karabağ, proje yöneticisi Yusuf Sarınay, İstanbul, 2009, ss. 297-353 (mətn); 579-603 (faksimile)]. Nəşr olunmuş mətnin qənaətbəxş olduğunu xüsusi qeyd etməyimizlə yanaşı, yer adlarında osmanlı dövrü orfoqrafiyasına zidd olan transfonoliterasiya ilə qarşılaşırıq. Eyni zamanda, tərtib olunmuş mətndə yer adlarının orfoqrafiyasında unifikasiya aparılmamış, bəziləri isə yanlış oxunmuşdur: məsələn, Ankara - Əngüri, Salar-Sir və s.

914 №:li timar ruznamçə dəftərində Gəncə-Qarabağ əyalətinin Gəncə, Xılxına, Bərdə və Bərgüşad livalarının nahiyə-

---

[18] Osmanistikada "*Timar ruznamçə dəftərləri*" ifadəsi ilə yanaşı, həmin tip dəftərlərə "*Zeamət və timar ruznamçə dəftərləri*" də deyilir. Tədqiq etdiyimiz ruznamçə dəftərində də həm zeamət, həm də timarlardan bəhs olunmalarına baxmayaraq, biz ruznamçə dəftərinin adında "*timar*" sözünü "*dirlik*" mənasında işlədirik ki, bu anlayışa timarla yanaşı, zeamət də daxildir

[19] *Təhvil dəftəri* – zeamət və timar almağa layiq bir şəxsə sahiblik beratı verilməsi üçün əsas sənəd olan təzkərə surətlərindən ibarət dəftərə deyilirdi. Bu haqda bax: Erhan Afyoncu, "Ruznamçe", *TDV İslam Ansiklopedisi,* cilt 35, İstanbul, 2008, ss. 276-278.

lərindən əldə edilən gəlirin zeamət və timar kimi bölüşdürülməsinin 1729-1732-ci illərə aid qeydiyyatı, verilmə şəkilləri və sahiblərinin dəyişdirilməsi ilə onun səbəbləri əks olunmuşdur. Yeni zeamət və timar sahiblərinin alayının tərkibində xidmətini davam etdirməsi də "mim" (*mevcud*- "yerindədir", yəni alayının tərkibindədir) hərfi yazılmaqla qeyd olunmuşdur. Həcmi 26 vərəq, yazı xətti siyəqət və divanidir.

913 №:li təhvil dəftərini zeamət və timar sahibliyini təsdiq edən beratları almaq üçün mirmiranın Divanda müzakirə olunub təsdiq edilməsi məqsədi ilə təqdim etdiyi təzkərələr toplusu da adlandırmaq mümkündür. Tərtibində əsasən siyəqət yazı xəttindən istifadə edilən bu dəftərdəki dərkənarlar divani xətti ilə yazılmışdır. 298 səhifəlik bu dəftərin bəzi səhifələri boşdur (36, 92, 138, 151-152, 170, 179-186, 198, 200, 246-247), bəzi səfihələr isə, *a-b* əlavə edilməklə (19a, 19b, 31a, 31b) səhifələnmişdir. 914 №:li dəftərdən fərqli olaraq, 913 N:li dəftəri zeamət və timar sahiblərinin 1732-ci ilə aid sonuncu siyahısı kimi də qəbul etmək olar.

Burada onu da qeyd etmək lazımdır, əyalətdə əldə edilən gəlirin bölüşdürülməsini daimi bir proses kimi qəbul etməliyik. Gəncə-Qarabağ əyalətinin İcmal dəftərinin 10 aprel 1732-ci ildə (h.14 şəvval 1144-cü il) Divanda təsdiq edilməsinə baxmayaraq, yuxarıda nəzərdən keçirdiyimiz timar ruznamçə və təhvil dəftərlərində sahiblik məsələsi ilə bağlı mirmiran təzkərələrinin tarixi avqust 1732-ci ilə aiddir. Bir sözlə, yerli qarabağlı torpaq sahiblərindən fərqli olaraq, Gəncə-Qarabağ əyalətində rotasiya prinsipləri ilə xidmətdə olan hərbçilərin zeamət və timarları onları burada əvəz edənlərə verilir və bunun nəticəsində yeni timar ruznamçə dəftərinin tərtibinə ehtiyac yaranırdı. Gəncə-Qarabağ əyalətində Osmanlı hakimiyyətinin rəsmi olaraq 1735-ci ilə qədər davam etdiyini nəzərə alsaq, hərbi xidmət qarşılığında zeamət və timarların verilməsinin davam etdirilməsini də güman etmək mümkündür.

### d. BOLQARISTAN MİLLİ KİTABXANASININ OSMANLICA SƏNƏDLƏRİ

Bolqarıstan Milli kitabxanasının Şərq dillərində olan əlyazmalar kolleksiyasında saxlanılan osmanlıca sənədlərdən Azərbaycana və ümumiyyətlə, Cənubi Qafqaz bölgəsinə aid olanların hamısı keçən əsrin 30-cu illərində Bolqarıstanda fəaliyyət göstərən kağız istehsalı fabriki üçün makulatura dəyərində alınıb və sonra da qeyri-qanuni olaraq İstanbuldan Sofiyaya daşınmış sənədlərdir. Qaçaqmalçılıq yolu ilə Türkiyədən çıxarılmış sənədlər Bolqarıstan hökuməti tərəfindən müsadirə olunmuş, onların bir qismi geri qaytarılsa da, əksəriyyəti Sofiya Milli kitabxanasında saxlanılmaqdadır.

Gəncə-Qarabağ, Tiflis, İrəvan, Naxçıvan və Şirvan əyalətlərinə aid sənədlər əsasən Tsariqrad (fond 1), Tiflis (fond 313, 313A), İrəvan (fond 327A), bir qismi isə Ərzurum (fond 236A), az bir hissəsi isə, Rusiya (315, 315A) adlı fondlarda cəmləşdirilmişdir. Sənədlərin təsnifatı və kataloqlaşdırılması aparılarkən, onların məzmunu və hansı dövrə aid olmasına əhəmiyyət verilməmiş və sənədlər coğrafi məkanlara görə bölüşdurulmüşlər. Səfəvi dövlətinin əyalətlərinin lokalizasiyasında çətinlik çəkmiş mütəxəssislər sənədlərin gəlişigözəl şəkildə paylaşdırma yolu ilə getmişdilər. Belə olduğu halda, Şirvana aid sənəd Rusiya fonduna və ya Gəncə-Qarabağa aid sənəd Ərzurum fonduna salınmışdır.

Bolqarıstan Milli kitabxanasında XVIII əsrin 20-30-cu illər Gəncə-Qarabağ əyalətinə aid 300-dən çox sənəd saxlanılır. Bunlar fərman, buyuruldu, berat, “arz”, “arzuhal”, ayrı-ayrı dəftərlərdir. Sənədlərin əksəriyyətinin Gəncə-Qarabağ əyalətinin qalalarında yerləşdirilmiş osmanlı hərbi qarnizonunun təchizatı, maliyyələşdirilməsi və s. məsələrin öyrənilməsində çox böyük dəyəri vardır.

Bu sənədlərin içində 1728-ci ilə aid Gəncə-Qarabağ əyalətinin bir neçə nahiyəsinin bəzi kəndlərinin əhalisinin vergi mükəlləfiyyəti ilə bağlı sənəd daha çox nəzəri cəlb edir. Bu sənəd Osmanlı dövlətində bu dövrdə tətbiq edilməyə başlanan təhrirlərin “xanə”lər üzrə aparılmasının çox maraqlı nümunəsidir. Əha-

linin maddi vəziyyəti haqqında ümumi məlumat əldə etdiyimiz Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərindən fərqli olaraq, bu dəftər xanələr üzrə məlumat verdiyi üçün, onların əsasında daha dəqiq nəticə çıxarmaq mümkündür.[20]

## OSMANLI HAKİMİYYƏTİ DÖVRÜNDƏ GƏNCƏ-QARABAĞ ƏYALƏTİNİN ƏRAZİ-İNZİBATİ BÖLGÜSÜ

Həyata keçiriləsi mühüm tədbirlərdən Gəncə-Qarabağ əyalətinin yerli idarəçilik aparatının formalaşdırmasını, əyalətin ərazi-inzibati bölgüsünün aparılmasını, maliyyə məsələləri ilə bağlı olan gəlir mənbələrini müəyyənləşdirərək müfəssəl dəftərin və bu gəlirlərin bölüşdürülməsini əks etdirən İcmal dəftərinin hazırlanmasını, əyalətin mühafizəsinin təşkil edilməsini qeyd etmək olar.

*Yerli idarə aparatı* ilə bağlı mənbələrin məlumatları dağınıq olduğu üçün, mövzu ilə əlaqədar dolğun fikir söyləmək mümkün deyil. Əldə olan məhdud məlumatlara görə isə, 1725-1735-ci ilərdə Sarı Mustafa paşa, İbrahim paşa və Gənc Əli paşa Gəncə-Qarabağ əyalətinin mirmiranları olmuşlar.

Gəncə xəzinəsi dəftərdarlarından yalnız iki nəfərin (İbrahim və Məhəmməd) adı məlumdur. Gəncə-Qarabağ əyalətində təhrir işlərinə məsul şəxs Əli Paşazadə Məhəmməd, Gəncə zərbxanasının əmini vəzifəsində Əbubəkir adlı birisi işləyirmiş.[21]

Gəncə qalasının fəthindən sonra *qəzaların* yaradılması və hərəsinə bir *qazi* təyin olunması təklifini vermiş mirmiran Sarı

---

[20] «Национална Библиотека "Св.св Кирил и Методий"», *Ориенталски сбирки*, фond 313A, arx.ed 357, v. 1a-11a (bundan sonra: НВКМ-OR).

[21] Bax: *Osmanlı belgelerinde Karabağ*, proje yöneticisi Yusuf Sarınay, İstanbul, 2008, ss. 23-28, 40-41, 45-47, 59-62, 66 və s. (belge 10, 11, 14, 17, 25, 29 və s.); Zeynep Kurt, "13 numaralı ve 1727-1730 tarihli Mühimme defteri zeyli (Değerlendirme – transkripsyon - dizin)", *Yüksek lisans tezi*, Elazığ, 2005, s. 176-177, 195-197 (hükm №: 186, 187, 215) (bundan sonra: Zeynep Kurt).

Mustafa paşaya ünvanlanmış avqust 1726-cı il tarixli hökmdə osmanlı höküməti maliyyə çətinliyi ilə əlaqədar çox sayda qəzanın yaradılmasının tərəfdarı olmamış, qazi təyin edilməsi təklif olunan bölgələrin imkan daxilində birləşdirilməsi, beləliklə də, qəza saylarının minimuma endirilməsinin vacibliyi vurğulanmışdır.[22] Müfəssəl dəftərdə Gəncə-Qarabağ əyalətində yalnız Gəncə, Lori, Bərdə və Arasbar qəzalarının olduğu qeyd edilmiş, lakin bu qəzalardan Arasbar qəzası 1732-ci il timar ruznamçə təhvil dəftərlərinə görə, qəza statusundan çıxarılmış və Bərgüşad livasına tabe bir nahiyə statusunu almışdır.[23] Levent Kurunun üzə çıxardığı və araşdırdığı ruznamçə dəftərlərinə əsasən, Gəncə-Qarabağ əyalətində osmanlı idarəsi dövründə 11 qəza yaradılmış və bu dövr ərzində bu qəzalara 38 dəfə qazi təyin olunmuş, bəzilərinə isə, öz qəzası ilə yanaşı, digər nahiyələrlə bağlı işlərə də baxmaq səlahiyyəti verilmişdir. Gəncə qəzası yaradılmasından əvvəl Lori, Arasbar, Bayad, Bərdə, Bərgüşad, Cavanşir, Çuvaldar (Çuləndər), Qaraçorlu, Püsyan, Şəmsəddinli-Xılxınada qazilər fəaliyyətə başlamışdılar. Lakin yuxarıda da qeyd edilən maliyyə çətinliyi ilə əlaqədar qəzaların birləşdirilməsi məsələsinə oktyabr 1727-ci ildə Bayad qəzasının ləğvi ilə başlansa da, digər qəzalara toxunulmamış və fevral 1734-cü ildə Bərdə qəzasının ləğvi nəticəsində Gəncə-Qarabağ əyalətində Osmanlı hakimiyyətinin sonuna qədər yalnız Gəncə və Lori qəzaları saxlanılmışdır.[24]

### a. LİVA, QƏZA VƏ NAHİYƏLƏR

Gəncə-Qarabağ əyalətinin *ərazi-inzibati bölgüsü* məsələsinə gəldikdə, buranın müfəssəl, İcmal və timar ruznamçə dəftərlərinin məlumatları bir-birini tamamlayır və müfəssəl dəftərdə

---

[22] Bax: *Osmanlı belgelerinde Karabağ*, s. 44-45 (belge 16).

[23] Bax: *913 №:li təhvil dəftəri*, s. 1 və b.

[24] Qazilərin təyinatı, fəaliyyət müddəti və onların kimliyi haqqında ətraflı bax: Levent Kuru, “İranda Osmanlı kaza idaresinin kurulması ve kaza tevcihatı, 1723-1735”, *FSM İlmi araştırmalar İnsan ve Toplum Bilimleri* dergisi, sayı 16, 2020, ss. 133-171 (bundan sonra: Levent Kuru),

qeyd olunmuş bəzi yerlərin (*Xaçın, Dizaq, Köçəz, Zarıs, Keştasf, Çelaberd, Vərəndə, Bayad*) ərazi-inzibati tabeçiliyinə və statusuna İcmal və timar ruznamçə dəftərlərində müəyyən aydınlıq gətirilir. Adları çəkilən yerlər müfəssəl dəftərdə olduğu kimi ərazi-inzibati baxımdan nahiyə kimi qeydə alınsalar da, İcmal dəftərdə *Xaçın, Çelaberd, Keştək* və *Vərəndə*nin ***ocaqlıq***, Bayadın isə, ***sultanlıq*** statusu aldığını görürük. Digərlərinin statusu barədə məlumat olmasa da, inzibati tabeçilik baxımından dəftərlərdə nahiyə kimi qeydiyyata alındıqları göstərilir, lakin hansı livaya (sancağa) tabe olduqları barədə məlumat verilmir.

Ərazi-inzibati bölgü məsələsində bu dörd dəftərdən müfəssəl dəftərin 1727-ci ilə aid məlumatlarını əsas, lakin ilkin variant kimi, 1729-1732-ci illərə aid İcmal, timar ruznamçə və təhvil dəftərlərinin məlumatlarını isə, sonuncu variant kimi qəbul etdik. Bu dörd dəftərin materiallarına əsasən qeyd etmək olar ki, Gəncə-Qarabağ əyaləti Gəncə, Bərdə, Xılxına, Bərgüşad livalarına bölünmüşdür. Bunlardan Gəncə livası eyni adlı qəzaya və yeddi nahiyəyə (Şəmkürbasan, Kürəkbasan[25], Şüturbasan, Yavlaqbasan,[26] Danqı, Talış, Gülüstan, Sunqurabad), Xılxına livası doqquz nahiyəyə (Xılxına, Həsənsuyu, Axıncı, Əsrik, Qaraqaya, Aşağı Zəyəm, Yuxarı Zəyəm, Türkənlər, Tavus), Bərdə livası eyni adlı qəzaya, üç nahiyəyə (Bərdə, Sir, İncərud) və bir sultanlığa (Bayad)[27] bölünmüşdür. Müfəssəl dəftərdə tərkibində dörd nahiyəsi (Arasbar, Həkəri, Bərgüşad, Çuləndər) olan Arasbar qəza olduğu halda, timar ruznamçə və təhvil dəftərlərinə

[25] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərində bu nahiyə *Kürəkbasan, Kiçik Kürəkbasan* və *Böyük Kürəkbasan* adı altında üç ayrı nahiyə kimi qeydə alınmışdır; bax: *Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri,* ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı), Bakı, "Şuşa", 2000, s. 124-156 (bundan sonra: Müfəssəl dəftər).
[26] Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərində bu nahiyənin adı "Yavlaq Qaramanlı" kimi yazılmışdır; bax: *Müfəssəl dəftər,* s. 180-193.
[27] Müfəssəl dəftərdə Bərdə livasına nahiyə kimi tabe olan Bayadın (bax: MD, s. 336-342), İcmal dəftərdə *sultanlıq* kimi qeyd olunmuş Bayadın Bərdə livasına tabeçiliyinə dair məlumat olmasa da, biz bunu ehtimal kimi irəli sürürük.

görə, Arasbar[28] və Keştək[29] ayrı-ayrı nahiyələr kimi yeni yaradılmış Bərgüşad livasının tərkibinə daxil edilmişdir;[30] Həkəri və Çuləndər[31] nahiyələrinin, habelə Zarıs, Köçəz[32], Keştasf nahiyələrinin tabeçiliyi haqqında heç bir qeydə rast gəlmirik. Lori qəzası isə 1727-ci ildə olduğu kimi, 1732-ci ildə də iki nahiyədən (Quzey və Güney) ibarət olmuşdur.

### *b.* SULTANLIQ

Yuxarıda da qeyd etdiyimiz kimi, Gəncə-Qarabağ əyalətinin tərkibində, osmanlı idarəçiliyinə xas olmayan *sultanlıq* adlı bölgü ilə də qarşılaşırıq. Termin olaraq "*sultan*" Səfəvilərdən əvvəl Qaraqoyunlu və Ağqoyunlu hökmdarları tərəfindən geniş istifadə olunmuşdur. Səfəvi dövlətinin yaranmasından sonra bu titul əvəzinə "*şah*" ünvanından istifadə edilməyə başlanmış və "*xan*" titulu ilə yanaşı, "*sultan*" titulu dövlət xadimlərinə, xüsusilə də irsi olan "*ölkə*" hakimlərinə fəxri titul kimi verilmişdir. Bayad nahiyəsinə gəlincə isə, müfəssəl dəftərdə o Bərdə livasının nahiyəsi kimi, beş ildən sonra isə, *sultanlıq* kimi qeydə alınmışdır. İcmal dəftərin məlumatlarına görə, Bayad *sultanlığına* tabe olan kəndlərdən və Əfşar camaatından əldə edilən

---

[28] İcmal dəftərdə Arasbar liva kimi göstərilmişdir; bax: *İcmal dəftər*, s. 5, 89.

[29] Bu nahiyə həm də *yurdluq* və *ocaqlıq* kimi qeydə alınmışdır.

[30] *İcmal dəftəri*, 5, 91; *Timar ruznamçə dəftəri* (№: 914), v. 25a; *Təhvil dəftəri (№:913)*, s. 1 və b.

[31] Müfəssəl dəftərin Çuləndər ilə bağlı məlumatları dolaşıqdır. Onun "İçindəkilər" bölümündə liva kimi qeyd olunan Çuləndər, dəftərin mətn hissəsində artıq nahiyə statusunda ortaya çıxır; bax: *Müfəssəl dəftər*, ss. 24, 530; *İcmal dəftər*ində bu ərazi-inzibati vahidinin adı yanlış olaraq Çuldər kimi yazılan Çuləndərin icmal dəftərdə liva kimi qeyd olunması, fikrimizcə, katibin səhvi də ola bilərdi; bax: *İcmal dəftəri*, s. 96; 1728-ci ilə aid Osmanlı sənədlərinin birində bu nahiyənin adı *Çavundur* kimi yazılmışdır; NBKM-OR, fond 315A, arx.ed. 60. Levent Kurunun araşdırdığı sənədlərdə bu ərazi-inzibati vahidinin adı (əgər müəllif dəqiq oxumuşsa) Çuvaldar kimi yazılmışdır; bax: Levent Kuru, *göst. məqalə*, s.160.

[32] Bu nahiyənin adı *İcmal dəftər*ində *Köçüz* kimi yazılmışdır; bax: *İcmal dəftəri*, s.82.

gəlir sultan xaslarının hesabına yazılmışdır.[33] Başqa sözlə desək, "Gəncə-Qarabağ əyalətinin İcmal dəftəri" nə görə, Bayad bir *sultanlıq* kimi qeydə alınsa da, osmanlılar dövründə Bayad başında *sultan* fəxri adı daşıyan hakimin *ölkəsi* olmamış və o nahiyə termininin sinonimi kimi qəbul edilmiş ola bilərdi.

### C. YURDLUQ VƏ OCAQLIQ

Osmanlı idarəçilik sistemində *yurdluq* və *ocaqlıq*ların tətbiq edilməsi idarəçilikdə aşırı mərkəziyyətçilikdən yayınmanın bir əlaməti kimi qəbul olunur. Yurdluq və ocaqlıqlar ilə əlaqədar osmanlı Qanunnamələrində bir neçə mühum şərtə fikir verilir: osmanlı fəthləri dövründə osmanlıların xidmətinə keçmiş fəth olunacaq yerlərin bəylərinə verilməsi, həmin yurdluq və ocaqlıqlarda təhrir işlərinin aparılması və əldə edilən gəlirin zeamət və timar kimi bölüşdürülməsi, yurdluq və ocaqlıqların irsi olması, yurdluq və ocaqlıq sahiblərinin onlara həvalə edilən ərazidə asayişin və siyasi sabitliyin təmin olunmasını öhdələrinə götürmələri və nəhayət, yurdluq və ocaqlıq sahiblərinin tabe bəylərbəyilərin rəhbərliyində müharibə dövründə hərbi səfərlərdə iştirak etmələri.[34]

İcmal dəftərin məlumatlarını nəzərdən keçirdikdə, Gəncə-Qarabağ əyalətində klassik osmanlı yurdluq və ocaqlığın mühüm xüsusiyyətlərindən olan irsilikdən bəhs edilmir. İcmal dəftərdəki dərkənarlara görə, Gəncə-Qarabağ əyalətinin mirmiranı Sarı Mustafa paşa Çelaberd, Keştək, Xaçın və Vərəndə nahiyələrini idarə etmələri üçün onların hər birini ocaqlıq kimi bir *ağa*ya

---

[33] *İcmal dəftəri*, s. 28-29.

[34] Daha ətraflı bax: Orhan Kılıç, "Yurtluk-ocaklık ve hükumet sancakları üzerine bazı tespitler", *OTAM*, sayı 10, 1999, ss. 119-137; ocaqlıqların layiq olanlara təhrir dövründə verilməsi məsələsi sultan hökmlərinin birində də qeyd edilmişdir; bax: Zeynep Kurt, s. 196; yurdluq və ocaqlıq ilə bağlı bəzi şərtləri Qəncə-Qarabağ əyalətində qışlayan və İrəvan ilə Naxçıvan yaylaqlarında yaylanan Püsyan camaatının əşirət əmiri və kəndxudaları üçün də tətbiq edilmişdir. Lakin Müfəssəl dəftərdə Püsyan camaatına müəyyən bir ərazi deyil, müharibə dövründə səfərlərdə iştirak etmələri şərti ilə xəzinəyə çatası vergilərdən *donluq* verilmişdir; bax: *Müfəssəl dəftər*, s. 469.

vermişdir. Bundan əlavə bu təyinatı təsdiq edən berat ilə yanaşı, ağaların hər birinin tabeçiliyinə 100 nəfərdən ibarət silahlı dəstə[35] də ayrılmışdır.[36] Lakin bu məlumatın verildiyi kontekstə – *xəzinənin bu nahiyələrdən təmin edəcəyi gəlir* – diqqət yetirdikdə, bu ocaqlıqların irsi olmadığı, təyinat almış ağaların Səfəvi dövrü yerli əyanları deyil, osmanlı hərbçi silkini təmsil etdikləri və nəhayət, xəzinəyə gəlir təmin etmək məqsədi ilə baş tutmuş təyinatlar bu *ocaqlıqların* Gəncə-Qarabağ əyalətində osmanlıların yaratdıqları ərazi-inzibati vahidlər olmadığının, oralara təyin olunmuş ağalara həmin nahiyələr daxilində məhdud hərbi-inzibati səlahiyyətlərin verilməsinin bir əlaməti kimi qəbul etməyimiz daha doğru olardı.[37]

Yuxarıda bəhs etdiyimizə bənzər vəziyyətlə 1734-cü ildə Xılxına sancağı ilə bağlı verilmiş fərmanda da əks olunmuşdur. Xılxına sancağının mühafizəsinin gücləndirilməsinin vacibliyi nəzərə alınaraq, bu sancağın asayişi və idarə olunması üçün, Xıl-

---

[35] Burada göstərilən ağanın 100 nəfərlik silahlı dəstənin başçısını xristian məliklərin asayişi qorumaq üçün qeyri-daimi əsaslarla xidmətində olan yüzbaşılarla qarışdırılmaması lazımdır. Müfəssəl dəftərin dərkənarlarının birində "...[Müfəssəl] dəftər tərtib olunduğu dövrdə yüzbaşılar öz adlarını dəftərə saldırmamışlar" şəklində qeyd var; bax: *Müfəssəl dəftər,* s.342.

[36] *İcmal dəftəri,* s. 4.

[37] Matenadaranda saxlanılan bir hökmün üzü köçürülmüş nüsxəsinə əsasən, Sarı Mustafa paşa 1729-cu ildə xaçınlı məlik Allahverdiyə məliklik səlahiyyəti vermişdir (bax: Артак Магалян, *Арцахские меликства и меликские дома в XVII-XIX вв.,* Ереван, "ВМВ-Принт", 2012, с.134). Bu təyinatla bağlı sinxron mənbələrdə məlumata rast gəlmirik. Digər məliklərə də eyni səlahiyyətin verilməsi haqqında da məlumat yoxdur. Hər halda, xristian əhalinin nümayəndəsinə xristianların yaşadığı nahiyələrdə vergiləri toplamaq məqsədi ilə edilmiş təyinatların müvəqqəti, qısa müddətli olduğunu, məhz buna görə də, əvvəlki qərarın dəyişdirilib, sərəncamına da 100 nəfərdən ibarət silahlı dəstə verilərək yeniçeri ağalarının təyin edilməsi qərarlaşdirilmişdır. Lakin bu təyinatların da xəzinəyə "*ziyandan başqa xeyri*" olmadığı icmal dəftərdə qeyd edilmişdir (bax: *İcmal dəftəri,* s. 4).

xına sancağı yurdluq və ocaqlıq kimi mirmiran rütbəsi ilə Mustafa paşanın öhdəsinə verilmişdir.[38]

### TORPAQ SAHİBLİYİ FORMALARI: *XAS, ZEAMƏT, TİMAR*

Gəncə-Qarabağ əyalətində Osmanlı dövlətinin inkişafının zirvəsinə çatdığı klassik dövrdə sağlam özülünü təmin etmiş timar sistemi tətbiq olunmuşdur. Timar sistemi haqqında çox sayda dəyərli araşdırmaların olması və buna görə də təkrarlara yol verməmək məqsədi ilə[39] təqdim etdiyimiz mənbələrin mahiyyətinin anlaşılmasını asanlaşdırmaq naminə bu sistemin funksiyaları haqqında ümumiləşdirilmiş məlumatlarla kifayətlənmək istərdik.

Osmanlı dövləti *hərbi, inzibati* və *maliyyə* funksiyalarını özündə ehtiva etdiyi üçün timar sisteminə böyük əhəmiyyət vermişdir. Onu tətbiq etməklə osmanlılar xəzinəyə çatası vergiləri (gəliri) sipahilərə zeamət və timar şəklində paylayaraq, bunun qarşılığında həmin sipahilər vasitəsi ilə hərbi səfərlər dövründə sipahilərin maddi baxımdan tam təmin olunmuş, hərbi yöndən isə tam təchiz edilmiş döyüşçülər məsələsini yerinə yetirərək, böyük bir orduya sahib olurdu.

Zeamət və timarların olduğu yerlərdə dövləti təmsil edən sipahilər həm rəayyanın təhlükəsizliyi, həm də asayişin keşikçisi kimi, dövlətin yerlərdəki inzibati məsələlərinin həllində müəyyən müsbət rol oynayırdı. Zeamət və timar sahiblərinə vergiləri

---

[38] Bax: *Osmanlı belgelerinde Karabağ*, s.70 (belge 32). Səfəvi yerli hakimlərindən Osmanlı tərəfinə keçənlərə hakimi olduqları yerlərin onlara *yurdluq* və *ocaqlıq* kimi verildiyini görürük: Tiflis əyalətinin Somhit nahiyəsini islamı qəbul etmiş Abdulla bəyə, Salmas, Kərdəgəran və Ənzəlin Hatəmxan bəyə, Soyuqbulaq və Mükrinin Əbdüləziz paşaya, Urmiyyənin Məhəmmədqasım xana verilməsini misal kimi gösətərə bilərik. (Bax: *Tarih-i Küçükçelebizade*, s. 118, 137, 326, 328).

[39] Timar sistemi və onun hüquqi aspektləri üçün bax: *İrəvan əyalətinin İcmal dəftəri*, s. 23-27.

öz xeyrinə toplamaq hüququnu verərkən, dövlət gəlir mənbələrinin qorunması məsələsini də həll etmiş olurdu.

Timar sisteminin nizamlı şəkildə tətbiqi üçün dövlət əyalətlərdə gəlir mənbələrini müəyyən edir (bu məqsədlə müfəssəl dəftər adlanan sənədlər hazırlanır) və sonra da əldə ediləcək gəlirin bölüşdürülməsi (İcmal dəftərin hazırlanması) ilə məşğul olurdu.

Gəncə-Qarabağ əyalətində müfəssəl dəftərlə yanaşı, İcmal dəftər də hazırlanmışdır. Əldə edilən gəlirin bölüşdurulməsi məqsədi ilə hazırlanmış İcmal dəftərdə bu gəlirin ayrı-ayrı sahiblik formaları: *xas, zeamət* və *timar*- haqqında maraqlı məlumat verilir. Əlimizdə olan İcmal dəftəri bizə məlum olan analoji sənədlərdən fərqləndirən cəhət bu dəftərdə materialın düzülüşü gəlir bölüşdürmə prosesinin sonuncu variantını deyil, həmin prosesin mərhələlərini əks etdirməsindədir.

Qeyd olunası vacib məsələlərdən biri, 1725-1732-ci illər ərzində osmanlı yerli hakimiyyətinin Gəncə-Qarabağ əyalətində gəlir bölüşdürmə prosesini tam başa çatdıra bilməməsidir. Bunu İcmal dəftərin materialları da təsdiq edir: səfəvilər dövründə hazırlanmış "*Dəftər-i müfrədat-i Əcəm*"ə görə, əyalətin Keştək, Çelaberd, Xaçın, Vərəndə, Dizaq, Köçəz, Həkəri, Zarıs, Keştasf, Arasbar, Çuləndər nahiyələrinin və Lori qəzasının kəndlərindən əldə edilən gəlir səfəvilər tərəfindən iltizama verilmiş və osmanlılar nahiyələr üzrə kəndlərin siyahısını və əldə edilən illik gəliri qeyd etməklə kifayətlənmişlər.[40] Lakin iltizama verilmiş kəndlərin siyahısı olan bölümün başlığındakı qeyd - *Hələlik gəlirləri sultan və mirmiran xasları, zeamət və timarlar üçün bölüşdürlməmiş liva və nahiyələrin kəndlərinin İcmalı*[41]- bu işin hələ davam etdiriləcəyini və İcmal dəftərin giriş və sonluq hissələrindəki izahata əsasən, sultan və mirmiran xasları üçün ayırılmış

---

[40] İltizama verilmiş kəndlərin siyahısının bir bölümü Bərgüşad livasına aid olsa da, Timar ruznamçə və Təhvil dəftərlərinə görə, buradan əldə edilən gəlirin zeamət və timar kimi bölüşdürülməsi işi tamamlanmışdır.

[41] *İcmal dəftəri,* s. 69.

gəlirin bir minimum, zeamət və timarların sayının artırılması üçün isə, geniş imkanların olduğunu göstərməkdədir.

Əldə edilən gəlirin bölüşdürülməsində ilk və vacib vəzifə hakimiyyətdə olan sultanın, ardınca isə əyalətinin mirmiranının xaslarının gəlirini təmin edən obyektlərin müəyyənləşdirilməsi olmuşdur. Osmanlı qaydalarına görə, əldə edilən gəlirin bölüşdürülməsində tətbiq edilən prinsipə əsasən qazanılan gəlirin 2/3-i sultan və mirmiran xaslarına, 1/3 zeamət və timaralar üçün ayırılmalı idi.[42] İcmal dəftərə görə, sultan xaslarına Gəncə-Qarabağ əyalətinin Gəncə, Bərdə və Xılxına livalarının kəndlərinin və 26 oymaqlı Cavanşir camaatının, 20 oymaqlı Otuziki camaatının, 2 oymaqlı Ətyeməzli camaatının, Kəbirli camaatının və Kəngərli camaatının gəlirləri, mirmiran xaslarına isə, Gəncə livasının Gəncəbasan, Şəmkürbasan, Kürəkbasan, Şütürbasan nahiyələrinin, Xılxına livasının Həsənsuyu nahiyəsinin bəzi kəndlərinin gəlirləri və Bayad sultanlığının bütün kəndlərinin gəlirləri aid edilmişdir.

Sultan və mirmiran xaslarının Gəncə-Qarabağ əyalətinin ümumi gəliri içində payı olduqca yüksək idi. Hesablamalarımıza görə, əyalət üzrə bölüşdürülmüş gəlirin (20.046.500 ağça) təqribən 80%-ə qədəri (16.244.500 ağça) sultan xaslarının, təqribən 5%-i (1.072.000 ağça) isə, mirmiran xaslarının payına düşürdü.[43] Əyalət üzrə bölüşdürülmüş illik gəlirin yalnız 15%-i (2.730.000 ağça) zeamət və timarlar üçün ayrılmışdır ki, bu bölgü yuxarıda qeyd etdiyimiz əyalət gəlirinin xas və zeamət ilə timarlar arasında nəzərdə tutulan bölgü nisbətlərinin (müvafiq olaraq, 2/3 + 1/3) pozulduğunu göstərir.

---

[42] Bəzi istisnalarla zeamət və timarlara ayırılan hissə əyalət üzrə əldə edilən gəlirin yarıya qədəri də ola bilərdi;bax: *İcmal dəftəri*, s.3.

[43] Qeyd etməliyik ki, *İcmal dəftər*in Giriş hissəsindəki gəlirlərin bölüşdürülməsinə aid ümumiləşdirilmiş siyahıdakı gəlirin həcmi ilə nahiyələr üzrə verilən gəlirlərin həcmi arasında ciddi fərq var. Fikrimizcə, dəftəri tərtib edən katiblər sonuncu hesablamanın nəticəsini gözləmədən ilkin variantı İcmal dəftərin girişinə daxil etmiş və bunun nəticəsində bölüşdürülmüş gəlirin 20.046.500 ağça deyil, 18.303.000 ağça olduğu yazılmışdır.

Gəncə-Qarabağ əyalətinin gəlir imkanlarının yuxarıda qeyd etdiyimizdən də yüksək olmasını İcmal dəftərin sonuncu hissəsində səfəvilər dövründə iltizama verilmiş, lakin osmanlılar dövründə gəliri bölüşdürülməmiş 13 qəza və nahiyənin kəndlərinin siyahısı da göstərməkdədir. Həmin gəlir 12.033.280 ağçaya bərabər olmuş və 1732-ci il tarixinədək xaslar, zeamət və timarlar üçün ayrılmamışdır.

Əgər bölüşdürülmüş və bölüşdürülməmiş gəlirləri nəzərə alsaq, osmanlılar dövrü Gəncə-Qarabağ əyalətinin illik gəlirinin 32.079.780 ağça ola biləcəyini söyləyə bilərik; bunun 1727-ci ilə nisbətən (o tarixə olan gəlir: 26.001.356 ağça) artım göstərməsini osmanlıların müfəssəl dəftərin tərtibindən sonrakı illərdə dəqiqləşdirmə apardıqları kimi qəbul etmək lazımdır. Lakin gəlirdəki artımla bağlı nahiyələr üzrə müqayisə aparılarsa, aydın olacaqdır ki, bir neçə nahiyədə artım qeydə alınmışdısa, digərlərində tam əksinə, illik gəlirdə azalma müşahidə olunur.

Müfəssəl dəftərin gəlirlə bağlı göstəricilərindən fərqli olaraq, İcmal dəftərin məlumatları Gəncə-Qarabağ əyalətinin yüksək gəlir mənbələrini ortaya qoymasına baxmayaraq, bunu əhalisi dağınıq düşmüş[44] və qeyri-sabit vəziyyət içində olan əyalətin gerçək deyil, bir potensial imkanı kimi dəyərləndirmək lazımdır.

İcmal dəftərdə nahiyələr üzrə hər hansı bir kəndin və ya kəndlərin gəlirinin zeamət və timar kimi bölüşdürülməsinin ilk lahiyəsi hazırlanmışdır. Sahiblərinin kimlər olacağı məlum ol-

---

[44] Müfəssəl dəftərin tərtibindən əvvəl və sonra Arasbardan Muğan tərəflərinə köçmüş (*Müfəssəl dəftər*, s. 481, 482) və Şirvan xanı Surxay xan tərəfindən məskunlaşdırıldıqları yerlərdən çıxarılan və sayları 15 min xanəyədək olan Şahsevənli camaatının "*etimad olunası aşirət olmadığı*"na görə, onların hamısının Beyləğan və Xanarxı adlı yerlərdə deyil, bu camaatın üç-dörd min xanəsini Bayat Bazarından başlayaraq Gəncəyə və Xılxınaya qədər olan yerlərdəki kəndlərin hər birinə 20-30 xanə məskunlaşdırmaq üçün Gəncə mühafizi Gənc Əli paşaya 1734-cü ildə hökm göndərilmiş və bunun nəticəsində Osmanlılar Şahsevənli camaatının məskunlaşdırıldıqları yerlərin canlanmasına ümid edirdilər; bax: *Osmanlı belgelerinde Karabağ*, s. 68-69, (belge №: 31).

mayan zeamət və timarların gəlirini formalaşdıran kəndlərin gəliri ya bir nəfərə, ya da ki, müştərək istifadəyə verildiyi qeyd edilmişdir. Bundan əlavə, zeamət və timarları minimum gəlir səviyyəsinə çatdıra bilmək üçün bir neçə kəndin gəliri hissələr şəklində bir neçə nəfərin arasında bölüşdürülmüşdür. Misal üçün, Şəmkürbasan nahiyəsinin 96 min ağça illik gəlir təmin edən Morul kəndi hər biri 3-6 min ağça olmaqla, 19 hissəyə bölünmüş və 19 nəfərə timar kimi verilmişdir.[45]

Gəncə-Qarabağ əyalətinin əldə etdiyi gəliri 26 zeamət və 504 timar şəklində və minimum gəlirlə (timarlar üçün minimum 3 min ağça, zeamətlər üçün isə 20 min ağça) bölüşdürülmüşdür. Bəzi timarlar üçün verilmiş kəndin (və ya kəndlərin) gəlirinin timar üçün nəzərdə tutulan gəlirdən əksik olması halında (*noksan*) çatışmayan hissə başqa bir gəlir mənbəyinin hesabına qarşılanır və "*ber veçh-i tekmil*" ("[çatışmayan hissə] əlavə edilərək") ifadəsi yazılırdı ki, bu da həmin *nöqsanın* digər gəlir mənbəyindən qarşılanacağını ifadə edirdi.

### ZEAMƏT VƏ TİMARLARIN VERİLMƏ QAYDALARI

Timar ruznamçə dəftərləri zeamət və timarların sahibliyi ilə bağlı qaydaları əks etdirən dəyərli mənbələrdəndir. Təqdim etdiyimiz bu dəftərlərdən 914 N:li dəftərin mənbəşünaslıq baxımından çox dəyərli tərəfi orada timar sahibliyinin dəyişməsi və onun səbəbləri haqqında bəhs olunması, 913 N:li təhvil dəftərinin maraqlı cəhəti isə burada timar sahibliyi ilə əlaqəli bürokratik məsələlərə geniş yer verilməsidir.

Timar sisteminin mühüm elementlərindən olan zeamət və timarlar osmanlıların müəyyən etdiyi meyarlara cavab verən

---

[45] *İcmal dəftəri,* s. 46-48; *Təhvil dəftəri,* №: 913, s. 59, 64, 97, 101 və s.; *Timar ruznamçə dəftəri*, №: 914, v. 10b, 12a-12b. Hər hansı bir kəndin və ya məzrəənin gəlirinin 2-3 yerə bölünməsi mümkün olduğu halda, onu "*səhv və himayəçilik edərək bir qılıç timar kimi qəbul edilməsi*"nin yolverilməzliyinə dair xəbərdarlıq bəylərbəyi İbrahim paşaya və təhrir işlərinə məsul Əli Paşazadə Məhəmmədə ünvanlanmış hökmdə nəzərə çatdırılmışdır; bax: Zeynep Kurt, s.197, hükm, 215.

namizədlərə verilirdi. Bu meyarları ümumiləşdirsək, onları iki anlayışla ifadə etmək olar: *varislik* və *ləyaqət.*

Osmanlı qanunlarına əsasən, varislik məsələsində zeamət və timar sahibi olmuş atanın ölümündən sonra timarın nüvəsini təşkil edən və minimum gəlir həddində olan "*qılıç*" hissəsi oğluna verilir, zeamət və timar üçün nəzərdə tutulan maksimum həddə qədər olan və vaxtaşırı verilmiş əlavə gəlirlərdən (*terakki*) formalaşdırılmış əsas gəlir hissəsi isə başqa bir namizədə verilirdi. Varisin zeamət və timarın "*qılıç*" hissəsini ala bilməsi üçün zeamət və timar sahibi olmuş insanın "doğma oğlu" (*sulbi*- yəni belindən gələn övlad) olması və bunu təsdiq edəcək şəxsin şahidlik etməsi kifayət idi. Atanın sahib olduğu timar və zeaməti həm qılıç, həm də atanın hərbi xidmətlərinə görə onun gəlirinə edilmiş əlavələr (terakki) hissələri ilə birlikdə ala bilmək üçün isə, oğlun mütləq hərbi xidmətə başlaması lazım idi. 914 N:li timar ruznamçə dəftərində yuxarıda qeyd etdiyimiz şərtlərlə ölmüş atanın sahib olduğu zeamət və ya timar onun doğma oğluna verilirdi. Bundan əlavə, nəzərdən keçirdiyimiz dəftərdə zeamət və timar sahibi olan ata öz sağlığında oğlunun xeyrinə zeamət və timarından imtina etdiyinə dair misallarla da rastlaşırıq. Timar sahibliyində varislik o qədər önəmli olmuşdur ki, timar sahibi atanın varisi olmadan öldüyü ruznamçə dəftərində xüsusi vurğulanmışdır. Bu isə yaranmış vəziyyətdə atanın timarına ilk iddiaçı kimi onun oğlunun olduğunu göstərir.

Zeamət və timara iddiaçı kimi çıxış edənlərdə aranan ikinci mühüm keyfiyyət *ləyaqət* idi. Ləyaqət, bir döyüşçüyə xas olmalı olan cox vacib xüsusiyyət – *yararlılıq* – üzərində qurulmuşdur ki, bu da yalnız müharibə dövründə, döyüş vaxtı deyil, həm də dinc dövrdə və hər işdə özünü göstərməli idi. Bu xüsusiyyət zeamət və timara layiq olan birisi üçün alaybəyinin mirmirana verdiyi təqdimatda (*arz*) öz əksini tapırdı. Döyüşdə yoldaşlıq etmək, əsir gətirmək, düşmənin yurdundan və ordusundan xəbər əldə etmək, qala alınmasında iştirak etmək, düşməni təqib

etmək, hərbi səfərdə qılavuzluq etmək, bir atlı düşmənin əlindən bayrağını alıb gətirmək, dinc dövrdə isə, qala təmirində, hərbi sürsatın daşınmasında iştirak etmək və s. namizəd olanın *yararlığını* göstərən xüsusiyyətlərdən hesab olunurdu.[46]

Zeamət və timar sahibliyinin dəyişməsi və onun səbəblərindən biri, yuxarıda da qeyd etdiyimiz kimi, zeamət və timar sahibinin ölümü (*fevt*) idi. Varisi olmadan ölənlərin zeamət və timarı "*mahlul*", yəni sahibsiz, boş qalan ərazi hesab olunur və bu zeamət və timar ona layiq olan namizədə verilirdi. Sahibliyin dəyişməsi zeamət və timar sahibinin zeamət və timarından öz istəyi, lakin üzürlü səbəb göstərilərək, imtina etməsi (*ferağat*) ilə də olurdu. Alaybəyi və mirmiranı xəbərdar etmə və razılığı ilə zeamət və timar sahibləri arasında timarlarını dəyişdirilməsi (*becayiş*) və həmçinin bir zeamət və timar sahibinin zeamət və timarından başqa birisinin xeyrinə imtina etməsi də (*kasr-i yed*, bəzən də dəqiqləşdirərək, "*hüsn-i rızasıyla kasr-i yedindən...*" sözləri yazılardı) ruznamçə dəftərində qeydə alınmışdır. Hərbi xidmətdən ayrılma olardısa, zeamət və ya timar başqa birisinə verilirdi.

Zeamət və ya timar sahibinin vaxtaşırı keçirilən *yoxlama* vaxtı hərbi xidmətdə olmadığı aşkar edilərdisə, həmin adam sahibliq hüququnu itirmiş sayılırdı. Bununla əlaqədar 914 N:li ruznamçə dəftərində yoxlama vaxtı hərbi xidmətini davam edənlər üçün "*mim*" hərfi (*mevcud* – başqa tərcümə variantı ola biləcəyini inkar etməyərək, bu ifadəni "*yerindədir*" şəklində tərcümə etdik) yazılır, həmin dəftər əsasında ikinci dəfə *yoxlama* aparılardısa, bu halda "*mim*" hərfinin üzərinə qırmızı rəngli mürəkkəblə *nöqtə* qoyulurdu. *Yoxlama* üçüncü dəfə aparılardısa, bu halda "*mim*" hərfinin üzərində ikinci *nöqtə* qoyulardı. Bəzən də- iki dəfə *yoxlama* aparılmışdırsa – iki "*mim*" hərfi yazılırdı. Nə-

---

[46] Emine Erdoğan Özünlü, "Osmanlı ordusunda bir motivasyon ve terfi kaynağı: "terakki" tevcihi", *Uluslararası Sosyal araştırmalar* dergisi, cilt 3/11, 2010, s. 240 (bundan sonra – E.E.Özünlü).

zərdən keçirdiyimiz timar ruznamçə dəftərində dərkənar kimi "1", "2", "3", "4" və "5" rəqəmləri yazılmışdır – bu rəqəmlər dirlik sahibinə verilmiş zeamət və timarın neçə *hissədən* ibarət olduğunu göstərirdi.

*Fərarilik* də timar sahibliyinin dəyişməsi ilə nəticələnirdi, lakin bu halda timar sahibinin fərariliyi təsdiq olunmalı idi. Gəncə-Qarabağ əyalətində fərarilikdən sonra ən çox yayılmış olan sahiblikdən məhrum edilmə halları zeamət və timara etinasız yanaşma (*adem-i rağbet*) olmuşdur.

Zeamət və ya timar sahibinin sahiblikdən əvvəl və ya sahiblik dövründə bir kimsəni öldürdüyü məlum olardısa, zeamət və ya timarı qeyd-şərtsiz həmin adamdan geri alınardı. Gəncə-Qarabağ əyalətində belə hal bir dəfə qeydə alınmışdır. İncərud nahiyəsinin Seyidalan və Göybuğa kəndlərinin gəlirindən 6 min ağçalıq timarı olan Osman Əhməd oğlunun qatil olması və buna görə timarının əlindən alınması ilə əlaqədar, "*qatilə timar verilməsi qanuna zidd*"dir, deyə izahat verilmişdir.[47]

Növbəti mərhələdə timar sahibliyi ilə əlaqədar bürokratik məsələlərin həllinə başlanırdı. Zeamət və timarların verilməsi prosesinin başlamasından xeyli əvvəl əyalətdə hərbi xidmət edənlərdən zeamət və timara layiq bilinmişlərin siyahısı hazırlanır və bəylərbəyinin adından böyük vəzirə göndərilirdi. Siyahının təsdiqindən sonra, hər hansı bir səbəbə görə "boş" qalmış zeamət və timar müəyyən edilərdisə, o halda namizəd üçün onun xidmət etdiyi alayın başçısı olan alaybəyinin təqdimat (*arz*) verməsi lazım idi. Təqdimatı almaq üçün namizədin özü də təşəbbüs göstərib, "boş" qalmış zeamət və timar haqqında alaybəyini və hətta bəylərbiyinin adına ərizə (*arzuhal*) yazaraq, məlumatlandıra bilərdi. Alaybəyinin təqdimatında zeamət və ya timar kimi verilməsi planlaşdırılan kəndin adı, oradan əldə edilən illik gəlir, tabe olduğu nahiyə, gəlirin tam və ya bir hissəsinin veril-

[47] 914 №:li *Timar ruznamçə dəftəri*, vər. 22a.

məsi, namizədin kim olduğu [adı, atasının adı, haralı olduğu,[48] fiziki əlamətləri (boyunun hündürlüyü, gözünün və qaşının rəngi, misal üçün – *orta boylu, ala gözlü, açık kaşlı*)],[49] yararlı olduğu göstərilməklə, tarix və imzasını qoyub bəylərbəyinə təqdim edirdi. Bu şəkildə hazırlanmış təqdimatlar əsasında bəylərbəyi adından təzkərə hazırlanır və orada alaybəyinin təqdimatının qısa məzmunu və tarixi, ardınca isə, alaybəyinin rəhbərliyi altında qeydiyyatda olduğu hərbi hissənin (*bayraq*) tərkibində səfərlərdə iştirak şərti qeyd edilir, bəylərbəyi tərəfindən təzkərənin verilməsi haqqında qərarın tarixi yazılaraq, zeamət və ya timar sahibinə berat verilməsi məqsədi ilə İstanbula, Dəftərxanaya göndərilirdi.[50]

Dəftərxanaya daxil olmuş təzkərənin mətni müəyyən bir əyalət üçün nəzərdə tutulmuş ruznamçə dəftərinə köçürülür, digər bir katib isə orijinal ilə dəftərə köçürülmüş mətnləri tutuşdururdu. Təzkərənin orijinalının mətni ilə dəftərə köçürülmüş mətnin eyni olduğu müəyyən edildikdən sonra, dəftər əmini bəylərbəyindən alınmış təzkərəyə möhrünü vurur, katiblərdən biri

---

[48] Bu məsələ ilə əlaqədar qeyd etmək lazımdır ki, əgər timar sahibinin ata adı yazılmamışdırsa və ya sənədin hazırlandığı anda dəqiqləşdirilməsi mümkün olmadığı halda, həmin şəxsin haralı olduğu yazılırdı. Lakin haralı olduğu da məlim deyildisə, bu halda timar sahibinin adından sonra – "filankəs adlı birisi" mənasında "*nam*" sözü yazılırdı.

[49] 913 №:li Təhvil dəftərindəki təzkərələrdə timar və zeamət sahiblərinin hamısının eyni fiziki əlamətlərin qeyd olunması təzkərənin bu hissəsinin bir qəlib olduğu fikrini yaradır. Bununla belə, hərbçilərin maaşları ilə bağlı tərtib edilmiş *məvacib dəftərlərində* hərbçilər arasında xeyli sayda İslam dinini qəbul etmişlərin olması və dolayısıyla onların hamısının atalarının adının da "*veled-i Abdullah*/Abdulla oğlu" kimi qeyd edilməsi, zeamət və timar sahibləri olmuş hərbçilərin Balkan (slavyan) əsilli olmalarını və onların, həqiqətən də, "*ala gözlü*" ola biləcəklərini ehtimal etməyə əsas verir.

[50] Bəylərbəyi təzkərəsinin yazılması ilə bağlı timar ruznamçə dəftərlərində işlədilən "*fərman*" sözünü eyni ilə saxlamağımıza səbəb, Gəncə-Qarabağ əyalətinin ələ keçirilməsi tapşırılan Sarı Mustafa paşanın timar verəcəyi halda, sultanın adından ona "tuğra" çəkmək hüququnun verilməsi olmuşdur (bax: *Osmanlı belgelerinde Karabağ*, s.25, belge №: 10).

isə öz adını qeyd edərək, “*möhürlənmişdir*” sözünü yazırdı.[51] Sonuncu qeyd – “*möhürlənmişdir* – edilməmişdirsə, təzkərənin əsasında *berat* verilməzdi. Berat almış zeamət və timar sahibi ikinci dəfə də berat ala bilərdi, lakin bunun üçün üzürlü səbəbin - beratın itirilməsi və ya cırılması və s.- olmalı idi. Bu halda yeni berat üçün bəylərbəyi tərəfindən *təhvil təzkərəsi* yazılırdı. 914 №:li timar ruznamçə dəftərində bu haqda da bəhs olunur.[52]

Cavablandırılası suallardan biri də ruznamçə dəftərlərində adlarına zeamət və timar yazılmış adamların kimliyi ilə bağlıdır. Osmanlı dövlətinin qanunlarına görə, zeamət və timar sahibi olmuş birnin başqa yerdə zeamət və timar sahibi olması qadağan idi. Səfərlərdə iştirak edib, *yararlılıq* göstərmiş olanlar isə, zeamət və timarları üçün əlavə gəlir (*terakki*) qazanmış ola bilərdilər. Zeamət və timar sahibi olmayanların – *rəayanın* – sipahilər kateqoriyasına keçməsi qanunla qadağan idisə də, müharibə dövründə onlar belə bir imkan qazanırdılar. Müharibəyə başlama qərarı verildikdən sonra, əyalətlərə göndərilən fərman meydanlarda oxunur və könüllü olaraq *qazada* iştirak etmək

---

[51] Təzkərəni möhürləmiş katiblər “*möhürlənmişdir*” sözünün altında öz ləqəblərini yazardılar. Həmin qeydi aparmış katibin kimliyini müəyyən etmək üçün dəftərxanada saxlanılan xüsusi dəftərdə katiblərin adları və onların özləri üçün seçdikləri ləqəbləri yazılırdı. Bundan əlavə, digər bir dəftərə il, ay və gün göstərilməklə həftənin hansı günü hansı katibin qeydiyyat işləri ilə məşğul olduğu daxil edilir və sənədlərdə hər hansı bir çatışmazlıq olardısa, bunu həmin dəftərlərin əsasında kim tərəfindən edildiyi dəqiqləşdirilirdi. XVII əsrin məşhur dəftər əmini Ayni Ali əfəndinin ləqəbi haqqında bax: Feridun M.Emecen, “Ali’nin ‘Ayn’ı: XVII yüzyıl başlarında Osmanlı bürokrasinde katib rümuzları”, *Tarih* dergisi, 1994, sayı 35, ss. 131-149.

[52] Dəftərxananın qeyd etdiyimiz məsələlərlə əlaqədar gördüyü işlər haqqında bax: Erhan Afyoncu, “Osmanlı devlet teşkilatında Defterhane-i Amire”, doktora tezi, İstanbul, 1997; Erhan Afyoncu, “Ruznamçe”, TDV *İslam Ansiklopedisi*, cilt 35, İstanbul, 2008, ss. 276-278; Leyla Aksu Kılıç, “Osmanlı tarıhi araştırmalarında timar ve zeamet ruznamçe defterleri”, *The studies of the Ottoman domain*, cilt 7, sayı 12, 2017, s. 105-139; Halil İnalcik, “Osmanlı Bürokrasisinde Aklâm ve Muâmelât”, *Osmanlı Araştırmaları*, I, İstanbul 1980, ss.1-14; Nejat Göyünç, “Timar Tevcihleri Hakkında”, *Osmanlı-Türk Diplomatiği Semineri* (30-31 Mayıs 1994). İstanbul, 1995, s.67- 74.

istəyənlərə çağırış edilərək, "*yararlığı görülənlərə timarlar və tərəqqilər ehsan olunacağı*" vədi verilirdi.[53] Anadolu və Rumeli əyalətlərində tətbiq olunan bu üsul Gəncə-Qarabağ əyalətində də həyata keçirilmişdir. Timar ruznamçə dəftərləri zeamət və timar almışlar arasında yerlilərin də olduğunu göstərir.

Timar ruznamçə və təhvil dəftərlərində adları zeamət və timar sahibi kimi qeyd edilənlərin məhz bu kateqoriyaya, hərbi səfərdə könüllü iştirak edərək, ilk dəfə zeamət və timara sahib olanların olduğunu söyləmək mümkündür. Bu könüllər arasında Osmanlı dövlətinin ayrı-ayrı bölgələrindən olanlarla yanaşı, Gəncə-Qarabağ əhalisindən olanların da varlığını qeyd etmək lazımdır. Bölgə adı (*qarabağlı, şirvanlı*) ilə yanaşı, zeamət və timar sahiblərinin hansı şəhərdən (*gəncəli, xılxınalı*) olduqları da ruznamçə dəftərlərində göstərilmişdir. Zeamət və timar sahiblərinin şəhərlərinin adının qeyd edilməsinə bir qayda kimi əməl olunmasını nəzərə alaraq, hansı şəhərdən olmaları göstərilməyənlərin də *qarabağlı* ola biləcəyi ehtimalını irəli sürməyə imkan verir.[54]

### GƏNCƏ-QARABAĞ ƏYALƏTİNDƏ OLAN ZEAMƏT VƏ TİMAR RƏAYALARININ MADDİ İMKANLARI

Yuxarıda da qeyd etdiyimiz kimi, timar sahibinin timara olan marağının itməsi halları məlum olardısa, həmin adamın timarı əlindən alınardı. Lakin timar sahibinin etinasızlığının kökündə duran səbəb ruznamçə dəftərində göstərilməmişdir.

---

[53] E.E.Özünlü, s. 239, dipnot 10.

[54] Qarabağlılardan Osmanlılar tərəfə keçib, hərbi xidmətə başlayaraq maaş (*ulufe*) alanlardan zeamət və timara sahib onların adlarını həmin illərə aid maaş cədvəllərində *(mevacib defteri, defter-i mukabele*) tapmaq mümkündür. Bu dövrə aid Gəncə-Qarabağ əyalətində qulluq etmiş hərbçilərin maaşları ilə bağlı məvacib dəftərlərinə əsaslanan dəyərli tədqiqat U.Demlikoğlu tərəfindən aparılmışdır; bax: Uğur Demlikoğlu, "Osmanlı ordularının Genceyi fethi, askeri ve lojistik durumu (1723-1735)", *Tarih Okul dergisi*, 2019, yıl 12, sayı XLIII, s. 1448-1479 (bundan sonra- U.Demlikoğlu).

Məsələnin mahiyyətini 1732-ci ildə Gəncə mühafizi Gənc Əli paşanın məktublarının birindən anlamaq mümkündür. Zeamət və timar sahibliyi təsdiq olunanlar üçün hazırlanmış beratları Gəncəyə çatdıran mübaşir Əmir Seyid Osman əfəndi vasitəsi ilə 526 zeamət və timar üçün 4.848 quruş (1 quruş x120 ağça = 581.760 ağça) berat xərclərinin toplanıb xəzinəyə ödənməsi tələb olunurdu. Gəncə divanına kollektiv şəkildə müraciət edən zeamət və timar sahibləri onlara verilmiş kəndlərin rəiyyətlərinin öz yerlərini tərk etdiklərini, buna görə heç bir əkin işləri ilə məşğul olunmadığını, lazım olan vergiləri yığa bilmədiklərini, zeamət və timarları üçün nəzərdə tutulmuş miqdarda gəlirlərinin olmadığını nəzərə çatdıraraq, berat xərclərinin alınmamasını rica edirdilər.[55]

Osmanlıların Gəncə-Qarabağ əyalətini ələ keçirmə ərəfəsində və əyalətin osmanlı hakimiyyəti dövründə bu yerləri kütləvi tərk edənlərdən Şahsevənli tayfasının olduğunu qeyd etmişdik. Kəbirli camaatı isə Muğana, Şirvana və Rusiyanın işğalı altında olan Xəzəryanı bölgələrdə yerləşmişdilər. Naxçıvan sancağından köçüb Gəncə-Qarabağ əyalətində yerləşmiş, lakin osmanlı dövründə Muğan tərəfə köçənlərdən biri də Kəngərlilər idi.[56] Müfəssəl dəftərin məlumatlarına görə, Gəncə-Qarabağ əyalətində qeydə alınmış 1.185 kənddən 40.3%-i (478 kənd) boş, əhalisi olmayan kəndlər idi. Bundan əlavə, Şahsevənli tayfasının Şirvan xanı Surxay xan vasitəsi ilə Şirvan əyalətindən çıxardılması əmri[57] və sonra da Gəncə-Qarabağın kəndlərində yerləşdirilməsi bu məsələnin həllində ciddi tədbir kimi nəzərdən keçirilirdi.[58]

---

[55] *Osmanlı belgelerinde Karabağ*, s. 64-65 (belge №: 28).
[56] *Müfəssəl dəftər*, s. 467; *İcmal dəftər*, s. 4.
[57] Zeynep Kurt, s. 143-144 (hükm 132).
[58] *Osmanlı belgelerinde Karabağ*, s. 68-69 (belge №: 31).

Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərinin tərtibi dövründə vergilərini ödəyə bilməyən Bərgüşad, Vərəndə, Çelaberd, Yavlaq, Bərdə nahiyələrinin sakinlərinin, Bayat, Otuziki və Cavanşir camaatlarının 343.960 quruş, Gəncə, Şəmkür və Xılxına nahiyələrinin sakinlərinin isə, 211.883 quruş borcu olduğu müəyyən edilmişdir. Bununla əlaqədar qərara alınmışdır ki, ödənilәsi borc mərhələli şəkildə, hissə-hissə yığılsın, kasıb və xəstələrdən isə, vergilərin yığılması dayandırılsın. Eyni zamanda əyalət xəzinəsinin maddi çətinliklə üzləşməməsi üçün, Gəncəyə 10 min quruş (1.200.000 ağça) pul göndərilmişdir.[59] Müfəssəl dəftərin Qanunnaməsinə görə isə, qeyd edilən məsələnin həlli üçün bir sıra vergi və rüsumların yığılması da dayandırılmışdır. [60]

1732-ci ilə aid İcmal dəftərdə də nəzərdə tutulan gəlirin əldə edilməməsinin səbəblərindən biri kimi əhalinin "*asayiş və əmniyyətin olmaması... ucbatından*" öz yerlərini tərk etmələri göstərilir, geri döndüklərindən sonra isə, məsələnin yoluna qoyulacağı və əldə ediləcək gəlirdə 150 kisə (və ya 7.5 milyon ağça) artımın olacağına ümid ifadə edilirdi.[61] Lakin Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərinin məlumatlarını nəzərdən keçirərkən, xəzinənin hər kənddən əldə edəcəyi gəliri, onun mənbələri göstərilməklə ümumiləşdirilmiş şəkildə göstərilən rəqəmi, kənd üzrə adları siyahıya salınmış vergi mükəlləfiyyəti daşıyan insanlar arasında bölüşdürərkən alınan orta rəqəm həmin insanların maddi vəziyyətinin orta səviyyədə olması təəssüratı yaranır. Bunun gerçəkdənmi belə olduğunu yoxlamaq üçün əlimizdə yeganə sənəd 1729-cu ildə Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərinə əlavə kimi hazırlanmış və Talış, Gülüstan, Keştək və Çelaberd nahiyələrinin bəzi kəndlərinə aid 20

---

[59] *NBKM-OR*, Fond 315A, arx. ed. 60.

[60] *Müfəssəl dəftər*, s. 9, 26.

[61] *İcmal dəftəri*, s.3.

səhifəlik dəftərdir.[62] Bu dəftər 1727-ci ildə təsdiq olunmuş müfəssəl dəftərdəki kəndləri əhatə etdiyi üçün, onu qeydiyyata düşməmişlərin dəftəri (*hariç ez defter*) kimi qəbul edilməsi yanlış olardı. Bu dəftərin ən maraqlı xüsusiyyəti vergi mükəlləfiyyəti daşıyanların siyahısının *xanələr* üzrə tərtib edilməsi və *xanənin* bir *ev* (*ailə*) mənasında deyil, bir *təsərrüfat vahidi* mənasında işlənməsindədir. Bir xanəyə bir nəsli təmsil edən bir ailə (*ata- (subay) oğul*, bəzən də *ata-oğul-(subay) nəvə*) daxil edilmişdir. Bundan əlavə, kənd üzrə xəzinənin əldə edəcəyi gəlirin mənbələri göstərilməklə ümumiləşdirilmiş rəqəmləri ortaya qoyan müfəssəl dəftərdən fərqli olaraq, nəzərdən keçirdiyimiz dəftərdə hər *xanənin* hansı gəlir mənbəyindən nə miqdarda vergi ödəcəyi bir-bir yazılmışdır. Eyni zamanda hər *xanənin* nə qədər qaramalı (*inək, öküz, qoyun, camış, dana, kəl*) olduğu, hansı *xanənin* dəyirmanı, dingi olduğu, əkinçiliklə məşğul idisə, dənli və texniki bitkilər üzrə (*buğda, arpa, darı, çəltik, pambıq*) hər *xanənin* ödəyəcəyi natural verginin miqdarı ağırlıq ölçüsü (*tağar*) ilə göstərilməklə qeyd edilmişdir. Dəftərdə bəzi kəndlərin neçə *tağar* dənli bitki əldə edilməsi mümkün olan əkin sahəsi haqqında da məlumat verilmişdir (misal üçün, *tarla – 380 tağar*). Ayrıca olaraq, hər xanənin *dönüm* (sahə ölçüsü) ilə qeyd edilmiş üzüm və meyvə bağları, arıçılıqla məşğul olanların isə, arı pətəklərinin sayı da qeydiyyata alınmışdır.

Müfəssəl dəftərə əsasən belə bir təsəvvür yaranır ki, kənd üzrə ödənəcək vergi miqdarı vergi mükəlləfiyyəti daşıyanlar arasında bərabər bölüşdürülmüş, lakin araşdırdığımız dəftər adları dəftərə salınan hər *xanənin* mükəlləfiyyətinin digər *xanənin* mükəlləfiyyətindən fərqli olduğunu və bu mükəlləfiyyətin ayrı-ayrı gəlir mənbələri (məşğuliyyət sahələri) üzrə müəyyən edildiyini göstərir.

---

[62] *NBKM-OR,* fond 313A, arx. ed. 357, v. 1a-11a.

Həmin dəftərdə bir kəndin materialları əsasında həmin kənddəki təsərrüfat həyatı və vergi mükəlləfiyyəti ilə bağlı dolğun mənzərə yaratmaq mümkündür. Müfəssəl dəftərdəki materiallarla nəzərdən keçirdiyimiz dəftərin materiallarını müqayisə edərkən, misal üçün, *Çelaberd nahiyəsinin Gülablı kəndində* olan vergi mükəlləfiyyəti daşıyanların sayında dəyişikliyin olmadığını görürük: bu kənddə 8 ailə şəklində qeydiyyata düşmüş 11 nəfər vergi mükəlləfiyyəti daşıyan olmuşdur. Kənd sakinləri əvvəki illərdə olduğu kimi əkinçiliklə məşğul olmaqda davam etmiş, lakin dənli bitkilərin nomenklaturasında və əldə edilən məhsulun həcmində dəyişiklik baş vermişdir. Səbəbi məlum olmasa da, qeyd edə bilərik ki, buğda, arpa, darı və pərinc əkib-becərən kənd sakinləri artıq pərinc əkmir, buğda ilə arpanın natural şəkildə ödənəcək verginin həcmi aşağı düşmüş, darının həcmində isə, artım olmuşdur. Müfəssəl dəftərə görə, buğda üçün 14 tağar (2.688 kq) vergi verilməsi nəzərdə tutulduğu halda, İcmal dəftərə görə, verginin həcmi 9 tağara (1.728 kq) və yaxud 35.7% aşağı düşmüşdür. Eyni vəziyyət arpa ilə də bağlı olmuşdur: 12 tağar həcmində olası vergi, İcmal dəftərə görə artıq 7.5 tağaradək (37.5 % azalma) enmşdir. Halbuki, darının vergi kimi ödəniləsi həcmi nəzərdə tutulan 4 tağar deyil, 8 tağara yüksəlmişdi.

Əkinçilik üçün yararlı torpaq sahəsi, işçi qüvvəsinin sayı, torpaq şumlamaq üçün kifayət qədər qaramalın olması və nəhayət, səpin üçün lazımlı həcmdə dənin olması dənli bitkilərin əkilib-becərilməsində mühum amillərdəndir.

Dənli bitkilər üçün 1/10 (*üşr*) verildiyini nəzərə alsaq, müfəssəl və İcmal dəftərə görə, buğda üçün məhsulun həcmi İcmal dəftərə görə – 17.280 kq/müfəssəl dəftərə görə – 26.880 kq, arpanın həcmi müvafiq olaraq 14.400 kq / 23.040 kq, əldə ediləcək darının həcmi isə 15.360 kq / 7.680 kq olmalı idi. Əgər bu həcmdə məhsulun alınması üçün yararlı torpaq fondunun mövcudluğunu qəbul etsək belə, həmin torpaq sahəsini şum-

lamaq üçün lazımi qədər qaramalın olması zəruri idi. Cədvəldən göründüyü kimi, 7 evdən yalnız beşinin şumlama aparmaq üçün öküzü olmuş, iki ailənin isə, ümumiyyətlə, qaramalı olmamışdır. Halbuki qaramalı olmayanlardan biri buğda, arpa və darı əkib-becərirmiş. Belə olduğu halda həmin adamın ehtiyacı olduğu öküzü müəyyən şərtlərlə həmkəndlilərinin birindən ala biləcəyini söyləmək mümkündür. Ailələrdən birinin 3, iki ailənin hərəsinin 2 öküzü olmuş, iki ailənin hərəsində isə, bir öküz var idi. Öküzlərin sayına müvafiq olaraq, ailələrin əkdikləri sahənin böyük olduğunu, eyni zamanda yüksək məhsul əldə edə biləcəklərini ehtimal etmək mümkündür.

Kənddə işlədilən üç dəyirmandan birinin sahibi əkinçiliklə məşğul deyildi; o yalnız dəyirmançılıqla məşğul olmuşdur. Bundan əlavə kənd üzrə müfəssəl dəftərdə göstərilməmiş 4 dink sahibi müəyyən edilmişdir (bu dinklərdən biri yararsız olduğu üçün işlədilmirdi); burada çəltik əkilmədiyi üçün, onun sahibləri dinklərinin qonşu kəndlərdən gətirilən çəltiyin arınması üçün istifadə edə bilərdilər.

Müfəssəl dəftərin təsdiq edildiyi vaxtdan keçən bir neçə ildən sonra Gülablı kəndində arıçılıqla məşğul olan qalmamış, halbuki 1727-ci ildə burada 20 arı pətəyi varmış. Yüksək gəlir təmin edən məşğulluq sahələrindən olan ipəkçiliklə də artıq heç kim məşğul olmurdu - müfəssəl dəftərə görə, üşr kimi həcmi 1 batman (7.7 kq = dəyəri 1.200 ağça) müəyyən edilmiş ipəyin burada ümumi istehsal həcmi (əslində isə, xəzinənin alacağının nəzərdə tutulduğu həcm) 77 kq-a bərabər olmuşdur.

Nəhayət, yuxarıda qeyd edilənləri nəzərə alaraq, Gülablı kənd sakinlərinin maddi vəziyyəti haqqında müəyyən təsəvvür yaratmaq üçün, kəndin *kovxası* (mətndə *kehya* kimi qeyd edilmişdir) Budaq Ərmağan oğlunun və onun qardaşı Muradın vergi mükəlləfiyyətini və maddi vəziyyətininin hansı səviyyədə ola biləcəyini əsas ərzaq məhsulu olan buğda ilə bağlı məlumata əsaslanaraq hesablama aparaq (bax: *Cədvəl*).

*Cədvəl.* **Çelaberd nahiyəsinin Gülablı kəndinin ailələrinin vergi mükəlləfiyyəti və mal varlığı***

| *Xanə* sıra N:si | *Vergi mükəlləfiyyəti daşıyanlar* | *Buğda (tağar ilə)* | *Arpa (tağar ilə)* | *Darı (tağar ilə)* | *Öküz (baş)* | *İnək (baş)* | *Dana (baş)* | *Dəyirman (ədəd)* | *Dink (ədəd)* |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Budaq Ərmağan oğlu, [Budağın] qardaşı Murad | 2 | 2.5 | 2 | 2 | 1 | 2 | 1 | 1 |
| 2 | Nəbi Mustafa oğlu, [Nəbinin] qardaşı Məhəm-mədəli, [Məhəmmədəlinin] oğlu Məhəmməd-hüseyn | 2 | 1 | 0 | 2 | 1 | 1 | 0 | 0 |
| 3 | Məhəmməd Vəlixan oğlu, [Məhəmmədin] qardaşı Ağaxan | 2.5 | 2.5 | 2 | 3 | 2 | 0 | 0 | 1 |
| 4 | Kəlbəli Əlibəy oğlu | 1 | 0.5 | 2 | 1 | 1 | 0 | 0 | 0 |
| 5 | Məhəmmədəli Şeyxi oğlu | 1 | 0.5 | 0 | 1 | 1 | 0 | 0 | 0 |
| 6 | Mehdi Əli oğlu | 0.5 | 0.5 | 2 | 0 | 0 | 0 | 0 | 1 |
| 7 | Məhəmmədəmin Vəlixan oğlu | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 | 0 |
| 8 | [Ailə başçısı vəfat etdiyinə görə, adı dəftərə salınmamışdır] | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 1 (işləmir) |
| **Cəmi** | **11 nəfər** | **9** | **7.5** | **8** | **9** | **6** | **3** | **2** | **4 (bunlar-dan biri işləmir)** |

Bu ailənin buğda üçün ödədikləri 1/10 (*üşr*) natural vergi 2 tağara (384 kq), ümumi məhsulun həcmi isə, 20 tağara (3.840 kq) bərabər olmuşdur. Vergi ödəndikdən sonra yerdə qalan buğdadan

* *NBKM-OR*, fond 313A, arx.ed. 357, v. 5a.

(18 tağar və yaxud 3.456 kq) toxumluq üçün ¼ (4.5 tağar və yaxud 864 kq) hissəsi ayırılırdı; sonda iki ailəyə 13.5 tağar (2.592 kq) buğdanın qaldığını görürük. İki ailənin (10 nəfər) bir illik ehtiyacı üçün qalmış buğdanın həcmi aylıq 216 kq (adambaşı 21.6 kq), gündəlik isə, 720 qr-a bərabər olurdu ki, bunun imkanlı kəndli olan kovxa və qardaşının ailəsi üçün kifayət etdiyini deyə bilərik. Lakin 2-4 dəfə az buğda məhsulu əldə edən ailələr üçün ehtiyatın da bir o qədər az olması, həmin ailələrin maddi imkanlarının çox aşağı səviyyəsini göstərməkdədir.

Eyni vəziyyət digər kəndlərdə də müşahidə olunur. Misal üçün, Keştək nahiyəsinin Pirəcamallı, Seysulan, Yarımcalı və b. kəndlərində dənli bitkilərdən əldə edilən məhsulun kəskin azalması (təqribən 10-60 dəfə) qeydə alınmışdır. Pambıqçılıqla da bağlı eyni sözləri söyləyə bilərik: Seysulan kəndində 1727-ci ildə pambıq üşrü 300 batman olduğu halda, 1729-cu ildə bu verginin miqdarı 10 dəfə aşağı düşmüş, Pirəcamallı kəndində isə üşrü 100 batmana bərabər olan pambığın əkilib-becərilməsi dayandırılmışdır. İpəkçilik isə yuxarıda adlarını çəkdiyimiz kəndlərin hamısında məşğulluq sahəsi kimi 1729-cu ildə artıq qeydə alınmamışdır.

Üzüm bağlarının sahələrində də xeyli azalma olmuşdur. Canyataq, Dərə Abdal, Ağcakənd Oğul, Yeniköy və b. kəndlərdə üzüm bağlarının sahəsi 2-5 dəfə azalmışdır. 1727-ci ildə 30 dönüm (təqribən 30 hektar) üzüm bağları olan Yuxarı Qarabəy kəndində isə 1729-ci ildə üzümçülüklə heç kim məşğul olmurdu. Eyni vəziyyət arıçılığa da aid idi.1727-ci ildə Xanrəis kəndində 133, Dərə Abdalda 25, Ağxanada 60, Gülablı kəndində isə 20 arı pətəyi var ikən, iki ildən sonra bu kəndlərdə arıçılıqla heç kim məşğul olmurdu. Talış kəndində müfəssəl dəftərə görə 66, Mehmanada 55 və Çanaqçı kəndində 300 arı pətəyi qeydə alınsa da, İcmal dəftərə görə 1729-cu ildə bu kəndlərdə arı pətəklərinin sayı bir neçə dəfə azalmışdır (müvafiq olaraq, arı pətəklərinin sayı 8, 3, 11 olmuşdur).

Osmanlılar qaramaldan vergi almasalar da, sağmal inəyi olanlar onların hər biri üçün 12 ağça *kərə yağı vergisi* ödəyirdi-

lər. Səbəbi məlum olmasa da, müfəssəl və İcmal dəftərlərin məlumatlarını müqayisə edərkən, inəklərin sayında da azalmanı görmək mümkündür. Müfəssəl dəftərin məlumatlarına görə, Çanaqçı kəndində 300 baş inək olmuşdur, lakin İcmal dəftərə görə inəklərin sayı 16 qeyd edilmişdir; Xanrəis kəndində bu nisbət 166-34, Canyataq kəndində 100-19, Ağxana kəndində 80-23, Pirəcamalda 60-13, Seysulanda 30-5, Talışda 125-60 və s. bərabər olmuşdur.

Osmanlı-səfəvi qarşıdurmasına qədər adları yuxarıda qeyd olunan kəndlərin sakinlərinin maddi vəziyyətlərinin aşağı olmadığını onların (müfəssəl dəftərə görə) dənli bitkilərdən daha böyük məhsul əldə etmələri, eyni zamanda böyük gəlir gətirən ipəkçilik, maldarlıq, üzümçülük və arıçılıqla məşğul olmaları ilə izah etmək mümkündür. Lakin kənd sakinlərinin maddi vəziyyətindəki geriləmənin yaranmasının kökündə XVII əsrin sonları - XVIII əsrin əvvəllərində Səfəvi şahı Sultan Hüseynin yürütdüyü vergi siyasətinin, vəziyyətin daha gərginləşməsində isə, osmanlı-səfəvi qarşıdurması durduğunu xüsusi qeyd etmək lazımdır.[63]

## OSMANLI DÖVRÜ GƏNCƏ-QARABAĞ ƏYALƏTİNİN QƏSƏBƏ VƏ ŞƏHƏRLƏRİ

Osmanlılar dövrü Gəncə-Qarabağ əyalətinin şəhərləri haqqında müfəssəl və İcmal dəftərlərin məlumatları şəhər anlayışı üçün istifadə edilən terminlərin – *nefs, mədinə və qəsəbə* – məzmunu ilə şəhər üçün elmi ədəbiyyatda istifadə edilən meyarların arasında uyumsuzluğun olduğunu xüsusi vurğulamağımız lazımdır.[64]

---

[63] Osmanlıların müvəqqəti hakimiyyəti dövründə Gəncə-Qarabağ əyalətinin əhalisinin Osmanlılara qarşı silahlı müqaviməti T. Mustafazadə tərəfindən geniş işıqlandırılmışdır: bax: Tofiq Mustafazadə, s. 101-111.

[64] Mütəxəssislərin şəhər və osmanlı şəhəri ilə bağlı hansı meyarlara üstünlük vermələri A.Aliağaoğlu ilə A.Uğurun məqaləsində geniş araşdırılmışdır; bax: Alpaslan Aliağaoğlu, Abdullah Uğur, "Osmanlı sehri", *SDÜ Fen Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi*, 2016, sayı 38, ss. 203-226.

*"Nefs"* narrativ mənbələrdə yox dərəcəsindədir – o daha çox və əsasən təhrir dəftərləri ilə yanaşı, dəftərxanada hazırlanmış digər rəsmi sənədlərə xas olan termindir. Şəhər anlayışı üçün istifadə edildiyi elmi ədəbiyyatda bu termin hər hansı bir yaşayış yerinin əhalisinin sayı baxımından nəzərdən keçirilsə, "*nefs*"in əhalisi kənd əhalisinin sayı qədər və hətta ondan çox az olan bir yaşayış yeri üçün də istifadə edildiyini görərik, lakin bu halda "*nefs*"in bir şəhəri deyil, hər hansı bir sancağın (livanın) inzibati mərkəzi mənasında işləndiyini görərik. Müfəssəl dəftərdə bu termin həm Gəncə, həm də Bərdə üçün istifadə olunmuşdur.[65]

*"Mədinə"* təhrir dəftərlərində, ümumiyyətlə, az işlədilən termindir və bir dəfə, İcmal dəftərdə hakimiyyətdə olan sultanın şərəfinə təsis edilmiş vəqflərə bağlı kəndlərin siyahısının başlığında qeyd olunmuşdur;[66] halbuki Gəncə şəhəri üzrə müqatiələrdən bəhs olunarkən "*nefs*" sözü işlədilmişdir.[67] Gəncə ilə bağlı iki termindən istifadənin ayrı-ayrı topoqrafiyanı (*nefs-qala // mədinə – qalaətrafı yerlər*) ifadə etmək üçünmü istifadə olunduğu anlaşılmır.

Osmanlı termini olan və şəhərdən kiçik, kənddən böyük yaşayış yerləri üçün tətbiq edilən "*qəsəbə*" termini müfəssəl dəftərdə yalnız Xılxına üçün istifadə edilmişdir.[68]

Şəhər anlayışı üçün qəbul olunmuş meyarları (hər hansı ərazi-inzibati vahidi daxilində inzibati, iqtisadi və hərbi funksiyaların icra edildiyi, aqrar xüsusiyyəti olmayan mərkəz) Gəncə, Bərdə və Xılxına ilə bağlı məlumatlarla qarşılaşdırdıqda,

---

[65] *Müfəssəl dəftər*, s.29 , 277.

[66] "Kura-yi evkaf-i cevami ve mesacid və medaris-i hazret-i şehriyari der medine-i Gence*", İcmal dəftər*, s. 29.

[67] 'an mal-i mukataat-i *nefs-i Gence,* İcmal dəftər, s. 6.

[68] *Müfəssəl dəftər*, s.205; Müfəssəl dəftərdə Xılxına üçün istifadə edilmiş "*qəsəbə*" terminini, mübahisəli olsa da, "*şəhər*" kimi tərcümə etdik ki, bunun da başlıca səbəbi burada cümə məscidinin (*came*) və ticarətin geniş vüsət alması idi.

yalnız Gəncənin həmin funksiyalara cavab verən yaşayış yeri kimi nəzərdən keçirmək olar.

Osmanlıların Gəncə şəhərini ələ keçirməzdən əvvəl buranın sakinləri şəhəri, bir qismi isə, ümumiyyətlə, əyaləti tərk etmişdi.[69] Bu baxımdan sakinləri olmayan Gəncənin məhəllələrinin (Zərrabi, Ozanlar, Əttaran, Ağalmas, Şahsevən, Sofular, Səfərabad, Toyuqçu, Hacı Saleh, Bağır, İmamlı, Möhtəsib, Qarasobalı və Bağbanlar) adları müfəssəl dəftərdə, sadəcə, qeydə alınmışlar. Bununla belə Gəncənin ticarət mərkəzi kimi fəaliyyətini davam etdirməsini müfəssəl dəftərin bir neçə qeydi də təsdiq edir: "*...bazar əhli Gəncəyə səhər gəlib, gecələr isə yenə öz kəndlərinə*" qayıdır,[70] yaxın kəndlərdə məskunlaşmış gəncəlilərlə bağlı xüsusi maraq kəsb edən daha bir məlumat isə, onların "*Gəncə bazarının tacirləri və bağban olduqları üçün nə əkinçiliyə qabiliyyətləri, nə də ki, əkin yerləri var*",[71] deyə müfəssəl dəftərdə qeydin olmasıdır.

Müfəssəl və İcmal dəftərlərində Gəncənin ticarət mərkəzi kimi fəaliyyətini davam etdirməsini müfəssəl dəftərin dörd hissədən ibarət Qanunnaməsinin üç hissəsinin məhz ticarət qaydalarının tənzimlənməsinə həsr edilməsi də təsdiqləyir. Qanunnamədə ipəyin, dənli bitkilərin, misin, qurğuşunun, qalayın, çeşidli ərzaq mallarının, geyim, parça və s. alqı-satqı qaydalarını, vergi və rüsumların miqdarı, ödəniş qaydaları xırda detallarına qədər təsvir edilmişdir.

---

[69] Gəncənin ələ keçirilməsindən əvvəl, osmanlı sultanının verdiyi hökmdə şəhər sakinlərinə itaət təklif olunmuşdu.Təklif qəbul olunduğu halda, əmlaka toxunmamaq, əks halda, "*qızılbaş tayfasından olan kişiləri qətl, qadın və uşaqlarını əsir götürüb kölə etmək*" əmri verilmişdir. Gəncəyə yaxınlaşmış osmanlı ordusu şəhəri üç tərəfdən top atəşinə tutduqdan sonra, gəncəlilərə itaət etmək təklif olunmuş, lakin gəncəlilər bu təklifi rədd etlmişdilər. Şəhərə daxil olan osmanlılar "*imansız rafizilərin qanları ilə şəhərin küçə və bazarlarını qan çanağına və ... lənət qazanmışların natəmiz qanlarını [isə] Ceyhun çayına bənzər hala saldılar*"; bax: *Tarih-i Küçükçelebizade*, s. 294-295.

[70] *Müfəssəl dəftər*, s. 29.

[71] *Yenə orada*, s. 31.

Kiçik istehsal müəssisələrinin (şamxana, dəbbaqxana, sabunxana, boyaxana, çörək bişirmə və qəhvə üyütmə sexləri), ticarət obyektlərinin (1.200 dükan) və karvansaraların (21 ədəd) çoxluğu da Gəncə şəhərində əmtəə münasibətlərinin çox yüksək olduğunu nümayiş etdirməkdədir. Bunu həm də xəzinənin bu şəhərdən əldə etdiyi gəlirin (5.880.000 ağça) əyalət üzrə gəlirindəki (26.001.356 ağça) nisbətinin minimum 23%-ə yaxın olması da göstərir.

Beləliklə, Gəncə şəhəri ilə bağlı çıxaracağımız ilk nəticə, şəhər sakinlərinin əkinçiliklə məşğul olmamaları, başqa sözlə ifadə etsək, Gəncə şəhərinin *aqrar* xarakterli olmamasıdır.

İnzibati baxımdan isə Gəncə əyalət mərkəzi, bəylərbəyinin (mirmiranın) və yerli idarəetmə aparatının (mirmiran Divanı) olduğu, hərbi baxımından şəhərdə (qala) mühafizə qarnizonunun yerləşdiyi, ədalətin (qanun və qaydaların) qorunmasına cavabdeh qazinin rəhbərliyi altında şəriət məhkəməsinin fəaliyyət göstərdiyi bir məkan olmuşdur.

Bir sözlə, şəhərlər üçün tələb olunan təsnifat meyarlarına görə Gəncə-Qarabağ əyalətinin mərkəzi olmuş Gəncə şəhər kimi xarakterizə edilir.

Bərdə və Xılxınanı Gəncədən fərqləndirən və hər ikisinə xas olan ortaq cəhət onların *aqrar funksiyasının* daha qabarıq özünü büruzə verməsidir. 482 nəfər vergi mükəlləfiyyəti daşıyan altı məhəlləli (Şeyxoğlu, Abbasqulu, Rzaqulubəy, Qocabəy, Zərgər Əbülqasım, Özdəkoğlu (?) Əlirza) Bərdənin[72] şəhərə xas olan inzibati, iqtisadi və hərbi funksiyaları haqqında məlumat natamamdır; 5 dəyirmanın və 32 dingin (çəltiyin qabıqdan ayırılması üçün alət) olduğu (qeydə alınmışlar) Bərdədə sənətkarlıq (başmaqçı, dəbbakeş, çarıqçı, dəmirçi, bərbər, dəllək, baqqal və s.) məsələləri, şəriət məhkəməsi haqqında epizodik məlumatlar

---

[72] *İcmal dəftər*də Bərdənin "*karye*" (kənd) kimi qeyd olunmasını katibin mexaniki səhvi kimi də qəbul etmək lazımdır, çünkü *Müfəssəl dəftərdə* bura "*nefs*" termini ilə qeydə alınmışdır; bax: *İcmal dəftəri*, s. 24.

olsa da, hərbi qarnizon, ticarət, ibadət yerlərinin (came və məscid) mövcudluğu ilə bağlı məlumat yoxdur. Nəzərə daha qabarıq şəkildə çarpan isə Bərdə sakinlərinin dənli bitkilər əkib-becərməsini, pambıqçılıq və ipəkçiliklə məşğul olmasını və bu sahələr üzrə vergi və rüsumlar ödədiyi göstərilir. Xəzinənin Bərdədən əldə etdiyi gəlirin (95.500 ağça) 92.3%-ni yuxarıda qeyd edilən sahələr sayəsində mümkün olması, iqtisadi münasibətlər baxımından, əsasən, aqraryönlü biçimlənməsi nəticəsində mümkün olmuşdur.

Eyni mənzərə Xılxına qəsəbəsinin timsalında da özünü büruzə verir. Bərdə ilə müqayisədə vergi mükəlləfiyyəti daşıyanların sayının (182 nəfər) az olmasına baxmayaraq, burada şəriət məhkəməsinin, 1 came, 93 dükan, 7 dəyirman və 1 hamamı olan Xılxına da kənd təsərrüfatına üstünlük verilən yaşayış yeri idi. Xılxınanın kənd təsərrüfatının ayrı-ayrı sahələrindən xəzinəyə verdiyi 74 min ağça gəlirin ümumi gəlirdə payı 92.5%-ə bərabər olmuşdur.

Beləliklə, birinin *nefs* (Bərdə), digərinin isə, *qəsəbə* (Xılxına) kimi müfəssəl dəftərdə qeyd olunmalarını, bu iki *liva* mərkəzinin osmanlı idarəçilik sistemində yalnız inzibati funksiyalarının vurğulanması ola biləcəyini ehtimal edirik.

## GƏNCƏ-QARABAĞ ƏYALƏTİNDƏ İLTİZAMIN TƏTBİQİ

Əyalətdə maliyyə məsələlərini həll etmək, xəzinə üçün vəsaiti vergi yığma qaydalarına görə mərhələli deyil, nəğd pul şəklində və tam əldə etmək üçün gəlir obyektlərinin (*müqatiə*) iltizama verilməsi üsulu tətbiq olunurdu.

İltizama verilmiş gəlir mənbələrinə gömrük, çəki işləri (*qapan*) və ipək (*mizan-i hərir*) ilə bağlı rüsumlar, heyvan yemi anbarı, sabunxana, dabbağxana, at bazarı, qəhvə qovurma və üyütmə obyektlərindən əldə ediləcək gəlirlər daxil idi. Əlavə edək ki, Müfəssəl dəftərdə Gəncə şəhəri üzrə müqatiə kimi

müəyyənləşdirilmiş dabbağxana və şamxana, Gəncə şəhəri və ya bütün əyalətə aid olduğu, lakin Müfəssəl dəftərdə qeyd edilməyən balıq ovu və ət vergisi müqatiəsi haqqında məlumatlar İcmal dəftərə daxil edilməmişdir. Bununla yanaşı İcmal dəftərdə Gəncə şəhərinin müqatiələrindən olan *mirabiyyə,* Müfəssəl dəftərdə həm Gəncə şəhərinə, həm də eyni adlı nahiyəyə aid edilmişdir. Həmçinin, Müfəssəl dəftərə görə, boyaxana, sabunxana, mizan-i hərir həm Gəncə şəhərinin, həm də eyni adlı nahiyənin müqatiələri siyahısında göstərilmişdir.

Müqatiələrlə bağlı maraqlı bir məqam da, bu gəlir obyektlərindən iltizam üsulu ilə əldə edilən gəlirin miqdarındakı fərqlərin olmasıdır. Misal üçün,1727-ci il Müfəssəl dəftərinə görə, "*mizan-i hərir*" müqatiəsindən iltizam üsulu ilə Gəncə şəhəri üzrə və "ona tabe olan yerlər"dən əldə edilən gəlirin 4.020.000 ağçaya bərabər olduğu halda, beş ildən sonra, İcmal dəftərdə yalnız Gəncə şəhəri üzrə əldə edilən gəlirin 3.960.000 ağça olduğu yazılmışdır. İpək ticarətinin Gəncə şəhər bazarında aparıldığını nəzərə alsaq, "mizan-i hərir" rüsumunun müqatiəsindən əldə edilən gəlirdəki azalma (60 min ağça) bəzi yerlərdə ipəkçiliklə məşğul olunmaması ilə əlaqələndirmək lazımdır.[73]

Eyni məsələ boyaxanaların iltizamından əldə edilən gəlirə də aiddir. Müfəssəl dəftərdə Gəncə şəhəri və nahiyələrindən əldə edilən gəlirin 132 min ağça olduğu halda, İcmal dəftərdə yalnız Gəncə şəhəri üzrə bu gəlirin 120 min ağça olduğu yazılmışdır. Bundan əlavə, müfəssəl dəftərdə boyaxanaların iltizamından əldə edilən gəlirə yalnız Gəncə şəhərindəki boyaxanalardan deyil, həmçinin nahiyələrdəki boyaxanalardan da təmin edilən gəlir də daxil idi. Müfəssəl dəftərin məlumatına görə, Gəncə şəhərini çıxmaqla (Gəncə şəhərində olan boyaxanaların sayı Müfəssəl dəftərdə qeyd olunmamışdır) Gəncə-Qarabağ əyaləti üzrə qeydə alınmış 19 boyaxananın hamısı Gəncə livasında (7-i

[73] *Müfəssəl dəftər (* s. 28) və *İcmal dəftər*dəki (s. 6) məlumatları *NBKM-OR,* fond 313a, arx.ed. 357, v. 1-11a ilə müqayisə et.

Gəncəbasan, 6-ı Sunqurabad, 4-ü nahiyəsində, 2-i Talış nahiyyələrində) idil. Hər birindən 300 ağça rüsum alınmaqla, illik gəlir 5.700 ağça olmuşdur. Əgər Gəncə şəhərinin osmanlılar tərəfindən ələ keçirilməsindən sonra, şəhər sakinlərinin hamısının şəhəri tərk etdiklərini nəzərə alsaq, iltizama verilənlərin sahibsiz qalan boyaxanalar olduğunu qeyd etməliyik. Sahibləri olduğuna görə, nahiyələrdəki 19 boyaxana isə iltizama verilməmişdir. Belə olduğu halda, boyaxana iltizamından əldə edilən gəlirdəki azalma gerçək gəliri əks etdirmiş olmalı idi.

İcmal dəftərdə gömrük və qapan müqatiələrinin iltizamından təmin olunan gəlir 1.080.000 ağçaya bərabər olmuşdur. Müfəssəl dəftərə isə, qeyd edilən iki maddə ilə yanaşı, heyvan yemi anbarının iltizamı da əlavə edilmiş və iltizamdan əldə ediləcək gəlirin 1.200.000 ağça olduğu yazılmışdır; aradakı fərqin – 120 min ağca – heyvan yemi anbarının iltizamı sayəsində əldə edildiyini söyləyə bilərik.

Bəzi digər müqatiələr (at bazarı, mirabiyyə, sabunxana) ilə bağlı müfəssəl və İcmal dəftərlərinin əldə edilən gəlirlə bağlı məlumatlarının üst-üstə düşdüyünü görürük. İcmal dəftərdə qeyd etdimiz maddələrdən əldə edilən gəlirin Gəncə şəhərinə aidliyi yazılsa da, Müfəssəl dəftərdə at bazarı, mirabiyyə və sabunxana müqatiələrinin gəlirlərinin formalaşmasında nahiyələrin də payının olduğu göstərilmişdir.

Müqatiələrdən iltizam üsulu ilə əldə edilən gəlirin, bir qayda olaraq, sultan xaslarına, bəzən də mirmiran xaslarına aid edilməsi və dolayısıyla, əsasən, gəlirin təmin edildiyi əyalətin zəruri ehtiyaclarına sərf olunması nəzərdə tutulardı.

### İLTİZAMDAN ƏLDƏ EDİLƏN GƏLİRİN XƏRCLƏR MADDƏSİ

Yuxarıda hansı gəlir mənbələrinin (*müqatiə*) iltizama verildiyindən bəhs edərkən, onların, əsasən, Gəncə şəhərində olduğunu, bəziləri üçün isə, Müfəssəl dəftərdə *müqatiə* qeyd edil-

dikdən sonra, iltizamdan qazanılan gəlirdə nahiyələrin də payının olduğu yazmışıq. Müfəssəl dəftərə görə, bu müqatiələr Gəncə livasının Gəncəbasan, Kiçik Kürəkbasan və Kürəkbasan nahiyələrində olmuş və hamısının da hakimiyyətdəki sultan III Əhməd camesinin vəqfi olduğu qeyd edilmişdir.[74]

Cari işlərlə bağlı hazırlanmış və hazırda Sofiyadakı Kiril və Mefodi kitabxanasında saxlanılan osmanlı sənədlərində Gəncə şəhəri müqatiələrindən əlavə, iltizama verilmiş gəlir mənbələrinin Gəncə livasının Bərdə və Şəmkür nahiyələrində də olduğu qeyd edilir. Lakin Gəncə şəhəri üzrə müqatiələrdən fərqli olaraq, Bərdə və Şəmkür nahiyələrində iltizama verilmiş gəlir mənbələri haqqında nə müfəssəl, nə də ki İcmal dəftərlərində məlumat olmadığından, həmin gəlir mənbələrinin iltizama verilməsi qərarının 1727-ci ilə qədər olduğunu, iltizam müddəti başa çatdığına və İcmal dəftərin tərtib edildiyi ilədək yenidən iltizama verilmədiyinə görə, bu barədə nə müfəssəl, nə də ki, İcmal dəftərdə məlumata rast gəlmirik.

Bununla belə, osmanlı hakimiyyətinin ilk illərində Bərdə və Şəmkür nahiyələrində zeamət və timar kimi bölüşdürülmüş gəlir mənbələrinin xəzinənin artan xərcləri fonunda nəğd pula olan ehtiyacını ödəyə biləcək tək üsula – iltizam üsuluna keçidin şahidi oluruq. İltizam üsulunun nə dərəcədə yayıldığını mənbələrin qıtlığı ucbatından dolğun əsaslandıra bilməsək də, zeamət və timar sahiblərinin onlara verilmiş mənbələrin nəzərdə tutulmuş gəliri təmin edə bilməmələri və buna görə də, zeamət və timarının qayğısına qalmamaları, bəzilərinin isə, bu məsuliyyətdən yayınmaq üçün fərarilik etməsi, osmanlıları ölkənin hər yerində tətbiq olunan və özünü doğrultmuş iltizam üsuluna keçməyə vadar etmiş ola bilərdi.

İltizama verilmiş müqatiələrdən əldə edilən gəlirin istifadəsi haqqında osmanlı sənədlərindəki məlumatları dörd qrup xərclər maddəsinə ayırmaq olar:

---

[74] *Müfəssəl dəftər*, s. 57-58, 62-63, 146-147, 153.

1. Hərbçilərin maaşı;

2. Hərbçilərin ərzaq təminatı;

3. Ordunun hərbi sürsat xərcləri;

4. Mərkəzi və yerli idarəetmə aparatının məmurlarının ərzaq və yol xərclərinin *(harc-i rah)* ödənməsi.

İltizama verilmiş gəlir mənbələrindən yerli xəzinədə yığılmış vəsaitin istifadəsi müvafiq kargürzarlıq qaydalarına uyğun olaraq aparılırdı; təhvil-təslim işləri başa çatdıqdan sonra şəriət məhkəməsində vəsaiti təslim almış şəxs vəsaiti hansı məqsədlə və nə miqdarda aldığını bəyan edir, şəriət məhkəməsinin qərarını (*hüccet*) əks etdirən və şərti adı "*səbəb-i təhrir-i hükm*" olan sənədin arxa tərəfində vəsaiti alan və sərf edən şəxsin adı, vəzifəsi və rütbəsi yazılırdı. Bu sənədin əsasında qazi bəylərbəyi və dəftərdara məktub göndərir, bu iki vəzifəli şəxs isə, böyük vəzir ilə baş dəftərdarı məlumatlandırırdılar.[75]

Osmanlı höküməti Gəncə-Qarabağ əyaləti qalalarında xidmət edən əsgərlərin maaşını vaxtlı-vaxtında verə bilmədiyi üçün, bu məqsədlə yerli xəzinənin müqatiələr hesabına yığılmış vəsaitindən istifadə edilirdi. 1725-ci ildə maaş üçün yerli xəzinədən 31.075 quruş (3.729.000 ağça) miqdarında vəsait istifadə edilmiş, lakin əyalətdə xidmətə çağırılmış əsgərlərin sayının artmasına görə, maaş üçün ayrılan vəsait üç dəfə artırılmış, bunun da təqribən yarısını (50 min quruş – 6 milyon ağça) müqatiələrdən götürülən gəlirdən ayırmaq lazım olmuşdur.[76]

Hər hansı bir səbəbə görə osmanlılar tərəfinə keçən və hərbi xidmətə başlayan yerli əhalidən olan *könüllülərin* də maaşı yerli xəzindən ödənilirdi. 460 nəfəri yerli könüllülərdən olan Lori qalasının 702 nəfərlik hərbi qarnizonunun 16.5 min quruş miqdarında olan məvacibləri də Gəncə xəzinəsindən, Gəncə

---

[75] Misal üçün bax: *NBKM-OR,* Fond 236A, Arx.ed., 1136, vər. 2, 6.

[76] *NBKM-OR, f*ond 313A, arx.ed.219.

qalasındakı əsgərlərin 12 min ağça edən məvacibi isə Bərdə müqatiəsindən götürülən gəlirdən ayrılmışdır.[77]

Hərbçilərin ərzaq təminatı da iltizama verilmiş gəlir mənbələri hesabına həll edilirdi. Bunun üçün əvvəlcə ayrı-ayrı qalalarda xidmət edən əsgərlərin sayı "*defter-i neferat*" adlı sənəd əsasında müəyyənləşdirilir, ardınca zabit və əsgərlərə nə qədər ərzaq verilməsi üçün "*defter-i tayinat*" adlı sənədə müraciət edilir, tələb olunan ərzaq alındıqdan sonra, zabit və əsgərlərin adı, xidmət etdiyi bölmənin (*camaat, oda*) nömrəsi yazılmış "*defter-i mukabele*" əsasında ərzaqın bölüşdürülməsinə başlanırdı. Bu qayda ilə əsgərlərə lazım olan düyü, buğda, arpa, ət, un, çörək (osmanlı sənədlərində çörək "*nan-i aziz*" kimi qeyd olunurdu) paylanılırı ki, bunlar üçün lazım olan vəsait Gəncə, Bərdə və Şəmkür nahiyələrinin müqatiələrindən əldə edilən gəlirdən ayrılmışdır.[78]

Ordunun hərbi sürsat xərcləri ilə mərkəzi və yerli idarəetmə aparatı məmurlarının ərzaq və yol xərclərinin ödənməsi üçün ilk müraciət edilən instansiya Gəncə xəzinəsi olmuşdur. İltizama verilmiş gəlir mənbələrindən qeyd edilən maddələr üçün lazım olan vəsaitin bir qismi Gəncə xəzinəsindən ödənilmişdisə də, əsas hissəsi Anadolu əyalətləri hesabına ödənmişdir.[79]

---

[77] *NBKM-OR,* fond 313A, arx.ed.238; arx. ed. 239, 196, vər.1; fond 1, arx.ed.1776; arx. ed. 20533.

[78] *NBKM-OR,* fond 1, arx.ed.1776; arx. ed. 20533; fond 236A, arx. ed. 1136, vər. 1-2; fond 313A, arx. ed. 23, vər. 1-2; arx. ed. 24; arx. ed.192. vər. 1-2; arx. ed. 196, vər. 1; arx. ed. 212; arx.ed. 218, vər.2; arx.ed.238; arx. ed. 239; arx. ed. 811.

[79] Ətraflı bax: Г.М.Мамедов, Османская налоговая система в Азербайджане в 20-30-х годах XVIII века, диссертация на соискание ученой степени кандидата исторических наук, Баку, 1985, сс. 126-153; son araşdırmalardan isə aşağıdakı məqaləsini qeyd edə bilərik: Fadimana Fidan, "Osmanlı-Safevi savaşlarında Kars ve Erzurumun zahire tedarikindeki rolü (1730-1732 örneği)", *Uluslararası Sosyal Araştırmalar dergisi,* cilt 11, sayı 55, 2018, s. 259-269.

Beləliklə, iltizama verilmiş müqatiələrdən götürülən gəlirlə müqayisədə xərclərin çox yüksək olması Gəncə xəzinəsinin daim kəsirdə qalmasına mənfi təsir etməklə yanaşı, xərclərin böyük hissəsi üzərinə qoyulmuş Anadolu əyalətlərinin də maliyyə vəziyyətini ağırlaşmışdır. Bu baxımdan osmanlıların Gəncə-Qarabağ əyalətini ələ keçirməklə buranın xəzinəyə mənfəət gətirəcək bir əyalət kimi nəzərdən keçirmişdilərsə də, gerçəklik bu idi ki, əyalət maliyyə baxımından daim kəsirdə qalan və Osmanlı dövlət xəzinəsi üçün əlavə "*yük*" olan bir əyalətə çevrilmişdi.[80]

## VƏQFLƏR

İcmal dəftərə görə, xeyriyyə məqsədi ilə təsis edilmiş vəqflərin hamısı Gəncə şəhərində olmuş və dini qurumlara - came və məscidlərə – aid idi. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərinə görə, Gəncə şəhərində "bəziləri uçuq, bəziləri isə yaxşı vəziyyətdə" olan 15 came və "müqəddəs məscid" var imiş;[81] halbuki İcmal dəftərin məlumatına əsasən yalnız iki camenin və iki məscidin vəqfi olmuşdur; onları Gəncə-Qarabağ əyalətinin mirmiranı Sarı Mustafa paşa təsis etmişdi.[82] Bunlar *sultan III Əhməd camesi, Gəncə qalası camesi, Avşin (?) Baba məscidi* və *Şahsevən məscidi* idi.[83]

Bir qayda olaraq, hər vəqfin gəlir mənbəyi olurdu. Sultan III Əhməd camesini çıxmaqla, adları yuxarıda çəkilən came və məscidlərin gəlir mənbəyi İcmal dəftərdə qeyd olunmamış və yalnız xərclərinə (işçilərin maaşlarına) yer ayrılmışdır. Müfəssəl

---

[80] U.Demlikoğlunun hesablamalarına görə, Səfəvi dövlətinin osmanlı idarəçiliyinə müvəqqəti daxil edilən əyalətlərinin maliyyələşdirilməsi 1723-1735-ci illərdə Osmanlı dövlət xəzinəsinə 50 milyon ağçaya başa gəlmişdir; bax: U.Demlikoğlu, s. 1451

[81] *Müfəssəl dəftər*, s. 29

[82] Bax: *Osmanlı belgelerinde Karabağ*, s.53, belge 21.

[83] *İcmal dəftəri*, s. 30

dəftərdə isə, sultan III Əhməd camesinin gəlir mənbəyi kimi Gəncəbasan nahiyəsinin Ocaqlı, İmamlı və Qızılqayalı kəndləri və Ocaqlı məzrəəsi, Kiçik Kürəkbasan nahiyəsinin isə dörd kəndinin [Əmir Hacılı, Ballıca, Kiçik Tut (?) və İlicə] gəliri (cəmi 289.800 ağça) göstərilmişdir.[84] Kənd adlarının yazılışındakı bəzi fərqləri [Müfəssəl dəftərdə başqa adı *Buxara* olan və *Ocaqlı* kimi tanınan kəndin adı İcmal dəftərdə *Tacdar Ocaqlı*, *Ocaqlı məzrəəsi* İcmal dəftərdə *Ocaqlı* kəndi, *Qızılqayalı* kəndi İcmal dəftərdə *Qızılqaya*, *Ərəbli Quşçu* kəndinin adı İcmal dəftərdə *Əmir Hacı* kimi, *Kiçik Tut* (?) kəndinin adı Ballıca kəndinin *Nəql* (?) *məzrəəsi*, *İlicə* kəndinin adı isə, *İlçi* (?) kimi yazılmışdır ] çıxmaq şərti ilə hər iki dəftərdə eyni kəndlərdən bəhs olunur, lakin Müfəssəl dəftərdən fərqli olaraq, İcmal dəftərdə bu kənd və məzrəələrin hamısının Gəncəbasan nahiyəsinin tərkibində yerləşdiyi qeyd edilir. Bununla belə müfəssəl və İcmal dəftərlərində həmin kəndlərdən götürülən illik gəlir məsələsində ciddi fərq olduğunu da qeyd etmək lazımdır. Müfəssəl dəftərə görə, vəqf kəndlərinin illik gəliri 289.800 ağça olduğu halda, İcmal dəftərdə 324 min ağça yazılmışdır. Aradakı fərq-34.200 ağça – İcmal dəftərin tərtib edildiyi illərdə 15 min ağça gəlir əldə edilməsi nəzərdə tutulan İmamlı kəndinin gəliri 48 min ağçaya, İlicə kəndinin gəliri isə 16.800 ağçadan 18 min ağçaya yüksəldilməklə əldə edilmişdir.[85]

---

[84] *Müfəssəl dəftər*, s. 42, 50-51, 58, 62-62, 146, 147, 153.

[85] *İcmal dəftəri,* s. 29-30; Sultan III Əhmədin şərəfinə vəqf təsis etmiş Sarı Mustafa paşanın osmanlı hökümətinə müraciətində, vəqfə aid came və məscidlərlə mədrəsənin gəlir mənbələrindən götürdüyü vəsaitin bu vəqfin xərclərini qarşılaya bilmədiyi üçün, sultan xaslarından olan Xangah kəndini sultan xasları siyahısından çıxararaq, həmin kənddən əldə edilən gəlirin ona *mülk* kimi verilməsini xahiş etmişdir. Sarı Mustafa paşaya ünvanlanmış mart 1729-cu il (evail-i şaban 1141) tarixli hökmdə onun xahişi məqbul qarşılanmışsa da (bax: *Osmanlı belgelerinde Karabağ*, s. 53, belge 21; Zeynep Kurt, s.185, Hükm 195), 1732-ci il tarixli İcmal dəftərin sultan xasları ilə bağlı hissəsində Talış nahiyəsinə tabe olan həmin kəndin adı vəqf kəndləri siyahısına salınmamış və əvvəlki kimi 30 min ağça illik gəlirlə sultan xasla-

Digər came və məscidlərin gəlir mənbəyi haqqında Müfəssəl dəftərdə məlumat yoxdur. Bunun səbəbi kimi, onun tərtib edildiyi illərdə hakimiyyətdəki sultanın xaslarının və şərəfinə ucadılmış (və ya adı verilmiş) camenin gəlir mənbələrinin müəyyənləşdirilməsi ilkin vəzifələrdən olduğundan, Müfəssəl dəftərdə sultan III Əhməd camesi vəqfinin gəlir mənbələri ilə bağlı məlumatlara yer verilmişdir. *Gəncə qalası camesi, Avşin (?) Baba məscidi* və *Şahsevən məscidinin* vəqfləri isə, ehtimal ki, Müfəssəl dəftərin təsdiq olunmasından bir neçə il sonra təsis edilmişdir.

Sultan III Əhməd camesi vəqfinin gəlir mənbəyi ilə bağlı İcmal dəftərdəki məlumat, daha doğrusu, bu bölümün başlığı, digər came və məscidlərin gəlir mənbəyinə də aydınlıq gətirir: “Sultan həzrətlərinin Gəncə şəhərində (medine) olan camelərinin, məscidlərinin və mədrəsələ-rinin vəqflərinin kəndləri”.[86] Başlıqda adları çəkilmədən qeyd edilən came və məscidlərin vəqflərinin sultan III Əhməd camesi vəqfinin gəlir mənbəyi hesabına maliyyələşdirdiliyini söyləməyə əsas verən sultan III Əhməd camesinin gəlirinin xərclərdən yüksək olmasıdır. İcmal dəftərə görə, adları yuxarıda qeyd edilən kənd və məzrəələrdən 324 min ağça gəliri olan sultan III Əhməd camesi vəqfinin maaşlar (*vazife*) üçün ayırdığı vəsaitin miqdarı 225 min ağça idi. İllik artıq qalan (*ziyade*) 99 min ağça olmuşdur. Bu vəsaitin digər came və məscidlərin ümumi illik xərclərini tam qarşılaya biləcəyini  Gəncə qalası camesinin, Avşin (?) Baba və Şahsevən məscidlərinin illik xərclərinin (cəmi 75.600 ağça) (müvafiq olaraq, 32.400 ağça, 27 min ağça, 16.200 ağça) sultan III Əhməd camesinin artıq qalan vəsaitindən xeyli az olduğuna əsaslanaraq söyləmək mümkündür. Bu came və məscidlərin xərcləri də ödəndikdən sonra belə 23.400 ağçanın qalması, sultan III Əh-

rına aid kənd kimi qeyd olunmuşdur; bax: *İcmal dəftəri*, s. 16. Əlavə edək ki, Osmanlılar dövründə Gəncə-Qarabağ əyalətində *mülk* qeydə alınmamışdır.

[86] *İcmal dəftəri*, s. 29.

məd camesi vəqfi üçün xeyriyyəçilik sahəsində əlavə imkan yaradırdı.

Gəncə şəhərindəki came və məscidlərin həm işçilərinin (*mürtezika*)[87] sayı və maaşlarının miqdarı baxımından da sultan III Əhməd camesinin üstün və imtiyazlı olduğunu, onun mütəvəllisi, xatibi, cüzxanı, şeyx əl-qurrası, iki imamı, dörd müəzzini, beş fərraşı, üç qəndil yandıranı, iki qapıcısı, bir müdərrisinin (cəmi 21 nəfər) olmasından, 30 nəfər tələbəyə təhsil verən mədrəsəsinin fəaliyyət göstərməsindən anlamaq mümkündür. Müqayisə üçün əlavə edək ki, Gəncə qala camesinin 1 xatibi, 1 imamı, 1 müəzzini, 1 fərraşı və 1qapıcısı, Avşin (?) Baba məscidinin 1 imamı, 2 müəzzini, Şahsevən məscidinin isə 1 imamı və 1 müəzzini var idi.

Nəzərə çarpan digər cəhət də işçilərə verilən maaşlardakı fərqlərdə özünü göstəri-di: vəzifə maaşları, həmin vəzifə sahiblərinin işlədikləri came və məscidə görə dəyişirdi. Misal üçün, Şahsevən məscidinin müəzzinin gündəlik maaşı 15 ağça olduğu halda, sultan III Əhməd camesində həmin vəzifə maaşı 25 ağça idi. 2 imamı olan sultan III Əhməd camesində hər imama 40 ağça verildiyi halda, Şahsevən məscidində bu vəzifədəki şəxsə 30 ağça, Avşin (?) Baba məscidində isə 25 ağça verilirdi. Bundan əlavə, Şahsevən məscidinin müəzzizinin maaşı – 15 ağça – sultan III Əhməd camesinin fərraşlarının maaşına bərabər idi.

Sultan III Əhməd camesinin nəzdində mədrəsə fəaliyyət göstərmiş, 1 nəfər müdərrisi və mədrəsənin hücrələrində yaşayan 30 nəfər tələbəyə təhsil və gündə 5 ağça təqaüd verilmişdir.

Göründüyü kimi, osmanlılar dövründə 2 came, 2 məscid və 1 mədrəsə ilə məhdudlaşan vəqflərin yayılma coğrafiyası geniş deyildi və Gəncə şəhərinin dini obyektlərini və tədris müəssisəsini əhatə etmişdir. XVİ əsrin sonlarında olduğu kimi, XVIII əsrin 20-30-cu illərində də Gəncə-Qarabağ əyalətində nə

---

[87] *Mürtezika* - Allah nemətindən payı olanlar mənasında işlədilən bu anlayış vəqfdən maaş alanlar üçün istifadə edilirdi.

zaviyyə vəqfi, nə də ki, övlad vəqfi olmuşdur. XVI əsrin sonlarında osmanlıların Gəncə-Qarabağ əyalətində fəaliyyət göstərmiş zaviyyə və övlad vəqflərinin gəlir mənbələrinin istifadə məqsədlərində xəzinənin xeyrinə etdikləri dəyişiklər bu vəqflərin fəaliyyətini xeyli zəiflədərək, süqutuna yol açmış, XVIII əsrin 20-ci illərinədək, yəni osmanlı hakimiyyətinin bərqərar olmağa başladığı illərə qədər bu vəqflərin heç biri fəaliyyət göstərməmiş, məhz buna görə onlar haqqında müfəssəl və İcmal dəftərlərində məlumata rast gəlinmir.

## SON SÖZ ƏVƏZİ:
### GƏNCƏ-QARABAĞ ƏYALƏTİNDƏ XRİSTİAN TORPAQ SAHİBLƏRİ OLMUŞDURMU?

Osmanlılar yeni ələ keçirdikləri yerlərdə dövlətinin digər əyalətlərdə olduğu kimi, torpaq sahibliyi ilə bağlı məsələlərdə eyni qaydalara əməl etmişlər. Dini (və etnik) mənsubiyyətindən asılı olmayaraq, osmanlı hakimiyyətini qəbul edən və mülk sahibliyini təsdiq edən sənədi təqdim edən şəxs sahiblik hüququnu osmanlı dövründə də qoruya bilmişdir. Bu məsələ ilə bağlı Osmanlı dövlətinin ayrı-ayrı bölgələrinə aid xeyli sənəd vardır. Bosniya, Macarıstan və Balkan əyalətlərinin osmanlı idarəsinə keçdikdən sonra, osmanlılardan əvvəl bu yerlərdə mülk sahibi olmuş şəxslər dövlət qarşısında müəyyən edilmiş öhdəliklər qarşılığında və mülk sahibliyini təsdiq edən sənədi təqdim edərək, öz sahiblik hüquqlarını qoruya bilmişlər.[88]

1723-cü ildə osmanlıların ələ keçirdikləri Tiflis əyalətində Səfəvilər dövründə mülk sahibi olmuş xristianların sahiblik

---

[88] Bax: A.Nakiboğlu, B.D.Yasa, A.N.Berkman, "İktisat tarihinde Bosnada torpak meselesi", *PEK (Politik, ekonomik kuram),* 2017, cilt 1, sayı 2, ss. 58; Feridun M.Emecen, "Pirlepe-Kırçova kesiminin en eski timar defteri (1445-1555)", *Osmanlı araştırmaları* XLIII, 2014, s. 343, 349; К.Хеди, "Место и положение Венгерской провинции в составе Османской империи", *Средние века*, 1997, вып. 59, с. 157.

məsələsinin necə həll edildiyini bu əyalətə aid İcmal dəftərdəki qeydlər aydınlıq gətirir. Osmanlıların Tiflis əyalətində tətbiq etdikləri timar sistemi nəticəsində bir sıra yerli zadəganlar torpaq sahibliyindən məhrum olmuş və onlara məxsus torpaqlar (kəndlər) Osmanlı sultanının xaslarına aid edilmişdir. Lakin bu məsələni Tiflis əyalətinin bəylərbəyi Rəcəb paşanın nəzərinə çatdıraraq, sənədlər təqdim edən və "*tavad* " ("bəy" statusuna bərabər təbəqə) titulu daşıyan Luarsaba və Vaxuşti Abaşidzeyə Qori qəzasının Sis, Baratlı, İmlaxor nahiyələrindəki mülkləri (kəndləri) yurdluq – ocaqlıq statusu ilə geri qaytarılmış və sahibləri təsdiq edilmişdir.[89]

Eyni qayda xristian kilsələrinin mülkiyyətinə də aid idi. İrəvan əyalətini ələ keçirən osmanlılar onlara təqdim edilmiş sənədlər əsasında Üçkilsəyə aid bütün kəndlər üzərində bu kilsənin mülkiyyət hüququnu tanımışlar.[90]

Yuxarıda qeyd etdiyimiz məsələ kontekstində az sayda xristian əhalisi olan Gəncə-Qarabağ əyalətində də xristian əqidəli insanlardan mülkiyyət sahiblərinin olmasını ehtimal edə bilərdik. Müasir Ermənistan tarixçilərinin iddiasına görə, Qarabağda yeganə mülk sahibləri xristianlardan olan və "məlik" titulu daşıyan "*yerli ermənilər*" imiş.[91] Halbuki həm Səfəvi, həm də Osmanlı dövrünün gerçəkliyi Ermənistan tarixçilərinin iddiasından fərqli bir mənzərəni ortaya qoyur. Səfəvi dövləti idarəçiliyində ərazi-inzibati vahidləri ilə yanaşı, sosial təşkilatlanmanın formalarından olan *xristian İcmaları* da olmuş və həmin İcmalara başçılığı məliklər edirdilər. Xristian əhalinin dövlət qarşı-

---

[89]"Tiflis əyalətinin İcmal dəftəri", *Tapu ve Kadastro Kuyud-i kadime Arşivi,* TTD 208, v. 10b, 11a, 33b.

[90] Bax: А.Д.Папазян, "Турецкие налоговые реестры села Вагаршапат 1725-1728 гг. (erməni dilində, xülasə rus dilində)", *Вестник Матенадарана,* № 5, 1960, с. 431-464.

[91] Misal üçün, Artak Maqalyanın kitabı bu tezis üzərində qurulub; bax: Артак Магалян, *Арцахские меликства и меликские дома в XVII- XIX вв.* Ереван, ВМВ-Принт, 2012 (bundan sonra: Артак Магалян).

sında öhdəçilikləri üçün məsul olan məliklərin sahiblik hüququna gəldikdə isə, məliklərin bu hüququ xristianların yaşadıqları bütün kəndlərə deyil, yalnız irsi olaraq bir kənd (və ya bir neçə kənd) ilə məhdudlaşırdı. Özünə məxsus kənd və ya kəndlərdən başqa digər kəndlərin idarə edilməsini məliklər həmin kəndlərin kəndxudaları vasitəsi ilə həyata keçirirdilər. Başqa sözlə ifadə etsək, məliklərin səlahiyyət arealı hər hansı bir ərazi-inzibati vahidinin ərazisini deyil, xristian icması əhalisinin yaşadığı kəndləri əhatə edirdi. Gəncə-Qarabağ əyalətinin nahiyələri olmuş Talış, Çelaberd, Xaçın, Vərəndə və Dizaqda isə, yalnız xristianlar deyil, türk-müsəlman əhali də yaşayırdı. *Müsəlmanları xristian məlikin tabeliyinə verilməsi müsəlman dövlətində yolverilməz idi, beləliklə, məliklərin yuxarıda qeyd etdiyimiz yerlərin sahibləri olduqları iddiasının əsassızlığını göstərir.*

Yuxarıda yurdluq-ocaqlıq məsələsi ilə əlaqədar söylədiklərimizə əlavə olaraq qeyd edək ki, bir məlikə inzibati xarakterli səlahiyyət verilmişdirsə də[92] (halbuki, sinxron mənbələrin heç biri bunu təsdiq etmir!), bu, müddət və müvəqqəti xarakter daşımışdır; bu işin osmanlı hərbçilərinə tapşırıldığını İcmal dəftərin materialları təsdiq edir. Onu da əlavə edək ki, osmanlıların Səfəvilər dövründə mülk sahibi olmuş məliklərə Gəncə-Qarabağ əyalətində hökm sürən qeyri-sabit şəraitdə müəyyən edilmiş vergilərin toplanmasında çətinlik çəkən və gəlir baxımından ilbəil kəsirdə olan xəzinəyə məxsus torpaq fondundan mülk kimi ərazinin ayırılması inandırıcı səslənmir. Məliklərin səlahiyyət arealına daxil olan və xristianların yaşadığı kəndlərin zeamət və timar kimi bölüşdürüləsi kəndlər siyahısında olmaları, həmin kəndlərin məlik mülkləri olmadığını təsdiq edir.[93]

---

[92] Misal üçün, Artak Maqalyan yazır ki, xaçınlı məlik Allahverdinin məlik statusu 1729-cu ildə Mustafa paşanın (Sarı Mustafa paşa nəzərdə tutulur. – H.Q.) hökmü ilə təsdiq edilmişdir; bax: Артак Магалян, с. 134.

[93] Misal üçün, A.D.Papazyanın keştəkli Aykazla bağlı nəşr etdiyi Səfəvilər dövrünə aid sənəddə Aykazın Keştək mahalının deyil, bu mahaldakı "*müəy-*

İstər Səfəvi, istərsə də Osmanlı hakimiyyəti dövründə ölkənin ərazi-inzibati bölgüsü dini – etnik mənsubiyyətə görə deyil, idarəçilik baxımdan aparılmışdır. Məhz buna görə Gəncə-Qarabağ bəylərbəyliyinin ərazi-inzibati bölgüsündə məliklərin başçılıq etdikləri "məliklik" adlı vahid olmamışdır. Səfəvilər dövrü Gəncə-Qarabağ əyalətinin ərazi-inzibati bölgüsünə görə, Gəncə-Qarabağ bəylərbəyliyi mahallara və ölkələrə bölünmüşdür. Bəylərbəyliyə başında "xan" titulu daşıyan və bu yerlərin hərbi-inzibati məsələləri üçün yüksək səlahiyyət sahibi olan şəxs rəhbərlik edirdi. Bəylərbəyin tabeliyində olan və "xan" və "sultan" titulu daşıyan hakimlərə mahalların idarəsi həvalə olunmuşdur. Həm ərazi-inzibati vahidini və həm də bir topluluğu (tayfa, camaat) nəzərdə tutan və bəylərbəyinin tabeliyində olan ***ölkə***lər də var idi ki, onların da başında *sultan* titulu daşıyan əşirət əmirləri dururdular. İ.P.Petruşevskinin Səfəvi dövlətinin ərazi-inzibati bölgüsü məsələsində "məliklik"lərin yerini müəyyən etməkdə tərəddüd etsə də, onları "*ölkə*"lərin siyahısına salması – bunu onun qoyduğu sıra nömrələri də təsdiq edir – N:5-9 – səhv yanaşmadır.[94] Nəşr olunmuş sənədlərdən də anlaşılır ki, xristian əhalinin dövlət qarşısında öhdəlikləri üçün məsul məliklər xristianların yaşadığı kəndlərin daxil olduğu *mahalın hakiminə* tabe olmuş və cari, o cümlədən mübahisəli məsələlərdə məhz mahal hakiminin köməyinə bel bağlaya bilərmişlər.[95]

---

*yən mülklərin bəzi hissələrinin*" mülk sahibi olduğu qeyd edilir; bax: А.Д. Папазян, "Персидские документы Матенадарана", *Указы,* выпуск второй (1601-1650 гг.), Ереван, Изд-ство АН Арм.ССР, 1959, с. 329-330 (документ №: 15); bundan sonra: А.Д.Папазян.

[94] Bax: И.П.Петрушевский, *Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI- начале XIX вв,* Ленинград, 1949, с.137

[95] А.Д.Папазян, с. 329-330. Səfəvilər dövründə rəsmi sənədlərdə adı Keştək olan bu mahalın adı A.D.Papazyanın təqdimatında nədənsə "Quştəsif"ə çevrilmişdir. Bundan əlavə, A.D.Papazayanın nəşr etdiyi sənədlərdə də Keştəyin mahal kimi hakimi Abbasqulu sultanın olduğu göstərilir (А.Д. Папазян, "Персидские документы Матенадарана", *Указы,* выпуск второй (1601-1650 гг.), Ереван, Изд-ство АН Арм.ССР, 1959,с. 353-354, доку-

Halbuki müasir Ermənistan tarixçiləri uydurma "məliklik" terminini və ona daxil etdikləri "məzmunu" siyasi müstəvidə nəzərdən keçirməyə üstünlük verməklə, onların Qarabağda dərin kökləri olan dövlətçilik ənənələrinin olduğunu sübut etməyə çalışırlar. Misal üçün, Kim Kaqramanyanın fikrincə bu "məlik"-lərin başında durduqları "məlik"lərin hamısı ayrı-ayrılıqda "ölkə" (*страна*) imiş.[96] M.Telunts adlı tarixçi isə, ümumiyyətlə, hüquqi terminlərin fərqinə varmadan, əvvəlcə yazır ki, Qarabağ və Zəngəzur ("Арцах" və "Сюник") 15.547 kv.km sahəsi (?) və "*özünü idarə edən*" və "*de-yure tanınmış (?) dövlətlər*", sonra isə, elə həmin səhifədəcə bu "dövlətlər" "*monarxiya formasında olan hərbi-siyasi birliklərin xüsusiyyətlərini ehtiva edirmiş*" (?), deyə qeyd edir.[97] A.Maqalyan isə, Qarabağda olmamış ingilis səyyahı və taciri C.Hanveyə isnad edərək, Qarabağdakı "*sığnaq*"ların "*respublika*"ya bənzədiyini xüsusi vurğulayır.[98] Qarabağın siyasi tarixinə kitab həsr etmiş S.Dadayan yuxarıda fikirlərindən bəhs etdiyimiz tarixçilər kimi, iki səhifədə bir-birinə zidd "görüş" irəli sürür. O, əvvəlcə qeyd edir ki, "məhz Nadir şah inzibat-siyasi qurum olan Xəmsəyə *muxtariyyət* vermişdir". Bundan sonra S.Dadayan fikrini daha da "inkişaf" etdirərək belə bir qənaətə varır ki, XVIII əsrin ortalarına doğru azadlıq mübarizəsində Qarabağ "*ölkənin* (?) daxili siyasi həyatının bütün mə-

---

мент №:32); bu da məliklərin mahalın tərkibində bir icma olduğunu və mahalın hakiminin tabeliyində olduğunu göstərir. Artak Maqalyanın Vərəndə ilə bağlı nəşr etdiyi sənədlərdə də Xaçın və Vərəndə "məliklik"lər kimi deyil, ayrı-ayrı mahallar kimi qeyd edilmişdilər, bax:
http://m.aniv.ru/archive/35/shahskie-firmany-i-nadgrobnye-nadpisi-varanda-artak-magaljan/

[96] Ким Каграманян, *Арцах: искаженные и игнорированные реалии*, Ереван, ДАМ, 2014, с. 107 və b.

[97] Малик Телунц, "Освободительная борьба Сюника и Арцаха в 1722-1730 гг. и Россия. Территория и органы самоуправления армянских областей Арцаха и Сюника", *Научные чтения* (сборник статей), Степанакерт, АрГУ, 2016, с.156.

[98] Артак Магалян, с. 41.

sələlərində faktiki olaraq *müstəqillik* qazanmışdır". Bu cümlədən sonra isə, nə yazmış olduğunu unudan S.Dadayan qeyd edir ki, "məliklərin arasındakı anlaşmazlıq *müstəqillik qazanma* yolunda bir bəlaya çevrilmişdir". [99]

Nadir şah dövrü ilə əlaqədar isə, erməni tarixçiləri bir-birlərinə zidd fikirlər söyləyirlər. Misal üçün, adını qeyd etdiyimiz S.Dadayan yazır ki, Nadir şahın dövründə *məlikliklər Gəncə bəylərbəyliyinin tərkibindən çıxarılıb, birbaşa mərkəzə tabe edilmiş*, sonra davam edərək, elə həmin cümlədə qeyd edir ki, *bu yerlərin idarə edilməsi Nadir şahın qardaşı İbrahim xana etibar olunmuşdur*.[100]

Ş.M.Mktrçyan isə, "XVIII əsrin I yarısında Artsax-Qarabağda xalqın taleyini müəyyən etmiş *milli (?)-azadlıq* hərəkatları ilə zəngin olan tarixi dövrə aid boşluqları dolduran" dizaqlı məlik Yeqanın qəbirüstü epitafiyasına isnad edərək, Nadir şah məlik Yeqanı Gəncə-Qarabağ bəylərbəyliyinə tabe olmuş "altı xristian vilayətinin – Dizaq, Vərəndə, Xaçın, Çelaberd, Talış və Koçisin (Köçəz) – *xanı* və *bəylərbəyi* təyin etmişdir" yazır.[101] Halbuki bu dövrün mühüm mənbələrindən olan əsər müəllifi Məhəmməd Kazım Mərvi əsərinin heç bir yerində məlik Yeqanın adını xan və bəylərbəyi kimi qeyd etməmişdir. Məhəmməd Kazım Mərvi yazır ki, Nadir şah "Azərbaycan [vilayətindəki] bütün *ermənilərin* (burada: xristian təbəə - H.Q.) *ağsaqqalı* (*rişsefid*) olmuş [məlik Yeqanı] yenidən adı çəkilən tayfanın *ağsaqqalı* rütbəsinə təsdiq etdi".[102]

---

[99] Степан Дадаян, *Политическая история Арцаха-Карабаха от Хамсы до автономии*, факты и вымыслы, Степанакерт, Дизак плюс, 2017, с. 33-34; bundan sonra: Степан Дадаян.

[100] Степан Дадаян, с. 33.

[101] Ш.М.Мкртчян, *Историко-архитектурные памятники Нагорного Карабаха*,Ереван, 1989, с.81-82.

[102] Mirzə Məhəmməd Kazım Mərvi, *Alem-arayi-Naderi*, cild I. Naşir - Məhəmməd Əmin Reyahi, Tehran, Nəqş-i cahan, 1364, s. 460.

Göründüyü kimi, qeyd etdiyimiz mənbədə məlik Yeqana nəinki *xan* və *bəylərbəyi* titulu və vəzifəsi verilməmiş, heç vəzifəsi ilə bağlı *məlik* kəliməsi də istifadə edilməmişdir – ona yalnız icmasının *ağsaqqalı* statusunun verildiyi bəyan edilmişdir.

Başqa sözlə desək, "*məliklik*" anlayışı Səfəvi dövlətində məliklərin funksiyalarının nədən ibarət olduğuna aydınlıq gətirmədən Ermənistan tarixçiləri tərəfindən Səfəvi dövlətinin idarəçilik strukturuna *süni* və *məqsədli şəkildə pərçim edilmiş uydurma bir termindir*.

XVIII əsrin 20-ci illərində Gəncə-Qarabağ əyalətində yaşayan xristian məlik və ruhanilərin Rusiya imperiyasının çarlarına onları öz himayəsinə götürmələri ilə bağlı yazdıqları məktublarda onların mülkiyyətində gümüş, qurğuşun, dəmir, mis mədənlərinin olduğu və məhz bu mədənlər sayəsində onların tüfəng, tapança, barıt, qılınç, qalxan hazırlaya bildikləri xüsusi vurğulanırdı. Bundan əlavə, məktublarda Qarabağa gələcək rus ordusunun ərzaq (yağ, çörək, ət, hətta araq-çaxır/"*vodka i çixir*"), nəqliyyat vasitələri (at, öküz) sarıdan heç bir probleminin olmayacağı da nəzərə çatdırılırdı.

Bunların cəlbedici amil kimi məktublarda qeyd edilməsinə baxmayaraq, gerçəklik yazılanların tam əksini göstərməkdədir: Osmanlı və Səfəvi dövlətləri də daxil bütün müsəlman dövlətlərində filiz mədənləri dövlətin mülkiyyətində olduğu üçün, bir qayda olaraq dövlət başçısının xaslarına aid edilmişdir – mülk kimi verilmə halları isə, məlum deyil. Xristianlar müəyyən vergi imtiyazı əldə edə bilmək üçün orada işləyə bilərdilər, lakin mülk sahibi ola bilməzdilər, çünkü mədənlər strateji obyektlər siyahısında olmuşdur. Təqdim edilən dəftərlərdə də filiz mədənlərinin mülk kimi verilməsi hallarına rast gəlmirik.

Bu baxımdan rus çarlarına yazılan məktublarda məlik və ruhanilərin rus ordusu Qarabağa gələrsə, onun ordusunun əsgərlərini silahla tam təmin etmək iqtidarında olmaları haqqında söz vermələri yalandan başqa bir şey deyil: məliklərin məktublarının

birində tam silahlanmış olduqları qeyd edilsə də, digərlərində məliklər silah çatışmazlığından gileylənirdilər.[103]

Rus ordusunun maddi təchizatı baxımından məlik və ruhanilərin verdikləri vədlərə gəldikdə isə,[104] Gəncə-Qarabağ əyalətinin əhalisinin maddi vəziyyətini yuxarıda nəzərdən keçirərkən, siyasi sabitliyin pozulması nəticəsində əkinçiliklə məşğul ola bilmədiklərinin, vergilərini ödəyə bilmədiklərinin və dövlət xəzinəsinə borclu qaldıqlarının şahidi olduq.

# MƏNBƏ VƏ ƏDƏBİYYAT

## MƏNBƏLƏR

### a. *Dəftərlər*

Gəncə-Qarabağ əyalətinin İcmal dəftəri - Tapu ve Kadastro Kuyud-i kadime Arşivi, TTD 373.
Gəncə-Qarabağ əyalətinin Timar ruznamçə dəftəri- T.C. Cumhurbaşkanlığı Devlet Arşivleri, Osmanlı Arşiv külliyesi, TD 913; Gəncə-Qarabağ əyalətinin Timar ruznamçə dəftəri – T.C. Cumhurbaşkanlığı Devlet Arşivleri, Osmanlı Arşiv külliyesi (İstanbul), TD 914.
Tiflis əyalətinin İcmal dəftəri - Tapu ve Kadastro Kuyud-i kadime Arşivi (Ankara), TTD 208.

### b. Arxeoqrafik sənədlər

Национална Библиотека "Св.св Кирил и Методий" (София), Ориенталски сбирки:
Фонд 1, Арх. ед. 1776, 20533
Фонд 236А, Арх. ед. 1136
Фонд 313А, Арх. ед. 23, 24, 192, 196, 212, 218, 219, 238, 239, 357, 811
Фонд 315А, Арх. ед. 60

[103] Г.А.Эзов, *Сношения Петра Великого с армянским народом*, документы, Санкт-Петербург, 1898, с. 379-380, 386-389, 390, 444.
[104] Yenə orada, s. 445, 446.

### c. Nəşr olunmuş mənbələr

*Emecen,* Feridun. M. Pirlepe-Kırçova kesiminin en eski timar defteri (1445-1555)- Osmanlı araştırmaları XLIII, 2014, ss. 341-474

*İrəvan* əyalətinin İcmal dəftəri. Araşdırma, tərcümə, qeyd və əlavələrin müəllifləri Ziya Bünyadov və Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı, "Elm", 1996.

*Gəncə-Qarabağ* əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi Hüsaməddin Məmmədov (Qaramanlı). Bakı, "Şuşa", 2000.

*Kurt,* Zeynep. 13 numaralı ve 1727-1730 tarihli Mühimme defteri zeyli (Değerlendirme- transkripsyon- dizin). Yüksek lisans tezi. Elazığ, 2005.

*Lori* vilayətinin İcmal dəftəri.Ön söz, mətnin tərtibi, tərcümə və qeydlərin müəllifi Şahin Mustafayev. Bakı, "Nurlan", 2004

*Mirzə Məhəmməd Kazım Mərvi*. Alem-arayi-Naderi, cild I-III. Naşir- Məhəmməd Əmin Reyahi. Tehran, "Nəqş-i cahan", 1364

*Osmanlı belgelerinde Karabağ*. Proje yöneticisi Yusuf Sarınay. İstanbul, 2008

*Папазян* А.Д. Персидские документы Матенадарана. Указы. Выпуск второй (1601-1650 гг.) Ереван, Изд-ство АН Арм.ССР, 1959

*Папазян* А.Д. Турецкие налоговые реестры села Вагаршапат 1725-1728 гг. (erməni dilində, xülasə rus dilində). – "Вестник Матенадарана", № 5, 1960, с. 431-464

*Путешествие кавалера Шардена по Закавказью в 1672-1673 гг.* Пер. Е.В.Бахутовой и Д.П.Носовича. Тифлис, 1902

*Симеон Ереванци*. Джамбр. Пер. С.С.Малхасянца. Москва, 1958

*Tarih-i Küçükçelebizade*. "Tarih-i Raşid", Matba'-i Amire, İstanbul, 1282

*Эзов,* Г.А. Сношения Петра Великого с армянским народом. Документы. Санкт-Петербург, 1898

**ƏDƏBİYYAT**


**d. Azərbaycan dilində**

*Azərbaycan tarixi*. Cild III, Bakı, Elm, 2007

*Mustafazadə,* Tofiq. XVIII yüzillik- XIX yüzilliyin əvvəllərində Osmanlı Azərbaycan münasibətləri. Bakı, "Elm", 2002

*Nəsirova,* Yaxşıxanım. Osmanlı hakimiyyəti dövründə Urmiya və Xalxal bölgələri (XVIII əsrin 20-ci illəri). Bakı, "Elm", 2021

*Seyidov,* Mirəli. Sayat Nova. Bakı, 1954

**e. Türk dilində**

*Afyoncu*, Erhan. Osmanlı devlet teşkilatında Defterhane-i Amire. Doktora tezi. İstanbul, 1997 *Afyoncu*, Erhan. Ruznamçə – TDV İslam Ansiklopedisi, cilt 35, İstanbul, 2008, ss. 276-278

*Aliağaoğlu,* Alpaslan, *Uğur,* Abdullah. Osmanlı şehri – SDÜ Fen Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi, 2016, sayı 38, ss. 203-226

*Demlikoğlu*, Uğur. Osmanlı ordularının Genceyi fethi, askeri ve lojistik durumu (1723-1735).- "Tarih Okul dergisi", 2019, yıl 12, sayı XLIII, s. 1448-1479

*Emecen,* Feridun M. Ali'nin 'Ayn'ı: XVII yüzyıl başlarında Osmanlı bürokrasinde katib rümuzları.- Tarih dergisi, 1994, sayı 35, ss. 131-149

*Göyünç,* Nejat. "Timar Tevcihleri Hakkında"- Osmanlı-Türk Diplomatiği Semineri (30-31 Mayıs 1994), İstanbul 1995, s.67-74

*Fidan,* Fadimana. Osmanlı-Safevi savaşlarında Kars ve Erzurumun zahire tedarikindeki rolü (1730-1732 örneği).- Uluslararası Sosyal Araştırmalar dergisi, cilt 11, sayı 55, 2018, s. 259-269

*İnalcik,* Halil. "Osmanlı Bürokrasisinde Aklâm ve Muâmelât"- Osmanlı Araştırmaları, I, İstanbul 1980, ss.1-14

*Kılıç,* Leyla Aksu. Osmanlı tarihi araştırmalarında timar ve zeamet ruznamçe defterleri – "The studies of the Ottoman domain", cilt 7, sayı 12, 2017, s. 105-139

*Kılıç,* Orhan. Yurtluk-ocaklık ve hükumet sancakları üzerine bazı tespitler – OTAM. Sayı 10, 1999, ss. 119-137
*Kuru,* Levent. İranda osmanlı kaza idaresinin kurulması ve kaza tevcihatı. 1723-1735.- FSM İlmi araştırmalar İnsan ve Toplum Bilimleri dergisi, sayı 16, 2020, ss. 133-171
*Nakiboğlu,* A., *Yasa,* B.D., *Berkman,* A.N. İktisat tarihinde Bosnada torpak meselesi.- PEK (Politik, ekonomik kuram), 2017, cilt 1, sayı 2, ss. 53-65
*Özünlü,* Emine Erdoğan. Osmanlı ordusunda bir motivasyon ve terfi kaynağı: "terakki" tevcihi- Uluslararası Sosyal araştırmalar dergisi, cilt 3/11, 2010, s. 238-244

f. **Rus dilində**

*Бабаян*, Давид. Политическая история Карабахского ханства в контексте арцахской дипломатии XVIII века. Ереван, Антарес, 2007

*Дадаян*, Степан. Политическая история Арцаха-Карабаха от Хамсы до автономии. Факты и вымыслы. Степанакерт, 2017
*Каграманян*, Ким. Арцах: искаженные и игнорированные реалии. Ереван, ДАМ, 2014
*Магалян*, Артак. Арцахские меликства и меликские дома в XVII- XIX вв. Ереван, "ВМВ-Принт", 2012
*Магалян*, Артак. Шахские фирманы и надгробные надписи Варанда http://m.aniv.ru/archive/35/shahskie-firmany-i-nadgrobnye-nadpisi-varanda-artak-magaljan/
*Мамедов*, Г.М. Османская налоговая система в Азербайджане в 20-30-х годах XVIII века. Диссертация на соискание ученой степени кандидата исторических наук. Баку, 1985
[*Мелконян*, Ашот] Все территории современного Азербайджана были армянскими: академик ответил Алиеву- https://armenia.im/news-ru/vse-territorii-sovremennogo-azerbajdzhana-byli-armyanskimi-akademik-otvetil-alievu/
*Мкртчян*, Ш.М. Историко-архитектурные памятники Нагорного Карабаха. Ереван, 1989

*Петрушевский*, И.П. Очерки по истории феодальных отношений в Азербайджане и
Армении в XVI- начале XIX вв. Ленинград, 1949Azərbaycan tarixi, cild 3, Bakı, Elm, 2007
*Телунц*, Малик. Освободительная борьба Сюника и Арцаха в 1722-1730 гг. и Россия. Территория и органы самоуправления армянских областей Арцаха и Сюника.- "Научные чтения" (сборник статей). Степанакерт, АрГУ, 2016, сс.153-156
*Хеди*, К. Место и положение Венгерской провинции в составе Османской империи- "Средние века", 1997, вып. 59, с. 156-168

**g. İnglis dilində**

*Danielyan*, Eduard. Turkish-Azerbaijani falsifications of the armenian toponyms as an indication of the genocidal polisy.- "Fundamental Armenology", 2015, N: 1, pp. 159-179.

## Mənbələrin nəşri ilə bağlı qeydlər

Gəncə-Qarabağ əyalətinin İcmal dəftərində və 913 №:li təhvil dəftərinin mətnində bəzi qısaltmalar edilmiş və bunlar haqqında tərcüməyə aid qeydlərdə bəhs olunmuşdur.

İcmal dəftərdə livalar üzrə xaslardan sonra, həmin liva ərazisində zeamət və timar kimi verilməsi nəzərdə tutulan kəndlərin siyahısı və oralardan əldə edilən illik gəlir qeyd edilmişdir. Yuxarıda da qeyd etdiyimiz kimi, İcmal dəftərin ikinci hissəsində həmin kəndlərin hansı birisinin zeamət və timar olduğu ayrı-ayrılıqda təsbit edilmişdir. Təkrarlara yol verməmək və tədqiqatçıları çaşdırmamaq üçün, zeamət və timar kimi verilməsi nəzərdə tutulan kəndlərin siyahısını ixtisar edərək, onlar haqqında ümumiləşdirilmiş məlumat verməklə kifayətləndik. Həmin kəndlərlə bağlı İcmal dəftərin ikinci hissəsindəki məlumatları isə, tam verdik.

Bundan əlavə, İcmal dəftərdə sultan xaslarına aid bəzi livaların kəndləri üçün nahiyə adını təkrar etməmək üçün, katiblər kəndin adından sonra “*tabi-i mezbur*” (“adı çəkilən [nahiyəyə] tabe olan...”) ifadəsini yazmışdılar. Tərcümənin mətnində təkrarlamalara yol verməmək üçün, həmin ifadəni də ixtisar etməyi məqsədəuyğun bildik. Bu məsələdə etdiyimiz yeganə istisna, bir nahiyəyə aid kəndlərin siyahısı tərtib edilərkən, digər nahiyənin kəndi haqqında məlumat əlavə edildiyi halda, bu kəndin əvvəlki nahiyəyə tabeçiliyi təsəvvürü yaratmamaq üçün, “*tabi-i mezbur*” (“adı çəkilən [nahiyəyə] tabe olan...”) ifadəsini işlətməli olduq.

913 №:li təhvil dəftərində edilmiş qısaltma isə təzkirələrin mətninə aiddir. Nümunə üçün zeamət və timarların verilməsi ilə bağlı mirmiranın yazdığı təzkərələrin hərəsindən birinin mətninin tam tərcüməsini saxladıq. Digər təzkərələrin mətninin əvəzinə, təzkərənin kimin üçün hansı tarixdə verildiyi və onun berat almaq üçün təsdiq olunma tarixini qeyd etməyi münasib bildik. Zeamət və timar sahibinin adı və atasının adı, gəlirin hansı nahyənin kənd / kəndlərindən əldə edildiyinə dair məlumatları çıxmaq şərti ilə, təzkərələrin mətni qəlibləşmiş formadan istifadə edərək yazılması və dolayısı ilə yeni bir məlumatı ehtiva etməməsi, təzkərələrin tam mətninin tərcümənin həcmini süni şəkildə şişirtmiş və bunun nəticəsində yorucu xarakter almış olacağı üçün, təzkərənin mətninin ixtisarı bir zərurət halını almışdır.

Tərcümənin məntnində keçən terminlərin ayrıca bir bölmədə sözlük kimi açıqlanmasına ehtiyac görmədik. Kitabın araşdırma hissəsində onların açıqlanması mətn daxilində verilmiş və bu məsələnin yenidən ayrıca bir bölmədə nəzərdən keçirilməsi həm təkrara yol açar, həm də yorucu olardı deyə, ondan vaz keçməyə üstünlük verdik.

Dəftərlərdə keçən yer adlarının iki fərqli şəkildə yazılış və oxunuşu ilə bağlı müvafiq səhifələrdə qeydlər əlavə etdik. Eyni

yer adlarından (kənd və məzrəə) bəhs olunmasına görə, yer adlarının fərqli yazılış və oxunuşu haqqında İcmal və ruznamçə dəftərləri üçün etdiyimiz qeydləri 913 N:li təhvil dəftəri ilə bağlı hissədə təkrarlamağa ehtiyac görmədik.

Tədqiqatçılara, xüsusilə də tarixi coğrafiya və toponimika ilə məşğul olan mütəxəssislərə asanlıq yaratmaq üçün yer adlarının göstəricisini tərtib etməyi nəzərdə tutmuşduqsa da, onların İcmal dəftərdə nahiyələr üzrə, əsasən, siyahı şəklində tərtibi istənilən yerin lokalizasiyasının müəyyənləşdirilməsini asanlaşdıracağına görə yer adları göstiricisini tərcümə mətninə əlavə etməməyi məqsədəuyğun bildik.

# GƏNCƏ-QARABAĞ ƏYALƏTİNİN İCMAL DƏFTƏRİ

**[2]** ***Gəncə-[Qarabağ] əyalətinin İcmal dəftərinin* mündəricatı***

Gəncə şəhəri üzrə sultan (*miri*) müqatiəsindən təsbit olunmuş (*yazu*) [gəlir]- ildə 5586000 [ağça]

*Gəncə-[Qarabağ əyalətinə] tabe olan Quzey Gəncəbasan nahiyəsi* üzrə təsbit olunmuş [gəlir]:

sultan xasları (*havass-i miri*)- 1148100 [ağça]
mirmiran xasları- 158200 [ağça]
zeamət və timarlar- 330000 [ağça]

Yekun- 1636300 [ağça]

*Gəncə-[Qarabağ əyalətinə] tabe olan Şəmkürbasan nahiyəsi* üzrə təsbit olunmuş [gəlir]:

[sultan] xasları (*miri*)- 1450900 [ağça]
mirmiran xasları- 163800 [ağça]
zeamət və timarlar- 288500 [ağça]

Yekun- 1903200 [ağça]

*Gəncə-[Qarabağ əyalətinə] tabe olan Kürəkbasan nahiyəsi* üzrə təsbit olunmuş [gəlir]:

[sultan] xasları (*miri*)- 1229400 [ağça]
mirmiran xasları- 199000 [ağça]
zeamət və timarlar- 168000 [ağça]

Yekun- 1596400 [ağça]

*Gəncə-[Qarabağ əyalətinə] tabe olan Şüturbasan nahiyəsi* üzrə təsbit olunmuş [gəlir]:

[sultan] xasları (*miri*)- 734100 [ağça]
mirmiran xasları- 141000 [ağça]
zeamət və timarlar- 186000 [ağça]

Yekun- 1061100 [ağça]

*Sığnaq kimi tanınan Talış və Gülüstan nahiyəsi* üzrə [gəlir]:

sultan xasları (*miri*)- 246000 [ağça]
zeamət və timarlar- 106500 [ağça]

Yekun- 352500 [ağça]

---

* Dəftərlərin səhifə və vərəqləri **[ ]** işarəsi içində yazılmışdır. – H.Q.

*Gəncə-[Qarabağ əyalətinə] tabe olan Yavlaqbasan nahiyəsi* üzrə təsbit olunmuş [gəlir]:

[sultan] xasları (*miri*)- 714000 [ağça]
zeamət və timarlar- 60000 [ağça]

Yekun- 774000 [ağça]

*Gəncə-[Qarabağ əyalətinə] tabe olan Danqı nahiyəsi* üzrə təsbit olunmuş [gəlir]: 321000 [ağça]

*Gəncə-[Qarabağ əyalətinə] tabe olan Xılxına nahiyəsi* üzrə təsbit olunmuş [gəlir]:

[sultan] xasları (*miri*)- 1511800 [ağça]
mirmiran xasları- 157000 [ağça]
zeamət və timarlar- 732000 [ağça]

Yekun- 2400800 [ağça]

*Adı çəkilən (Gəncə-Qarabağ əyalətinə) tabe olan Bərdə livası* üzrə təsbit olunmuş [gəlir]:

[sultan] xasları (*miri*)- 1549700 [ağça]
mirmiran xasları- 263000 [ağça]
zeamət və timarlar- 859000 [ağça]

Yekun- 2671700 [ağça]

**[3]** Cəmi- 18.303.000 akçe

Təsbit olunmuş [gəlirdən] sultan xaslarının hissəsi- 14491000 [ağça]

Təsbit olunmuş [gəlirdən] [zeamət və] timar sahiblərinin hissəsi- 2730000 [ağça]

Təsbit olunmuş [gəlirdən] mirmiran xaslarının hissəsi- 1082000 [ağça]

Talış və Gülüstan nahiyələri çıxılmaqla, öz istəkləri ilə itaət etmiş olan və qanunla müəyyən edilmiş vergilərini ödəməyin əleyhində olmayan adları yuxarıda yazılmış liva və nahiyələr istər Əcəm (Səfəvi) dəftərlərində göstərilmiş, istərsə də hazırda gəlirlərindən öhdələrində olan bütün vergiləri təxirə salmadan ödəməkdədirlər.

İltizama verilmiş Gəncə müqatiələrindən başqa, liva və nahiyələrin gəliri üç hissəyə bölünmüş və sultan dəftərlərinin qaydasına uyğun olaraq [gəlirin] üçdə ikisi sultan və mirmiran xaslarına aid edilmiş, [gəlirin] yarısı ilə üçdə bir nisbəti isə zeamət və timarlara bağlı kəndlərdən təmin olunması təsbit olunmuşdur.

Gəncə müqatiələri çıxılmaqla sultan xasları üçün təsbit olunmuş gəlir 89 yük ağçaya[105] bərabər olmuş, bu gəlirin üç dəfə artacağını ehtimal etsək, sultan xaslarının sabit illik gəliri 450 kisə ağçaya çata bilər.

Sığnaq dağlarına yaxın yerlərdə yerləşən kəndlərin bəziləri əkinçiliklə məşğul olmaqdan məhrum olduqları üçün bu mübarək ildə 50 kisə ağçaya yaxın kəsirləri olmuşdur. Allah qismət edərsə, yenə də 400 kisə ağçadan artıq gəlir əldə etmək mümkün olacaqdır.

Bundan başqa, Gəncə müqatiəsindən 30 kisə ağça və şəriət cizyəsindən də 100 kisə ağça gəlir əlavə edilsə, sultan xaslarının gəlirinin cəmi 600 kisə ağçaya çatmış olar.

Haqq-ı taala həzrətləri əmin-amanlıq nəsib etsə, əsayiş və əmniyyətin olmaması və bəzi quldur [dəstələrinin qarətləri] ucbatından öz yerlərini tərk etmiş ətraf yerlərin əhalisi geri qayıda bilərsə, adları çəkilən nahiyə və livalardan əldə edilən gəlir tədricən 150 kisə ağça artım (*terakki*) göstərə bilər.

İdarə olunmayan başqa nahiyə və livaların gəliri *yekuna* daxil edilməmiş, təfsilatı və gəlirləri aşağıda ayrı-ayrılıqda yazılmışdır.

**[4]** Əcəm (Səfəvi- H.Q.) gəlir dəftərinə (*defter-i müfredat-i Acem*) görə Çelaberd və Kıştaq nahiyələri üzrə gəlir- 2728200 [ağça]

---

[105] *Ağça* - 1328-1687-ci illərdə Osmanlı dövlətində dövriyyədə olmuş gümüş pul. Nəzərdən keçirdiyimiz dövrdə maliyyə işlərində, o cümlədən dəftərlərdə ağca, sadəcə, hesablama vahidi kimi istifadə edilirdi. Bundan əlavə, maliyyə işlərində böyük rəqəmlər, misal üçün, 50 min ağça üçün "kisə", 100 min ağça üçün isə "yük" sözü işlədilirdi.

[Dərkənar] *Mərhum Mustafa paşa tabeçiliyində yüz nəfər olmaqla bu nahiyəyə ocaqlıq (rütbəsi- ?) ilə bir ağa təyin etmiş və şərəfli berat ilə güya qayda yaratmış, lakin [tapşırılan işin] öhdəsindən gəlməmiş və xəzinənin vəsaitinə ziyandan (iza'at-i emval) başqa xeyri olmamışdır.*

Əcəm (Səfəvi- H.Q.) gəlir dəftərinə (*defter-i müfredat-i Acem*) görə Sığnaqda olan Xaçın nahiyəsi üzrə gəlir- 1248000 [ağça]
[Dərkənar] *Bu nahiyə də ocaqlıq olmuş, lakin faydası yoxdur*

Əcəm (Səfəvi- H.Q.) gəlir dəftərinə (*defter-i müfredat-i Acem*) görə Sığnaqda olan Vərəndə nahiyəsi üzrə gəlir- 1183900 [ağça]
[Dərkənar] *Yuxarıda qeyd olunduğu kimi, bu nahiyəyə də tabeçiliyində yüz nəfər olmaqla ağa təyin olunmuş, lakin faydası olmamışdır*

Əcəm (Səfəvi- H.Q.) gəlir dəftərinə (*defter-i müfredat-i Acem*) görə Sığnaqda olan Dizaq nahiyəsi üzrə gəlir- 736500 [ağça]

Əcəm (Səfəvi- H.Q.) gəlir dəftərinə (*defter-i müfredat-i Acem*) görə Sığnaqda olan Küçüz nahiyəsi üzrə gəlir- 405500 [ağça]

Əcəm (Səfəvi- H.Q.) gəlir dəftərinə (*defter-i müfredat-i Acem*) görə Sığnaqda olan Həkəri nahiyəsi üzrə gəlir- 431560 [ağça]

Əcəm (Səfəvi- H.Q.) gəlir dəftərinə (*defter-i müfredat-i Acem*) görə Qaraçorlunun yaxınlığında olan Zarıs nahiyəsi üzrə gəlir- 172880 [ağça]

Əcəm (Səfəvi- H.Q.) gəlir dəftərinə (*defter-i müfredat-i Acem*) görə Qaraçorlunun yaxınlığında olan Keştasf nahiyəsi üzrə gəlir- 118000 [ağça]

Əcəm (Səfəvi- H.Q.) gəlir dəftərinə (*defter-i müfredat-i Acem*) görə Cavanşir və Otuziki camaatlarından əldə edilən gəlir- 738400 [ağça]

[Əcəm] gəlir dəftərinə (*defter-i müfredat-i Acem*) görə Ətyeməzli camaatından əldə edilən gəlir- 52600 [ağça]

**Kəngərli camaatı**

[Dərkənar] *Üç il bundan əvvəl Moskulu tərəfinə*[106] *getmişdilər. Hal-hazırda heç bir məlumat olmadığına görə gəlir yazılmadı.*

**Kəbirli camaatı**.

[Dərkənar] *Əcəm (Səfəvilər- H.Q.) zamanında dövlətə 10 min quruş*[107] *vergi ödəyən bir aşirət imiş. Bir neçə il olar ki, bir hissəsi Muğana, bir hissəsi Moskulu*[108] *tərəfə, digər hissəsi də Şirvana köçərək, dağınıq düşmüşdülər. Hal-hazırda [Gəncə-Qarabağ əyalətində] olmadıqlarına görə, gəlir yazılmamışdır.*

**[5]** Əcəm (Səfəvi- H.Q.) gəlir dəftərinə (*defter-i müfredat-i Acem*) görə Arasbar livası üzrə gəlir- 1666100 [ağça]

[Dərkənar] *Əcəm (Səfəvi- H.Q.) zamanında bu yerin [kəndləri] boş və dağılmış vəziyyətdə imiş. Torpağı çox bərəkətlidir. Lakin bu yerlər Sığnaq tərəfdə olduğuna görə, əhalisi ətraf yerlərə köçüb dağılmış və geri qayıda bilmirlər. Əgər əmin-amanlıq təmin olunarsa, bu yerlər abadlaşar.*

Əcəm (Səfəvi- H.Q.) gəlir dəftərinə (*defter-i müfredat-i Acem*) görə Bərgüşad livası üzrə gəlir- 1866900 [ağça]

Əcəm (Səfəvi- H.Q.) gəlir dəftərinə (*defter-i müfredat-i Acem*) görə Çuləndər nahiyəsi üzrə gəlir- 931300 [ağça]

Sultan qanununa (*kanun-i hakani*) əsasən Lori qəzası üzrə təsbit olunmuş gəlir- 544400 [akçe]

---

[106] Rusiya imperiyasının işğalıında olan Xəzəryanı ərazi nəzərdə tutulur.

[107] 1687-ci ildə ağçanın yerinə 120 ağça dəyərində müəyyənləşdirilmiş pul vahidi "quruş" kəsilməyə başlanmışdır.

[108] Bax: qeyd 103.

Yekun- 12824100 [ağça]

Yuxarıda qeyd olunanlar nəzərə alınaraq [bu dəftərin] *düstur əl-əməl* olması şərti ilə Dövlət dəftərxanasında qorunub saxlanılması buyuruldu. 14 şəvval [1]144-cü (10 aprel 1732-ci) il. *Doğrudur.*

*Buyuruldu. Doğrudur.*

**[6]** ***Gəncə-[Qarabağ] əyalətinin [İcmal] dəftəri.***

İçindəkilər (*fihris*)

Gəncə şəhərinin *müqatiələrindən* əldə edilən gəlir

*İltizama* verilmiş *mizan-i hərir* müqatiəsi- ildə 3960000 [ağça]

*İltizama* verilmiş gömrük və *qapan* müqatiəsi- ildə 1080000 [ağça]

*Mirabiyyə* müqatiəsi- götürə üsul (*ber veçh-i maktu*) ilə ildə 330000 [ağça]

*İltizama* verilmiş boyaxana müqatiəsi- ildə 120000 [ağça]

*İltizama* verilmiş at bazarı müqatiəsi- ildə 60000 [ağça]

*İltizama* verilmiş sabunxana müqatiəsi- ildə 36000 [ağça]

Yekun- 5586000 [ağça]

***Gəncə livasında olan sultan və mirmiran xasları, vəqflər, zeamət və timarlar Gəncə nahiyəsində olan sultan xaslarının gəliri (‘an mal)***

Ceyikli çayının kənarında yerləşən Alıxlı kəndi. [Əldə edilən gəlir] 120000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Qızılbaxça kəndi. [Əldə edilən gəlir] 2000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Düldül kəndi.[109] [Əldə edilən gəlir] 8000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Şam Bayadı kəndi. [Əldə edilən gəlir] 120000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Sofular kəndi. [Əldə edilən gəlir] 40000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Çoban Abdallı kəndi. [Əldə edilən gəlir] 90000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Qirzan kəndi. [Əldə edilən gəlir] 24000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Əhmədbəyli kəndi. [Əldə edilən gəlir] 30000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Pir Cəlil kəndi. [Əldə edilən gəlir] 36000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Dinarəşin kəndi. [Əldə edilən gəlir] 50000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Xanlıqlar kəndi. [Əldə edilən gəlir] 40000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Cövkən kəndi. [Əldə edilən gəlir] 24000 [ağça]

**[7]** Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Molla Osmanlı kəndi. [Əldə edilən gəlir] 12000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Qızıl Hacılı kəndi. [Əldə edilən gəlir] 24000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Şahsevən kəndi. [Kəndin] başqa adı Əliabaddır. [Əldə edilən gəlir] 30000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Balcılı kəndi. [Əldə edilən gəlir] 9000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Qaraca Əmirli kəndi. [Əldə edilən gəlir] 6000 [ağça]

---

[109] Müfəssəl dəftərdə bu kənd məzrəə kimi qeyd olunmuşdur; bax: Müfəssəl dəftər, s. 55.

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Sarbanan-i Arasbar kəndi.[110] [Əldə edilən gəlir] 30000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Ziyadlı kəndi. [Əldə edilən gəlir] 40000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Karlı kəndi. [Əldə edilən gəlir] 24000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Süleyman Hacılı kəndi. [Əldə edilən gəlir] 20000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Qadılı kəndi. [Əldə edilən gəlir] 36000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Kilsəkənd kəndi. [Əldə edilən gəlir] 60000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Qırıqlı kəndi. [Əldə edilən gəlir] 6000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Qurtlu kəndi. [Əldə edilən gəlir] 3000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Qulaca kəndi. [Əldə edilən gəlir] 4000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Qıbtiyan kəndi. [Əldə edilən gəlir] 1900 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Köhnəşəhər kəndi.[111] [Əldə edilən gəlir] 1000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Kəngərli camaatı. [Əldə edilən gəlir] 4000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Zərgərli kəndi. [Əldə edilən gəlir] 1200 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinin) yataqları. [Əldə edilən gəlir] 10000 [ağça]

Yekun- 897100 [ağça]

### *Gəncə və Sunqurabad nahiyələrinin sultan xaslarına aid dağ kəndləri*

[110] Müfəssəl dəftərdə (s. 436) – Sarbanlar.

[111] Müfəssəl dəftərdə (s.52) - məzrəə kimi qeyd olunmuşdur.

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Əmiryar kəndi. [Əldə edilən gəlir] 16000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Yuxarı Bəyan kəndi. [Əldə edilən gəlir] 20000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Quşçu kəndi. [Əldə edilən gəlir] 20000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Şataq kəndi. [Əldə edilən gəlir] 16000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Basil kəndi. [Əldə edilən gəlir] 3000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Afarca kəndi. [Əldə edilən gəlir] 16000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Sərxoş kəndi. [Əldə edilən gəlir] 16000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Quytul kəndi. [Əldə edilən gəlir] 8000 [ağça]

Adı çəkilən (Gəncə nahiyəsinə) tabe olan Savur kəndi. [Əldə edilən gəlir] 8000 [ağça]

